20 dekabr 2019-cu il
№48 (8863)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Təhsil millətin gələcəyidir!
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**Təhsildə yeni hədəflər** ⇨səh.3

**"Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər"** ⇨səh.5

**İki əks qütb - Cənubi Koreya və Finlandiya təhsilində qiymətləndirmə və məzmun** ⇨səh.9

**Azərbaycanın dünyaya bəxş etdiyi qüdrətli sima** ⇨səh.12

# Yeniləşən ali təhsil

### Əlçatanlıq və əhatəlilik təhsil sistemini hədəflərə çatdıracaq



Məlumdur ki, müasir dünya trendləri ölkənin inkişafının təməlində duran təhsilin önəmini günü-gündən artırmaqdadır. Ölkələr qarşısında duran strateji hədəflərə nail olmaq istiqamətində bütün səylər təhsildən, xüsusən də ölkənin insan kapitalını yetişdirən, onun inkişafını təmin edən ali təhsil sistemində baş verən modernləşmə proseslərindən birbaşa asılıdır. Müasir trendlər Azərbaycan ali təhsil sistemi qarşısında hansı vəzifələr qoyur? Qlobal əmək bazarının çağırışlarına cavab verməkdə ali təhsil sistemimiz nə dərəcədə hazırlıqlıdır?

Bütün bu suallara dekabrın 16-da Təhsil Nazirliyində Prezident İlham Əliyevin sərəncamlarına əsasən Bakı Dövlət Universitetinin (BDU) 100 illiyi münasibətilə bu ali təhsil müəssisəsinin təltif olunan əməkdaşlarına dövlət təltiflərinin təqdimetmə mərasimində cavab tapmaq mümkün oldu.

Mərasimdə çıxış edən Təhsil naziri Ceyhun Bayramov ali təhsil sistemimizi gözləyən dəyişikliklər və onları zəruri edən amillərdən danışmazdan əvvəl BDU-nun professor-müəllim heyətinin böyük bir qrupunu yüksək dövlət mükafatlarına layiq görülmələri münasibətilə təbrik edib və əmin olduğunu bildirib ki, başa vurmaqda olduğumuz 2019-cu il Bakı Dövlət Universitetinin tarixində yaddaqalan hadisə kimi qalacaq.

⇨Ardı səh.4

# Valideynin məktəbdə bir günü

İ.Tağıyev adına 26 nömrəli tam orta məktəb. Artıq dərs başlayıb. Ancaq məktəbin qapısından girənlər azalmır ki, azalmır. Gələnlər məktəblilər yox, onların valideynləridir. Valideynlərin hamısı yox. 26 nömrəli məktəbin siyahısında valideyn sayı 26 mindir. Ancaq görüşlərə 150-200 nəfər dəvət edilir. Onların arasında risk qrupuna daxil olan məktəblilərin valideynləri də olur, elmə həvəsi və akademik göstəriciləri ilə fərqlənən şagirdlərin valideynləri də.

Uşaqları dərsdə olan valideynləri məktəb qapısına gətirən səbəb nədir, görəsən? Nə uşağının dərslərindən geri qalması, nə də məktəbdə münaqişəyə girməsi səbəb olub bu ziyarətə. Valideynlər bu gün görüşə gəlib. Paytaxt məktəblərində "Valideynin məktəbdə bir günü" layihəsi çərçivəsində keçirilən görüşlərdən biri də burada reallaşacaq. Görüşdə sadəcə 2 tərəf - məktəblə valideynlər deyil. Təşkil edilən tədbirdə məktəbin yerləşdiyi Buzovna qəsəbəsində vəzifə, nüfuz, hörmət sahibi olan qonaqlar da iştirak edir.

### Onların günü belə başladı

Valideynlərin məktəbdəki günü səhər saat 9-da başladı. Qonaqlarını məktəbin direktoru Yaqut Məmmədova salamladı. Məktəbdə görülən işlərdən tutmuş verilən təhsilin keyfiyyətinə qədər hər məsələdən danışan məktəb rəhbəri təhsil müəssisəsi ilə valideyn münasibətlərinin bu işlərin uğurlu nəticələnməsinə təsir edən başlıca amil olduğuna diqqət çəkdi. "Valideyn-məktəb əməkdaşlığı şagirdin inkişafı üçün əlverişli psixoloji mühitin yaradılmasının əsas şərtidir", - dedi.

Valideynlər məktəb mühiti ilə tanış olandan sonra onlara məktəbin fəaliyyəti, tədris prosesi barədə ətraflı məlumat verildi. Sonra "açıq dərs"ə girdilər. Arzuladıqları müəllimin, istədikləri sinfin dərsində iştirak etdilər. Dərsdən sonra həm pedaqoji, həm də texniki işçi heyətilə söhbətləşdilər. Sonra idman zalına doğru yönəldilər. "İdman sağlamlığın rəhnidir" deyib fiziki inkişafına çalışan məktəblilərin qətiyyəti ilə tanış oldular.

### Məktəblilər özlərini əl işləri ilə ifadə edir

Məktəbin foyesində şagirdlərin əl işlərinin sərgiləndiyi yerə gəlib çıxdılar. Burada uşaqların yaradıcı inkişafını göstərən bir-birindən gözəl nümunələrlə tanış oldular. Ayrı-ayrı fənlər üzrə yaradılan guşələrdən birini də məktəbin psixoloqu təqdim etdi. Banu Məmmədova risk qrupuna daxil olan şagirdlərlə işindən danışdı. Məktəblilərin zərərli vərdişlərlə mübarizəsinə necə dəstək verdiyini, bu mübarizədə valideynlərin üzərinə düşənləri anlatdı. Dedi ki, valideynlər üçün xüsusi bukletlər belə hazırlayıblar.

⇨Ardı səh.13

# 146-2 "Qaynar xətt" xidmətinə noyabr ayında 23 müraciət daxil olub

Cari ilin noyabr ayında Təhsil Nazirliyinin xüsusi hallarla bağlı 146-2 "Qaynar xətt" xidmətinə 23 müraciət daxil olub. Bakı şəhəri, Şamaxı, Cəlilabad, İsmayıllı, Sabirabad, İmişli, Kəlbəcər, Qobustan, Lənkəran və Biləsuvar rayon məktəblərindən daxil olan bu müraciətlər əsasən şagirdlər arasında qısnama halları və ya şagird-müəllim arasında yaranmış münaqişə vəziyyətləri ilə bağlıdır.

Təhsil Nazirliyinin tapşırığına əsasən, müraciətlər şagirdlərin, onların valideynlərinin və müəllimlərinin iştirakı ilə yerində dərhal araşdırılıb. Araşdırma nəticəsində Bakı şəhəri üzrə 169, 322, 327 nömrəli tam orta və 3 nömrəli xüsusi təhsil məktəblərində, Sabirabad rayonu Qasımbəyli kənd, Cəlilabad rayonu Göytəpə şəhər 1 nömrəli və Lənkəran rayonu Separadi kənd tam orta məktəblərində təsdiqini tapmış hallar həmin məktəblərin Pedaqoji şuralarının müzakirəsinə çıxarılıb. Fəaliyyətində nöqsanlara yol vermiş 1 məsul şəxs işdən azad edilib, 7 nəfərə töhmət verilib, 3 müraciətə dair toplanmış materiallar aidiyyəti üzrə hüquq-mühafizə orqanlarına təqdim olunub.

# Orta sinfin aqibəti

### Yüksək texnologiyalar cəmiyyətdə kəskin təbəqələşmə vəd edir

Nanotexnologiyalar üzrə ekspert, futuroloq və yazıçı Roy Sezana hesab edir ki, yaxın illərdə cəmiyyətdə varlılarla kasıblar arasında kəskin təbəqələşmə və orta sinfin tamamilə sıradan çıxmasını müşahidə edəcəyik. Kreativlik heç kimi xilas etməyəcək. Bu, biz düşündüyümüzdən və gözlədiyimizdən də tez baş verəcək və heç kim bilmir nə ilə nəticələnəcək. İsrail əsilli amerikalı alim R.Sezana Təl-Əviv Universitetinin Kiber araşdırmalar və ABŞ-ın Braun Universitetinin "The Humanity Centered Robotics İnitiative" mərkəzlərində işləyir. İsrailin "Haaretz" qəzetinə müsahibəsində artan avtomatlaşma və robotlaşma barədə fikirləri ilə bölüşən alim gələcəyə dair pessimist görüşlərini gizlətmir.

Gələcəkdə bizləri nə gözləyir və ya bizim gələcəyimiz necə olacaq? Hazırda futuroloqları ən çox düşündürən suallar məhz bunlardır. Əgər onlardan bir qismi gözləmədiyimiz sürətlə inkişaf edən robot və süni intellekt texnologiyalarının bəşəriyyətin xeyrinə işləyəcəyini iddia edir və yeniliklərdən qorxmağın əbəs olduğunu düşünürlərsə, qarşı cəbhənin təmsilçiləri gələcəyə dair mənzərəni tünd çalarlarla təsvir edirlər. Görünür, R.Sezana da özünü məhz ikincilərə aid edir.

### İnsanlar tərəqqidən əziyyət çəkirlər

Sezana hesab edir ki, əmək bazarında təbəqələşmə getdikcə artacaq və bunun başlıca səbəbi robotlaşma olacaq. Çünki intellektual maşınları yalnız imkanlı şəxslər əldə edə biləcəklər, kasıblar isə yox. "Daha dərin və maraqlı suallar köhnə peşələrin sıradan çıxması və yenilərin peyda olması ilə bağlıdır. Yeni iş yerlərinin yaranmasına tələbat və yeni bacarıqları təmin edən problemlər hansı sürətlə meydana çıxacaq? Bax, ən maraqlı budur", - deyə Sezana təəccüblənir. Bu gün cəmiyyətin gələcək arxitekturasından danışan bir sıra alim və ekspertlər hesab edirlər ki, insana məxsus kreativlik, empatiya və adaptasiya olunmaq bacarığı onu xilas edəcək. Məsələn, çinli milyonçu Cek Ma düşünür ki, yaxın illərdə robotlar insanların peşələrini əllərindən alsalar da, bacarıqlı və yaradıcı şəxslər çətin vəziyyətdən çıxış yolu tapmağa müvəffəq olacaqlar.

⇨Ardı səh.8

# Çin və Macarıstanda təqaüd proqramlarına sənəd qəbulunun müddəti uzadılıb

2020-2021-ci tədris ili üzrə Çin və Macarıstanda təhsil təqaüd proqramlarına sənəd qəbulunun müddəti uzadılıb.

Hökumətlərarası Təqaüd Proqramları ( HTP ) çərçivəsində xaricdə təhsil üçün elan edilmiş sənəd qəbulunun son müddəti Çin təqaüd proqramı üzrə 6 yanvar, Macarıstan təqaüd proqramı üzrə isə 15 yanvar 2020-ci il tarixinədək uzadılıb.

Eyni zamanda, müsahibə mərhələsinə buraxılmaq üçün tətbiq edilən seçim meyarlarında bəzi dəyişikliklər edilib.

Ətraflı məlumatla Çin və Macarıstan elan mətnlərindən tanış ola bilərsiniz.



# Universitetlər təhsil istiqaməti üzrə

### Yeni tədqiqatda ali məktəblərin akademik effektivliyi qiymətləndirilib

Səh.16

# Yeniyetmələrin XVI Beynəlxalq Elm Olimpiadasının medalçıları

Yeniyetmələrin XVI Beynəlxalq Elm Olimpiadasında 4 gümüş və 2 bürünc medal qazanan şagirdlərimiz 100 faiz nəticə göstərərək ölkələrin reytinq siyahısında yuxarı mövqedə qərarlaşıb.

2004-cü ildən etibarən bu olimpiadaya qatılan Azərbaycan şagirdləri tərəfindən ümumilikdə 4 gümüş və 38 bürünc medal qazanılıb. Cari ildə isə şagirdlərimiz uğur əldə etməklə medalların sayını 48-ə çatdırıb.

Məlumat üçün qeyd edək ki, Yeniyetmələrin XVI Beynəlxalq Elm Olimpiadası 3-12 dekabr 2019-cu il tarixlərində Qətərin paytaxtı Dohada keçirilib. Builki olimpiadada ölkəmizi təmsil edən 6 şagirdin hər biri qalib olub.

## RƏSMİ XRONİKA



- Dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirə keçirilib.
- Ölkə başçısı İlham Əliyev dekabrın 19-da "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Uşaq hüquqları haqqında", "Təhsil haqqında", "Reklam haqqında" və "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 noyabr tarixli 1691-VQD nömrəli Qanununun tətbiqi haqqında sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev dekabrın 19-da Xoşbəxt Yusifzadənin 90 illik yubileyinin qeyd olunması, Elmira Teymur qızı Süleymanovanın 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncamlar imzalayıb.
- Dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Sədrinin, Qazaxıstan Parlament Məclisinin Sədrinin başçılıq etdikləri nümayəndə heyətlərini qəbul edib.
- Ölkə başçısı İlham Əliyev dekabrın 18-də Hüseyn Şərif oğlu Mövsümovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, Vaqif Məcid oğlu Fərzəliyevin isə "Şərəf" ordeni ilə təltif edilmələri haqqında sərəncamlar imzalayıb.
- Dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski ilə təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşləri keçirilib. Sonra Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimi olub, daha sonra hər iki ölkənin Prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Vladimir Zelenski Bakıda keçirilən Azərbaycan-Ukrayna biznes forumunda iştirak və çıxış ediblər.
- Ölkə başçısı İlham Əliyev dekabrın 17-də Qırğızıstan parlamentinin sədrini, Özbəkistan Ali Məclisi Senatının sədrini qəbul edib.
- Dekabrın 16-da dövlət başçısı İlham Əliyev Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə bu ölkənin milli bayramı münasibətilə təbrik məktubu ünvanlayıb.
- Prezident İlham Əliyev dekabrın 16-da "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) prezidenti Baba Rzayevi qəbul edib.
- Dekabrın 16-da ölkə başçısı İlham Əliyev "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə fərman imzalayıb.
- Dövlət başçısı İlham Əliyev dekabrın 16-da Xırdalan şəhərində avtomobil yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.
- Dekabrın 14-də Prezident İlham Əliyev Siraqəddin Nəcəf oğlu Cabbarovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Dekabrın 13-də Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan ilk neft tankerinin istismara verilməsi və "Azərbaycan" adlı gəmi-bərənin suya salınması mərasimində iştirak edib.
- Ölkə başçısı İlham Əliyev dekabrın 13-də 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında sərəncam imzalayıb.

## Lənkəranda İctimai Şura üzvləri ilə görüş

Dekabrın 16-da Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri Lənkəran Şəhər Təhsil Şöbəsində bir qrup təhsil işçisi ilə görüş keçirib.

Görüşdə Lənkəran Şəhər Təhsil Şöbəsinin rəhbərliyi və kollektivi, məktəb direktorları və müəllimlər iştirak ediblər.

Görüşdə iştirak edən Lənkəran Şəhər Təhsil Şöbəsinin müdiri Aslan İbrahimov rəhbərlik etdiyi bölgənin təhsil göstəriciləri, əldə edilən nailiyyətlər və görülən işlərdən danışıb.

Daha sonra İctimai Şuranın məsul katibi İlqar Orucov, qurumun üzvləri Nadir İsrafilov və Etibar Əliyev çıxış ediblər. Çıxışlarda Şura ilə sıx əməkdaşlıq, qurumun illik fəaliyyət planı, ümumtəhsil məktəblərinin idarəetmə metodunda tətbiq edilən yeniliklər və təhsil sahəsində həyata keçirilən islahatlardan danışılıb, eləcə də digər məsələlərə toxunulub.

Sonda iştirakçıların rəy və təklifləri dinlənilib, sualları cavablandırılıb. Bildirilib ki, görüş çərçivəsində müzakirə edilən məsələlər İctimai Şura tərəfindən təklif olaraq Təhsil Nazirliyinə təqdim ediləcək.

Dekabrın 17-də Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri Lənkəran Dövlət Universitetində olub.

Səfər çərçivəsində universitetin professor-müəllim heyəti və tələbələrlə görüş keçirilib. Görüşdə ali təhsil müəssisələrinə qəbul şərtləri, magistraturaya qəbul imtahanında ediləcək dəyişikliklər, tədris prosesində təcrübəyə daha geniş yer verilməsinin vacibliyi, universitetlərdə elmi-tədqiqat işlərinin aparılması və digər məsələlər barədə danışılıb. Həmçinin təhsil mühitinin sağlamlaşdırılması, obyektivlik və şəffaflığın təmin olunması istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Görüş qarşılıqlı fikir mübadiləsi şəklində davam etdirilib. Bildirilib ki, səslənən fikir və təkliflər Təhsil Nazirliyinə təqdim ediləcək.

Sonra İctimai Şuranın üzvləri tərəfindən universitetin kitabxanasına kitablar hədiyyə edilib.

Şura üzvləri ali təhsil müəssisəsinin yeni istifadəyə verilmiş 2 tədris korpusu, tələbə yataqxanası, professor-müəllim heyəti üçün inşa edilən mənzillər, universitetə məxsus sitrus bağı, çay plantasiyası, həmçinin müasir fənn laboratoriyaları, informatika və linqafon kabinetləri ilə tanış olublar.

# Prezident Vladimir Zelenski BSU-da Ukrayna Tədris-Mədəniyyət Mərkəzi ilə tanış olub

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Ukrayna Prezidenti Vladimir Zelenski və xanımı Yelena Zelenskaya dekabrın 17-də Bakı Slavyan Universitetində fəaliyyət göstərən Ukrayna Tədris-Mədəniyyət Mərkəzi ilə tanış olublar.



AZƏRTAC xəbər verir ki, universitetin rektoru Nurlana Əliyeva və mərkəzin müdiri Lesya Kərimova Prezident Vladimir Zelenskiyə və xanımı Yelena Zelenskayaya burada yaradılan şəraitlə bağlı məlumat verdilər.

Bildirildi ki, universitetdə 2001-ci ildə yaradılan Ukrayna Tədris-Mədəniyyət Mərkəzi ölkələrimiz arasında münasibətlərin inkişafına öz töhfəsini verməkdədir. Mərkəz Azərbaycanda Ukrayna mədəniyyətinin təbliğində mühüm rol oynayır. Mərkəzin bazasında ukraynaşünas tələbələr Ukrayna dili və ədəbiyyatını öyrənirlər. Burada, həmçinin müxtəlif mədəni-kütləvi tədbirlər, Ukrayna tarixi və mədəniyyəti ilə bağlı yubiley gecələri keçirilir. Tədris-Mədəniyyət Mərkəzinin nəzdində yaradılan "Slavyanoçka" ansamblı Ukrayna səfirliyinin və Bakı Slavyan Universitetinin təşkil etdiyi müxtəlif mədəni-kütləvi tədbirlərdə iştirak edir.

Rektor Nurlana Əliyeva qeyd edib ki, mərkəzdə Ukrayna və Azərbaycanın mədəni irsinin öyrənilməsi istiqamətində elmi-tədqiqat işləri aparılır. Mərkəz Ukraynanın ölkəmizdəki səfirliyi, Ukraynanın Azərbaycan diasporu və Ukraynanın ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edir.

Sonra "Slavyanoçka" ansamblı Ukrayna dilində mahnılar səsləndirdi.

Daha sonra Prezident Vladimir Zelenski və birinci xanım Yelena Zelenskaya Ukrayna diasporunun nümayəndələri ilə görüşdülər.

Diaspor nümayəndələri Azərbaycandakı fəaliyyətləri haqqında Prezidentə məlumat verdilər. Diasporun fəaliyyətini yüksək qiymətləndirən Vladimir Zelenski yaradılan şəraitə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını ifadə etdi.

# "Study UK Alumni Awards 2019"un qaliblərinin adları açıqlanıb

Britaniya Şurası (British Council) və Böyük Britaniyanın Azərbaycandakı səfirliyi "Study UK Alumni Awards 2019"un qaliblərinin adlarını açıqlayıb.



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Qaliblər üç nominasiya (Peşəkar nailiyyət; Sahibkarlıq mükafatı; Sosial təsir mükafatı) üzrə iş adamı, sahibkar və ictimai xadim kimi əldə etdikləri mühüm nailiyyətlər, eləcə də Böyük Britaniya ilə Azərbaycan arasında mövcud olan əməkdaşlığın gücləndirilməsinə verdikləri mühüm töhfələr nəzərə alınmaqla "şort-list"ə düşən 10 namizəd arasından seçilib.

Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp tədbirdə çıxış edərək deyib ki, "Study UK" məzun mükafatlarının finalçılarını seçmək çox çətin idi. "Azərbaycanda Böyük Britaniyada təhsil almış və əldə etdikləri bilik və bacarıqlardan ölkələrinin inkişafını dəstəkləmək üçün istifadə edən bir çox istedadlı insan var. Onların hamısını alqışlayır və hər birinə böyük uğurlar arzulayıram", - deyə o qeyd edib.

"British Council" təşkilatının Azərbaycan üzrə direktoru Samr Şah çıxışında bildirib ki, bu ilin finalçıları yalnız Britaniya məzunlarının müxtəlifliyinin və onların göstərdikləri səylərin deyil, həm də Birləşmiş Krallığın təhsil sisteminin dünyanı dəyişən gücünün dəlilidir.

Təhsil naziri Ceyhun Bayramov bildirib ki, azərbaycanlı tələbələrin dünyanın ən yüksək səviyyəli təhsil müəssisələrində təhsil almaları qürurvericidir. Bu, Böyük Britaniya və Azərbaycan arasında əlaqələrin daha da inkişafına töhfə verir. Bu gün Azərbaycanda təhsilə böyük dövlət qayğısı var. Bu qayğıdan yararlanan gənclərimiz gələcəkdə ölkəmizin daha da inkişafına öz töhfələrini verəcəklər.

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə gənclərimizin dünyanın ən qabaqcıl ölkələrinin ali təhsil müəssisələrində təhsil almalarının sevindirici olduğunu deyib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli qalibləri təbrik edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Bu nüfuzlu beynəlxalq mükafat Britaniyanın ali təhsil imkanlarını və ölkənin bütün dünyadakı məzunlarının nailiyyətlərini qeyd etmək üçün nəzərdə tutulub. Təqdim edildiyi beşinci ildə bu mükafatı əldə etmək üçün 100-dən çox ölkədən olan və Birləşmiş Krallığın 120-dən artıq ali təhsil müəssisəsini təmsil edən 1200-dən çox Britaniya məzununun ərizəsi daxil olub.

"Study UK Alumni Awards"un hər kateqoriya üzrə qalibi 3000 funt sterlinq (6700 manat) məbləğində mükafat əldə edəcək. Onlar bu vəsaiti öz seçimləri əsasında peşəkar inkişaf imkanlarına sərf edəcəklər.

**AZƏRTAC**

# Təhsil Nazirliyi ağacəkmə aksiyası keçirib

Dekabrın 14-də Təhsil Nazirliyi Abşeron rayonunun Pirəkəşkül qəsəbəsi ərazisində ağacəkmə aksiyası keçirib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə keçirilən aksiyanın məqsədi ağac əkməklə ətraf mühitin qorunmasına, ekoloji tarazlığın bərpasına kömək etmək, ekoloji tərbiyəni gücləndirmək və təbiətə töhfə verməkdir.

Aksiya çərçivəsində Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi tərəfindən qeyd olunan ərazidə minədək badam ağacı əkilib.

Ağacəkmə aksiyasına "Bir" tələbə-könüllülər də qatılıb.

Qeyd edək ki, əkilən badam tingləri Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tinglik müəssisələrində yerləşdirilib.





# Təhsildə yeni hədəflər

## Prezident İlham Əliyev: "Tərbiyə işi yeni müstəviyə qalxmalıdır"

**Hikmət ƏLİZADƏ,**
*BDU-nun professoru, pedaqoji elmlər doktoru, Təhsil Şurasının sədri*

Bakı Dövlət Universitetinin 100 illik yubileyi cari ilin noyabr ayının 26-da təntənəli şəkildə qeyd edildi. Şərqin ilk yeni tipli ali məktəbi kimi Azərbaycan xalqının inkişafında - milli kadrların hazırlanmasında, dövlətçilik ənənələrinin, milli-mənəvi dəyərlərin, milli şüurun, milli özünədərkin formalaşmasında, elm və təhsilin inkişafında, Azərbaycan elminin dünya təhsil məkanına inteqrasiya etməsində, Azərbaycançılıq ideologiyasının formalaşmasında müstəsna rol oynamış universitetin yüz il ərzində keçdiyi şərəfli tarixi yola nəzər salındı, gələcək perspektivləri təhlil edildi.

Bakı Dövlət Universitetinin inkişafında ümummilli liderimiz Heydər Əliyevin xüsusi rolu olmuşdur. Təsadüfi deyildir ki, universitetin 50, 60, 75, 80 illik yubileyləri Heydər Əliyevin təşəbbüsü və sərəncamları əsasında keçirilmişdir. Yubiley bir növ hesabatdır, keçmişə nəzər salınır, uğurlar və səhvlər təhlil edilir, perspektiv planlar müəyyən edilir. 50, 60, 75 illik yubileylərində şəxsən iştirak edən ümummilli liderimiz öz çıxışlarında universitetin gələcək inkişaf perspektivlərinə diqqət yönəltmişdir.

Universitetin 90 və 100 illik yubileyləri möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamları və şəxsən iştirakı ilə keçirilmişdi. 90 illik yubileydə olduğu kimi, 100 illik yubileydə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev proqram xarakterli məruzə ilə çıxış etmiş, Azərbaycan xalqının müstəqillik tarixinə, XX əsrdə müstəqilliyə gedən yolda Heydər Əliyev dühasının roluna, müstəqilliyin əldə edilməsinə, ölkəmizdə həyata keçirilən xarici və daxili siyasətə diqqət yetirərək, müasir dövrdə müstəqilliyin qorunması, ölkəmizin davamlı inkişafının təmin edilməsi baxımından təhsilin rolunu qiymətləndirmiş və ali təhsilin qarşısına yeni strateji hədəflər qoydu.

### Bu gün əsl müstəqillik günüdür

"Xalqımızın tarixi faciələrlə doludur. Biz nəyə görə uzun illər, əsrlər boyu müstəmləkə kimi yaşamışıq? Nəyə görə başqa dövlətlərin tərkibində yaşamışıq? Nəyə görə bizim dövlətçiliyimizin tarixi çox məhduddur?". Çıxışında Prezident İlham Əliyev universitet əməkdaşlarının və gənclərin diqqətini bu suallara yönəltdi. Hər bir azərbaycanlı bu suallar üzərində düşünərsə (düşünməlidir də), ölkənin gələcəyi, onun müstəqilliyi əbədi, daimi olar.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyi elan edəndə əhalinin çox hissəsi savadsız idi, belə cəmiyyətdə güclü dövlət qurmaq mümkünsüz idi. Bu Cümhuriyyətin qurucularına da aydın idi, elə buna görə də onlar universitetin yaranması üçün var qüvvələrini əsirgəmədilər. Xalq Cümhuriyyətinin ömrü qısa olsa da, universitet yaşadı. Ömrünün ilk 50 ilində bir çox çətinliklərə sinə gərməyi bacaran Bakı Dövlət Universiteti ötən əsrin 70-ci illərindən etibarən öz intibah dövrünü yaşamağa başladı.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən etibarən həyata keçirdiyi yeniliklər nəticəsində Azərbaycan qısa müddət ərzində bütün sahələrdə əldə etdiyi uğurlarına görə öncül yerlərə yüksəldi. Həmin illər Azərbaycanın şərəfli tarixi kimi qiymətlidir. Hakimiyyətdə olduğu ilk günlərdən Heydər Əliyev təhsil sahəsinə xüsusi diqqət göstərmişdi. Onun təhsil sahəsinə xüsusi diqqət və qayğısı sayəsində həm orta məktəblərdə, həm ali məktəblərdə təhsilin keyfiyyəti ildən-ilə artmışdı. Bu ilk növbədə onun təhsilə, müəllimə qayğısının nəticəsi idi. Azərbaycan gənclərinin Sovet İttifaqının aparıcı ali məktəblərdə təhsil alması üçün şəraitin yaradılması təhsilin inkişafı istiqamətində görülən çoxsaylı işlərdən biridir. Hər il 800 gənc Bakıda imtahan verib aparıcı ali məktəblərə qəbul olurdu. Bu, SSRİ miqyasında böyük innovasiya idi. Heydər Əliyev bu kadrları hazırlamaqla Azərbaycanın müstəqilliyə gedən yoluna işıq salmış, Azərbaycanın gələcəyi üçün, onun müstəqilliyi keşiyində dura biləcək kadrları artıq keçən əsrin 70-80-cı illərindən etibarən hazırlamağa başlamışdı. Bu gün Azərbaycanı ləyaqətlə təmsil edən insanlar arasında həmin kadrlar mühüm yer tutur.

1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması da Azərbaycanın müstəqillik yolunda mühüm əhəmiyyət kəsb edən qərar idi. Həmin dövrə qədər az sayda Azərbaycan vətəndaşı SSRİ-nin hərbi məktəblərində təhsil alaraq, hərbçi rütbəsi əldə etmişdi. Ölkəmizdə belə məktəblər yox idi, bu bəlkə də qəsdən düşünülmüş bir addım idi. Heydər Əliyev sənayenin, kənd təsərrüfatının və bütün digər sahələrin inkişafının və bütövlükdə müstəqilliyin yolunun ölkənin müdafiə qabiliyyətindən keçdiyini bilirdi. Hərbi Məktəbin yaradılması qərarı da bu müstəvidə verilmişdi. Bu məktəbin kadrları müstəqillik əldə edildikdən sonra Azərbaycan ordusunun formalaşmasında mühüm rol oynadı.

Müstəqilliyin əldə edilməsi Azərbaycan xalqı üçün o qədər də asan olmadı, əksinə, çoxlu gərginliklər, təcrübəsiz idarəçilik, hakimiyyətin davamlı səhvlərinin nəticəsində anarxiyanın yaranması, torpaqlarımızın 20%-nin itirilməsi, bir milyon soydaşımızın qaçqın və köçkün düşməsi, qardaş qırğınının başlaması... və bunların acı sonluğu kimi ölkəmizin parçalanmaq təhlükəsi ilə üz-üzə qalması ilə tarixin yaddaşına həkk oldu. Xalqın iradəsi ilə Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycan xalqının həyat-fəaliyyətinin nizama düşməsinə imkan verdi. Azərbaycana, onu yenidən asılı vəziyyətə salmaq niyyəti ilə uzanan əllər geri çəkilməyə başladı, əsrin müqaviləsi imzalandı, iqtisadiyyat dirçəldi, ordu quruculuğu həyata keçirildi. Azərbaycanın inkişaf sürəti günü-gündən artmağa başladı. Bütün bunlar Heydər Əliyevin müdrik idarəçilik strategiyasının və xalqın öz liderinə inamının nəticəsi idi. Sabitlik, davamlı inkişaf Azərbaycan xalqının həyat kredosunun təməl prinsipinə çevrildi.

Dünyada o xalq xoşbəxtdir ki, onun ümummilli lideri var. Bu xoşbəxtlik dünyanın bütün xalqlarına nəsib olmayıb. Azərbaycan o xoşbəxt xalqlar arasında birincilər sırasındadır. Çünki onun Heydər Əliyev kimi ümummilli lideri var. Əgər Ümummilli Liderin siyasətinin davamçıları varsa, xalq ikiqat xoşbəxt olur. Azərbaycanın gələcəyi bu müstəvidə də işıqlıdır. Çünki bu gün bütün Azərbaycan xalqı möhtərəm Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Ümummilli Liderin siyasətinin davamçısıdır. Xalq inanır ki, bu siyasət Azərbaycan müstəqilliyinin qarantı kimi onun yeganə xoşbəxtlik yoludur. Bu gün imzalar içərisində imzası olan, millətlər arasında nüfuzu olan hər bir azərbaycanlı bu siyasət nəticəsində dünya xalqları arasında fəxrlə gəzir və qürurla deyir: "Mən müstəqil Azərbaycanın vətəndaşıyam".

Müstəqillik, onun əldə olunması, bu yolda xalqımızın keçdiyi şərəfli yol, müstəqilliyin qorunması İlham Əliyevin çıxışında təlimin əsas hədəfi kimi qiymətləndirildi. Orta və yaşlı nəsil müstəqilliyə gedən yolda nələr baş verdiyinin şahididir. Bu gün həmin hadisələrlə yeni nəsli tanış etmək hər bir azərbaycanlının, hər bir müəllimin vətəndaşlıq borcudur. İl ərzində hər bir müəllim müstəqillik yolunda baş vermiş həqiqətlərlə yeni nəsli tanış etməli, xalqımızın əsrlər boyu yaşadığı faciələr, onların səbəbləri, xalqımızın iradəsi, mübarizliyi, müstəqilliyin əldə olunması yolunda verdiyimiz şəhidlər haqqında gənclərə məlumat verməli, onları müstəqilliyi qorumaq ruhunda tərbiyə etməlidir.

### Bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq

1969-cu il idi. Bu o dövr idi ki, rusdilli olmaq aktuallaşmışdı və bu meyil getdikcə güclənirdi. Həmin il Azərbaycan Respublikası Kommunist Partiyasının I katibi seçilən Heydər Əliyev Bakı Dövlət Universitetinin 50 illik yubileyində iştirak etdi və həmin dövr üçün nə qədər təhlükəli qiymətləndirilsə də, heç kimin gözləmədiyi halda öz çıxışını Azərbaycan dilində etdi. Bu, onun Azərbaycan dilinə ehtiramı, vətənpərvərlik hisslərinin təcəssümü idi. Azərbaycana rəhbərliyinin ilk illərində vətənə məhəbbətini bu çıxışı ilə hamıya nümunə göstərən Heydər Əliyev vətənə məhəbbətin nəyə qadir olduğunu öz fəaliyyəti ilə göstərə bildi. Bu məhəbbətin nəticəsi idi ki, hakimiyyətdə olduğu ilk günlərdən bütün fəaliyyətini Azərbaycanın inkişafına həsr etdi, Azərbaycan inkişaf etdikcə, sevinir, daha da ruhlanırdı, ən çətin anlarda isə heç bir təhlükəyə məhəl verməyərək, xalqın yanında oldu. Çünki xalqın dərdi onun dərdi, sevinci onun sevinci idi. O böyük Azərbaycanlı kimi hamıya nümunə idi.

Vətənpərvərlik Prezident İlham Əliyevin çıxışının əsas leytmotivlərindən biri idi. Hər bir insanın fəaliyyəti onun vətənpərvərliyi ilə bağlıdır. Vətənpərvərlik nədir? Bəzən bu suala insanlar primitiv yanaşaraq, vətənpərvərliyi, vətən qarşısında borcu hərbi xidmətlə məhdudlaşdırırlar. Təbii, vətəni qorumaq, onun uğrunda ölümə hazır olmaq vətənpərvərliyin özəyini təşkil edir. Lakin vətəni qorumaq tək hərbi xidmətlə məhdudlaşmır. Vətəni qorumaq özündə daha geniş məzmun daşıyır. Hər bir insan vətəni biliyi, savadı ilə qoruya bilər. Tarixdə belə misallar çoxdur. Bu baxımdan cənab Prezident tələbələrə bilikli olmağı tövsiyə edir. Sovet dönəmində diplom məqsəd idi, ona görə də hər bir tələbə diplom əldə etməklə öz karyerasını təmin edə bilirdi. Bu gün diplom vasitədir, insanın karyera qurub vətənə xidmət etməsi üçün vasitə. Diplom alan hər bir kəs iş tapa bilmir, bu gün hər bir iş yeri uğrunda rəqabət artmışdır, işə götürənlər daha peşəkar mütəxəssislər axtarırlar. Bu reallığı yüksək qiymətləndirən İlham Əliyevin tələbələri daha dərin təhsil almağa dəvət etməsi mühüm metodoloji əhəmiyyət kəb edir.

Tələbələrlə yanaşı, cənab Prezident müəllimlərə də öz tövsiyələrini vermişdir. Müəllim peşəsi çox şərəfli, məsuliyyətli, çox ağır peşədir deyən Prezident, onların öz üzərlərində daima işləmələrinin zəruriliyinə diqqəti cəlb edir. Müasir dünya "sürətlə dəyişən dünya" statusunu əldə etmişdir. Dəyişən dünya öz yenilikləri ilə əlamətdardır. Müəllimlər bu yeniliklərdən geri qalmamalıdır, belə yanaşma onların öz peşələrinə daha məsuliyyətlə yanaşmasını tələb edir. Bu gün müəllim öz fəaliyyətini informasiya vermək funksiyası ilə məhdudlaşdıra bilməz, tələbə informasiyanı internetdən də əldə edə bilər, müəllim həmin informasiyadan tələbənin öz inkişafı, ixtisasını dərindən öyrənmə, biliklər əldə etmək və yüksəkixtisaslı kadr kimi formalaşması üçün onlarda idraki bacarıqlar aşılamalıdır. Təcrübə göstərir ki, idraki bacarıqlar şəxsiyyət keyfiyyətləri ilə çulğalaşanda cəmiyyət bundan daha çox faydalanır. Əks təqdirdə, hazırlanan mütəxəssis bir çox hallarda bizi istəməyən qüvvələrin təsirlərinə məruz qalır, biliyini, savadını lazımsız işlərə həsr edərək cəmiyyətin inkişafında əngələ çevrilirlər. Bu müstəvidə Prezidentin qeyd etdiyi kimi, "Müəllimlər tələbələrə nəinki biliklər verməlidirlər, onları tərbiyə də etməlidirlər. Ümumiyyətlə, Azərbaycanda tərbiyə işi yeni müstəviyə qalxmalıdır, biz ideoloji işə yenidən baxmalıyıq, burada zəiflik və boşluqlar var". Bu yanaşma həm müasir təhsilin fəlsəfəsinin, həm də zamanın tələbidir. Müəllim zamanla ayaqlaşmağı bacarmalıdır.

### Təcrübə, bilik və gənclərimizin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliliyi

Dəyişən dünyamız dinamizmi, novatorluğu, yeniliyi və islahatları sevir. Öz fəaliyyətində bu prinsiplərə üstünlük verən Prezident son vaxtlar həyata keçirilən kadr islahatlarında gənclərə geniş yer verir. Lakin bununla yanaşı potensial imkanları tükənməyən təcrübəli kadrlar da idarəetmə sistemində fəaliyyətini davam etdirir. Həyat göstərir ki, təcrübə, bilik novatorluğun, yeniliyin düzgün istiqamətlənməsində mühüm rol oynayır. Azərbaycan xalqı tarixən belə yaşamışdır, həmişə əldə olunan təcrübə sərvət kimi qiymətləndirilmiş, bu təcrübənin gənc nəslə ötürülməsi xalqın həyatının əsas kredosunu təşkil etmişdir. Prezidentin qeyd etdiyi kimi "Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliyi-bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər". Bu, çox müdrik və dəyərli məsləhətdir. Müasir dövrdə cəmiyyətin dünyaya açıq olduğu bir zamanda, gənclərimiz xarici ölkələrdə xalqımızın həyat tərzinə əks olan dəyərlərlə rastlaşır, onların fəlsəfəsini bilmədiyi üçün, formasına şirniklənərək təqlidçiliklə məşğul olurlar. O xalqlar üçün həmin dəyərlərin formalaşmasının tarixi kökləri var, biz isə başqa dəyərlər müstəvisində inkişaf etmişik. Tarixən damla-damla qazanılmış dəyərlər insanın qanına, iliyinə hopur, insan bu dəyərlərdən kənar bütöv şəxsiyyət kimi inkişaf edə bilmir. Gənclər bəzən kütləvi informasiya vasitələrində belə dəyərlərin tənqidi ilə bağlı olan verilişlərdən də səhv nəticə çıxarırlar. Gənclərə izah olunmalıdır ki, bir çox xarici ölkələr bizim milli-mənəvi dəyərlərimizi dəyişmək üçün təbliğat aparır, milli mənliyimizi əzmək yolu ilə öz məkrli planlarını həyata keçirməyə çalışırlar. Bizim xalqımızın həyat tərzinə zidd olan dəyərləri mənimsəməyimiz faciəvi səhv olardı, biz bunu görməliyik və gənclərimizə izah etməliyik. Bu şərəfli iş müəllimlərin əsas vəzifəsi kimi qiymətləndirilməlidir. Müəllimlər dərs zamanı təkcə yeni bilik, bacarıq və vərdişlərin öyrədilməsinə deyil, eyni zamanda gənclərin milli-mənəvi dəyərlərə malik şəxsiyyət kimi sosiallaşmasına diqqət yetirməlidirlər. Unudulmamalıdır ki, milli-mənəvi dəyərlərin qorunub saxlanılması xalqın, millətin öz mənliyini dərk etməsi deməkdir. Bu, müstəqilliyimizin daimiliyini, əbədiliyini şərtləndirən əsas amillərdən biridir.

Prezident çıxışında qadın-kişi münasibətlərinə diqqəti cəlb edir. Bu gün bütün dünyada olduğu kimi, ölkəmizdə də gender bərabərliyinə hörmət və ehtiramla yanaşılır. Məsələyə tarixi aspektdən yanaşsaq, görərik ki, Azərbaycan xalqının həyat tərzində həmişə qadının hörmətli yeri olmuşdur. Bu, bizə tarixən qalmış mənəvi mirasdır. Xalqımızın qadına münasibətində onu müdafiə etmək, mənfi təsirlərdən qorumaq əsas məqamlardan biri kimi mənalandırılmışdır. Azərbaycanlı kişi həmişə öz müdrikliyi, mərdliyi, qüvvəti, sözü bütövlüyü, mədəniyyəti, işgüzarlığı, zəhmətkeşliyi ilə qadın məhəbbətini qazanmışdır. Tarixən qadın evin mənəvi dayağı olmuşdur, bu dayaq laxlayanda evdə xeyir-bərəkət yoxa çıxmışdır. Azərbaycan qadını da incəliyi, etibarlığı, sədaqətliyi, ailəyə bağlılığı ilə fəqrlənmiş, ailənin, xalqın müdafiəsində və inkişafında həmişə kişiyə silahdaş olmuşdur. Tariximizdə belə şərəfli səhifələr çoxdur, həmişə olmuşdur, bu gün də var, inamla deyə bilərik ki, əgər biz ənənəyə sadiq qalsaq, həmişə olacaqdır.

### Biz IV industrial inqilab içərisindəyik

Prezident İlham Əliyev IV industrial inqilaba, bununla bağlı olaraq yeni peşələrin yaranması məsələsinə diqqəti cəlb etdi. Kompüter inqilabı dünya mədəniyyətində üçüncü inqilab sayılırdı. Bu inqilabın tərcümeyi-halı XX əsrin təxminən 60-70-ci illərindən başlayır. Elvin Toffler kompüter inqilabını mədəniyyət tarixində üçüncü dalğa kimi mənalandırmışdı. IV sənaye inqilabı isə ağıllı texnologiyaların vasitəsi ilə rəqəmsal inqilabın avtomatlaşdıra bilmədiyi sahələrin avtomatlaşdırılmasını özündə ehtuva edir. Bu, o deməkdir ki, bizi qarşıda süni intellekt, robotlar, biotexnologiya, nanotexnologiya və s. heyrətamiz texnoloji sıçrayışlar gözləyir. Bu heyrətamiz sıçrayışların nəticələri haqqında artıq kifayət qədər fərziyyələr irəli sürülür, amma bir həqiqət bəllidir ki, üçüncü sənaye inqilabını mənimsəməyən ölkələr üçün dördüncü sənaye inqilabını fəth etmək daha çətin olacaqdır. Bu, ağır nəticələrə gətirib çıxara bilər, belə ki, yeni texologiyaları ilk tətbiq edə bilən ölkələr bu inqilab nəticəsində daha da sürətlə inkişaf edəcəkdir. Bu həmin ölkələrin hegemonluğunun artacağı haqqında düşüncələri meydana gətirir.

Bəs bu inqilabın məziyyətləri hansı meyarlarla ölçülür? Problemlə məşğul olan alimlərin fikrincə, IV sənaye inqilabının əsas məramı insanların yaşayış şəraitini yeni keyfiyyət səviyyəsinə qaldırmaqla həyatı asanlaşdırmaqdır. Biotexnologiya və nanotexnologiyanın tətbiqi nəticəsində insanların daha uzun, daha sağlam həyat sürmələrinə şərait yaranacaq; Kvant kompüterlərinin tətbiqi ilə əvvəllər mümkün olmayan həcmdə məlumatların kompüterlərə toplanması, bunun nəticəsində insanların təhsil və dünyagörüşünün artmasına şərait yaranacaq; Süni intellektin inkişafı, robotların tətbiqi istehsal və iqtisadiyyatda insan amilinin rolunun minimum həddə qədər aşağı düşməsinə, sahibkarların istehsala qoyduqları xərclərin azalmasına, məhsuldarlığın isə günü-gündən artmasına imkan verəcəkdir. Bu texnologiyaların tətbiqi həyatı asanlaşdırmaqla bərabər, təbiət hadisələri haqqında əvvəlcədən məlumat əldə etmələrinə şərait yaradacaq ki, insanlar öz həyat fəaliyyətlərini bu hadisələrə adekvat qurmaq imkanı əldə edəcəklər.

Yeni texnologiyaların inkişafı və tətbiqi insanların həyat fəaliyyətinin məzmununu tamamilə yeniləşdirməsi nəticəsində bir çox peşə və ixtisasların tamamilə yoxa çıxması gözlənilir; insanların qabiliyyəti texnologiyanın tətbiqi ilə ölçüləcək; texnoloji qabiliyyətlərin daha önəmli əhəmiyyət kəsb edəcəyi gözlənilir. Məsələnin belə qoyuluşu müəllimlərdən tələbələri yeni industrial inqilaba hazırlamaq vəzifəsi qoyur.

### Epiloq əvəzi

Bu gün Azərbaycan əzəmətli Heydər Əliyev siyasəti ilə inkişaf edərək dünyanı fəth edir. Son iki ay ərzində Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədrliyini öz üzərinə götürüb, Zirvə görüşü Bakıda keçirilmiş, Qoşulmama hərəkatının sədrliyini öz üzərinə götürmüş, Bakıda 70 ölkənin dini liderlərinin iştirak etdiyi Dünya dini liderlərinin II Zirvə Görüşü Bakıda keçirilmişdir. Bütün bunlar Azərbaycanın dünya ölkələri içərisində necə inamla addımladığının bariz nümunəsi olub, Heydər Əliyev siyasətinin təntənəsidir. Azərbaycan təhsilinin bu inkişafa öz töhfəsini verə bilməsi üçün onun aşağıdakı hədəfləri fəth etməsi prioritet kimi qəbul edilməlidir: - Heydər Əliyev siyasətinə etibarlı, Prezidentin ətrafında sıx birləşən, Azərbaycanın sözünü dünya meridianlarında deyə bilən, vətəni sevən, novator, texnoloji yeniliklərə hazır olan, intellektual və kreativ düşüncəyə malik, Azərbaycanın torpaqlarını müdafiə etməyə və itirilmiş torpaqları geri qaytarmağa qadir insanlar yetişdirmək.

# Yeniləşən ali təhsil

⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

## Əlçatanlıq və əhatəlilik təhsil sistemini hədəflərə çatdıracaq





Ceyhun Bayramov diqqətə çatdırıb ki, 2017-ci ildə ölkə başçısı İlham Əliyev tərəfindən Bakı Dövlət Universitetinin 100 illik yubileyinin beynəlxalq səviyyədə, ölkə daxilində yüksək səviyyədə qeyd edilməsi ilə bağlı müvafiq sərəncam imzalanıb. Sərəncama uyğun olaraq BDU-nun 100 illik yubiley tədbirləri həm beynəlxalq səviyyədə YUNESKO-nun Baş qərargahında, eyni zamanda, Vyanada Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı, Azərbaycanın Avstriyadakı səfirliyinin dəstəyi ilə çox yüksək şəraitdə qeyd olunub.

"Hesab edirəm ki, BDU-nun Azərbaycan dövləti, xalqı qarşısında xidmətləri yalnız elmin, təhsilin inkişafı ilə bağlı deyil, ilk dövrlərdən BDU ölkədə ictimai fikrin formalaşmasında da müstəsna xidmətlər göstərib. Azərbaycan cəmiyyətinin inkişafı BDU-nun inkişafı ilə hər zaman yanaşı gedib və bu qocaman ali məktəb ölkəmizin inkişafına çox böyük töhfələr verib", - deyə Təhsil naziri bildirib. Ceyhun Bayramov qeyd edib ki, yubiley tədbirlərində ulu öndər Heydər Əliyevin müxtəlif zamanlarda BDU-nun fəaliyyəti ilə bağlı qəbul etdiyi tarixi qərarlara, 50 il bundan öncə, Ümummilli Liderin BDU-nun 50 illik yubileyindəki tarixi çıxışına bir daha nəzər salmaq imkanımız olub. "Ulu öndərin çıxışında Azərbaycan cəmiyyətinə ötürülən mesajlar o qədər önəmli idi ki, 50 il keçməsinə baxmayaraq bu günlərdə də böyük aktuallığına görə həmin çıxışa istinad edirik. O dövrdə çoxları üçün anlaşılmayan mesajları bu gün Azərbaycan cəmiyyəti artıq XXI əsr prizmasından dəyərləndirə bilir.

Hamımız üçün bu sirr deyil ki, 1969 -cu ildə sovetlər birliyinin tərkib hissəsi olaraq Azərbaycan rəhbərliyinə gələn Ulu Öndərin artıq Azərbaycan ziyalıları, respublikanın düşünən beyinləri qarşısında məhz ana dilində çıxış etməsi, hesab edirəm ki, həmin o mesajın ən vacib tərkib hissəsi idi. Bundan sonra hər zaman BDU-nun inkişafına çox böyük dəyər verən Ümummilli Lider BDU-nun Azərbaycan xalqı, dövləti üçün dəyərini - "BDU Azərbaycan xalqının milli sərvətidir, milli iftixarıdır" sözləri ilə çox qısa və lakonik, ancaq olduqca dolğun və hərtərəfli şəkildə ifadə edib. Bu qiymət, sözün əsl mənasında, son 100 ilin devizinə çevrilib".

Ceyhun Bayramov 2019-cu ildə həyata keçirilən tədbirlər sırasında BDU-nun 100 illik yubiley mərasimini və həmin tədbirdə Prezident İlham Əliyevin konseptual çıxışını xatırladıb. "Hesab edirəm ki, cənab Prezident tərəfindən Bakı Dövlət Universitetinə və onun kollektivinə verilən ən böyük töhfə məhz BDU-nun akademik-müəllim heyəti və tələbələri qarşısında çıxış etməsi idi. Prezident çıxışında Azərbaycanın gələcəyi ilə bağlı qarşımızda duran əsas hədəflər və çağırışlar, təhdidlərlə bağlı çox açıq, səmimi söhbət apardı. Eyni zamanda cəmiyyətin aparıcı qüvvəsi olan ziyalılara və Azərbaycan gəncliyinə çağırışlar etdi. Hesab edirəm ki, bu istiqamət bizi düşündürməli və çağırışlarla bağlı fəaliyyətimizin kredosuna çevrilməlidir".

Ceyhun Bayramov bu kontekstdə çıxışında ölkənin ali təhsil sistemi qarşısında duran mövcud çağırışların dərin təhlilini verib. O qeyd edib ki, əsas istiqamət müasir, rəqabətli, çox çevik və dəyişən dünyada Azərbaycan cəmiyyəti, Azərbaycan təhsili qarşısında olan çağırışlardır. Yüksək səviyyəli, zamanın tələblərinə cavab verən keyfiyyətli təhsilin verilməsi və bizim bir sistem olaraq ona hazır olmağımızdır.

Təhsil naziri bu sahədə ölkə başçısının müvafiq sərəncam və dövlət proqramlarının icrası istiqamətində yalnız 2019-cu ildə ali təhsil sahəsində həyata keçirilən bəzi məqamları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

### İnsan kapitalı və təhsilin dəyəri

Ceyhun Bayramov qeyd edib ki, biz bu gün 4-cü sənaye inqilabı, postindustrial cəmiyyət, digər sözlə, bilik iqtisadiyyatı və beləliklə də insan kapitalı amilinin günbəgün güclənməsi kimi tarixi bir dövrdəyik. Belə olan təqdirdə, artıq hər bir dövlət başa düşür ki, təhsilin dəyəri olduqca böyükdür, təhsilin dəyəri hazırda heç zaman olmadığı qədər yüksək önəm kəsb edir. Bunu nəzərə alan və gözəl anlayan Azərbaycan dövləti elm və təhsilin əlçatanlığı, təhsilin əhatəliliyinin artırılması istiqamətində hər il sistemli və davamlı tədbirlər keçirir.

Təhsil naziri 2019-cu ildə bu istiqamətdə qəbul edilmiş bəzi qərarları tədbir iştirakçılarının diqqətinə çatdırıb. C.Bayramov Azərbaycan ali təhsil müəssisələrində dövlət sifarişli yerlərin hesabına oxuyan tələbələrin sayı ilə bağlı məlumat verərək qeyd edib ki, 2019-cu ildə dövlət tərəfindən Azərbaycan ali təhsil müəssisələrində dövlət sifarişi hesabına oxuyan tələbələrin sayı 2018-ci illə müqayisədə 66 faiz artaraq 12300-dən 20500-ə çatdırılıb. Yalnız Bakı Dövlət Universitetində 2018-ci ildə bakalavriat və magistratura səviyyələrində dövlət hesabına 2713 nəfər tələbə qəbul olunmuşdusa, 2019-2020-ci akademik ili üçün bu rəqəm 3823 nəfər təşkil edib. Başqa sözlə, yalnız 1 il ərzində BDU-da dövlət hesabına oxuyan tələbələrin sayında 1110 nəfər artım var. 2019-cu ildə akademik göstəricilərə çox ciddi təsir edən amil 110 min nəfər tələbəni əhatə edən təqaüd məbləğlərinin orta hesabla 20 faiz artırılmasıdır. Eyni zamanda dövlət başçısı tərəfindən təqaüd yerlərinin 16 min vahid artırılması barədə qərar qəbul edilib. Həmin qərarda növbəti müddətlər üçün də çox konkret, spesifik hədəflər qoyulub. Belə ki, 2019-2020-ci akademik ilində ali təhsil sistemində ən azı 45 faiz tələbə təqaüd alacaq, növbəti illərdə isə ən azı 50 faiz tələbənin təqaüd alması gözlənilir.

Eyni zamanda, müəyyən kateqoriyadan, sosial cəhətdən dəstəyə ehtiyacı olan insanlar da akademik göstəricilərindən asılı olmayaraq dövlət vəsaiti hesabına təhsil almaq hüququna malikdirlər. O cümlədən, 2019-cu ildə 1-ci və 2-ci qrup əlillər də buraya əlavə olunmaqla onların da akademik göstəricilərindən asılı olmayaraq dövlət hesabına təhsil almaq hüququ təsbit edilib. Nəticədə 2 mindən artıq tələbə dövlət hesabına təhsil almaq hüququ əldə edib. "Onu qeyd etmək istərdim ki, yenə də ölkə başçısının müvafiq tapşırığına əsasən, bu istiqamətdə hökumət tərəfindən qəbul edilmiş qərarla 1 sentyabr 2019-cu il tarixdən dövlət sifarişi ilə təhsil alan tələbələrin təhsil xərclərinin artırılması nəzərdə tutulub. Bunun da nəticəsində Azərbaycanın bütün ali təhsil müəssisələri, o cümlədən BDU da bu imkandan istifadə edərək öz əməkdaşlarının əməkhaqlarının artırılması barədə qərar qəbul edib".

### Əhatəliliyin önəmli artımı

Təhsil naziri qeyd edib ki, ali təhsil sistemində əlçatanlıq və daha geniş əhatəlilikdən danışarkən yalnız maliyyələşdirmə mexanizmləri barədə danışmamalıyıq, eyni zamanda bu sahədə dövlət tərəfindən qəbul edilmiş bir sıra qərarların qəbulu və icrası nəticəsində baş vermiş dəyişikliklərlə bağlı bəzi statistik məlumatlara diqqət yetirmək lazımdır. O cümlədən təhsilin müxtəlif pillələrində əhatəliliyin artırılması istiqamətində 2018-ci ildə subbakalavr təhsil pilləsi üzrə təhsil alan tələbələrin müəyyən şərtlər çərçivəsində təhsilin növbəti pilləsində müsabiqədənkənar təhsil alma imkanları təsbit edilib. 2019-2020-ci akademik ilində ilk dəfə qanunvericiliyə edilmiş son dəyişikliyə əsasən yeni proqramların tətbiqinə başlanılıb. "Böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, 500-ə yaxın Azərbaycan tələbəsi, subbakalavr təhsilini başa vurmuş tələbələr məhz bu imtiyazdan istifadə edərək ali təhsil müəssisələrində təhsillərini davam etdirmək imkanı əldə ediblər. Eyni zamanda beynəlxalq, respublika olimpiadaları, incəsənət, idman sahələri üzrə olan beynəlxalq yarışların nəticələrinə əsasən Azərbaycanın 100-dən çox istedadlı gənci də məhz bu imtiyazdan istifadə edə bilib, ölkənin müxtəlif ali təhsil müəssisələrinin tələbəsi olmaq hüququ qazanıblar".

Ceyhun Bayramov təhsilin digər pillələrində əhatəliliyin artırılması istiqamətindən danışarkən magistratura pilləsindəki yeniliklərə toxunub. O qeyd edib ki, bir neçə il bundan öncə magistratura pilləsində oxuyan tələbələrə möhlət hüququnun verilməsi nəticəsində magistraturaya qəbul olan oğlanların sayında əhəmiyyətli artıma nail olunub. Bunun nəticəsi olaraq bakalvriatura səviyyəsində oğlanlar və qızlar arasında olan gender bərabərliyi magistratura səviyyəsində tam bərqərar olmasa da, xeyli müsbət dəyişikliklər baş verib. "Düşünürəm ki, növbəti illərdə bu göstərici əldə olunacaq. Eyni zamanda qeyd etmək istərdim ki, magistratura səviyyəsində əhatəliliyi daha da artırmaq istiqamətində son bir il ərzində Təhsil Nazirliyi ölkənin bütün ali təhsil müəssisələri, digər həmkar qurumlarla müzakirələr və məsləhətləşmələr aparır. Müzakirələr demək olar ki, başa çatıb və nəticələr Nazirlər Kabinetinə təqdim olunacaq. Düşünürəm ki, Nazirlər Kabineti tərəfindən həmin qərar qəbul olunduqdan sonra biz magistraturaya qəbul qaydalarında dəyişikliklərin şahidi olacağıq". C.Bayramov əlavə edib ki, bununla da bir sıra yaradıcılıq, xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə magistraturaya qəbulun birmərhələli qaydada həyata keçirilməsi və magistraturaya qəbul olan tələbələrin daha asanlıqla təhsilin növbəti pilləsinə daxil olmaq imkanı təmin ediləcək. "Düşünürəm ki, Azərbaycan təhsil sistemi bu dəyişikliyin istədiyimiz nəticələrini növbəti illərdə görəcək".

### Doktoranturaya qəbul yeni qaydalarla keçiriləcək

Təhsil naziri Ceyhun Bayramov ali təhsil sahəsində baş verən dəyişikliklərdən bəhs edərkən doktorantura təhsilinə qəbul qaydaları barədə danışıb. Qeyd edib ki, doktoranturaya qəbul qaydaları Nazirlər Kabineti tərəfindən təsdiqlənib və artıq növbəti ildən təhsilin bu pilləsinə qəbul yeni qaydalara əsasən həyata keçiriləcək. "Əsas dəyişiklik ondan ibarətdir ki, ilkin mərhələdə məhz beynəlxalq səviyyədə qəbul olunmuş imtahanların və yaxud mərkəzləşdirilmiş formada xarici dil imtahanının nəticələri nəzərə alınacaq. Hesab edirik ki, XXI əsrdə ciddi doktorantura təhsilindən danışırıqsa, mütləq şəkildə gənc tədqiqatçıların beynəlxalq, qlobal dillərdən hansısa birini peşəkar formada bilməsi vacib və zəruri şərt kimi ortaya qoyulmalıdır. Bu, artıq zamanı yetişmiş qərar idi. Düşünürəm ki, bu qərarın da müsbət nəticələrini yaxın illərdə qəbul olunmuş tələbələr vasitəsilə görəcəyik".

Təhsil naziri diqqətə çatdırıb ki, ali təhsil sahəsində qeyd olunan bəzi məqamlar əhatəliliyin təmin olunması istiqamətində dövlət tərəfindən atılmış addımlardır. "Ancaq biz çox yaxşı başa düşürük ki, əhatəliliyin artırılması nə qədər vacibdirsə, zamanın dəyişikliklərinə və tələblərinə uyğun olaraq ali təhsil müəssisələrində tədris prosesinin təşkil edilməsinə, məzmunun yenilənməsinə hər zaman yenidən baxılması da olduqca vacibdir". Ceyhun Bayramovun sözlərinə görə, bu istiqamətdə atılan addımların icrası artıq ali təhsil müəssisələri və onların professor-müəllim heyətindən asılıdır. "Ona görə də Təhsil Nazirliyi olaraq bizim sizlərdən gözləntilərimiz çoxdur". Nazir əlavə edib ki, 2019-cu ilin fevral ayında bakalavriat və magistratura səviyyələri üzrə ixtisasların yeni təsnifatı təsdiq edilib və təsnifata uyğun olaraq yeni proqramların və məzmunun hazırlanması ali təhsil müəssisələri tərəfindən həyata keçirilir. Bu müddət ərzində proqramların yenilənməsi nəzərdə tutulub. Növbəti akademik ildən başlayaraq isə ali təhsil müəssisələri tələbə qəbulunu yeni təsnifata əsasən həyata keçirəcəklər. "Hesab edirəm ki, biz bu vaxtdan çox səmərəli istifadə etməliyik və bu müddət ərzində proqramlarımıza, təhsilin məzmununa çox ciddi baxmalı və məzmun müasirləşdirilməlidir. Məzmun zamanın tələbinə, əmək bazarının tələblərinə, beynəlxalq səviyyədə rəqabətli məzmuna uyğunlaşdırılmalıdır. Buna xüsusi diqqət yetirməliyik. Magistratura təhsili ilə bağlı məzmuna bir daha baxmalıyıq. Bakalavriatura və magistratura təhsili arasında təkrarçılığa, bir sıra fənlərin yenidən magistratura təhsilinə keçməsinə yol verməməliyik, onların əvəzinə magistratura təhsilinin məzmununa uyğun fənlərin və məzmunun yenilənməsinə xüsusi diqqət yetirməliyik".

Doktorantura təhsilindən danışarkən Təhsil naziri qeyd edib ki, mövzuların seçilməsindən başlayaraq, ümumilikdə doktorantura təhsilinin həyata keçirilməsi çox ciddi şəkildə nəzərdən keçirilməli, burada indiyədək olan boşluqlara diqqət yetirilməlidir. Doktorantura təhsilinə cəlb olunmuş gənc alimlərin, tədqiqatçıların tədqiqatlarından böyük gözləntilərimiz var.

Nazir bu yaxınlarda başa çatmış doktorant və gənc tədqiqatçıların konfransında səsləndirilmiş bir sıra rəqəmlərə toxunub. Qeyd edib ki, doktorantura təhsilinə cəlb olunmuş tələbələrin elmi işlərini nəzərdə tutulmuş müddətdə başa çatdırması, elmi işlərin yerinə yetirilmə əmsalına baxanda burada çox ciddi geriləmələr görünür. "Hesab edirəm ki, bu məsələyə ciddi yanaşmaq və növbəti illərdə bu məsələdə dönüş yaratmalıyıq". Təhsil naziri qeyd edib ki, Azərbaycan ali təhsil sistemi dünyanın aparıcı təhsil sistemlərində olan yeniliklərdən istifadə etməli, onlardan faydalanmalıdır.

Ceyhun Bayramov ölkə başçısı tərəfindən imzalanmış "2019-2023-cü illər üçün Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın ali təhsil sistemimiz üçün əhəmiyyətinə də toxunub və bu sənədin yüksəkixtisalı azərbaycanlı mütəxəssislərin hazırlanması işinə böyük töhfə verəcəyinə inamını ifadə edib.

### Müəllim faktoru

Təhsil naziri keyfiyyət göstəricilərindən danışarkən təhsil sistemində müəllim faktorunun əhəmiyyətli roluna toxunub, bəzi rəqəmləri BDU-nun professor-müəllim heyəti ilə bölüşmək istədiyini bildirib.

Qeyd edilib ki, ölkə başçısının müvafiq sərəncamına müvafiq olaraq təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində son illər ərzində həyata keçirilən davamlı tədbirlər cəmiyyətdə müəllim peşəsinə etimadın, müəllim nüfuzunun artması ilə bağlıdır. "2019-cu ilin yay qəbul kampaniyasının nəticəsi olaraq qeyd etmək istərdim ki, 500 baldan yüksək nəticə göstərən hər 4 nəfərdən biri ixtisas seçimində birinci olaraq müəllimliyi göstəriblər. Təhsil Nazirliyi tərəfindən hər il ölkədə müəllimlərin işə qəbulu müsabiqəsi keçirilir, hər il orta hesabla 7-10 minə yaxın vakansiyalar elan olunur. Ötən il müəllim olmaq istəyənlər 12 min idisə, bu il 55 min nəfər olub. Sözün əsl mənasında müəllimlik yenidən çox şərəfli peşə olmaqla yanaşı həm də çox rəqabətli peşəyə çevrilib". Təhsil naziri qeyd edib ki, cari ilin iyunun 18-də Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə ümumtəhsil sistemində çalışan və diaqnostik qiymətləndirmədən keçən müəllimlərin əməkhaqqı növbəti dəfə - 1 sentyabr 2019-cu ildən 20 faiz artırılıb. Bu artım da nəzərə alınmaqla təhsil sistemində orta əməkhaqqı 600 manatı keçib. Eyni zamanda, ümumtəhsil sistemində çalışan 5 mindən artıq müəllimin bu artımdan sonra əməkhaqqı 1000 manatdan çox təşkil edir.

"Hesab edirik ki, növbəti dövrlərdə bu tendensiya daha da davam edəcək və bu, Azərbaycan təhsilinin gələcəyinə nikbin baxmağa ciddi əsaslar verir. Biz Təhsil Nazirliyi olaraq bunu dəfələrlə qeyd edirik ki, heç bir təhsil sisteminin səviyyəsi onun müəlliminin səviyyəsindən yüksək ola bilməz, ona görə də bu, bizim üçün olduqca önəmli və vacib faktordur".

### Könüllülük - düzgün dəyər, yanaşma, mədəniyyət

Təhsil naziri qeyd edib ki, təhsil sistemi qarşısında duran çox ciddi vəzifələrdən biri gənc nəslin milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər, milli ruhda tərbiyəsidir. Azərbaycan gənclər ölkəsidir. Əhalinin təxminən 50 faizi 30 yaşdan çox olan insanlardır. "Biz yaxşı bilirik ki, gəncliyin əsas lokomotivi, əsas hissəsi Azərbaycan tələbələridir. Hesab edirəm ki, humanitar, sosial, siyasi fənlərin məzmununa nəzər salmaq və həmin proqramlara yenidən baxmaq, müəllimlərin hazırlığı, dünyagörüş səviyyəsi xüsusi önəm kəsb edir. Eyni zamanda BDU rəhbərliyinin və aidiyyəti strukturların gənclərin hərtərəfli inkişafının təmin edilməsinə diqqət yetirilməsi əsas məsələlərdəndir. Burada müxtəlif istiqamətlər var". Təhsil naziri çıxışında cəmiyyət üçün çox vacib və önəmli olan, son illər ərzində geniş vüsət almış könüllülük hərəkatına xüsusi toxunmaq istədiyini bildirib. "Çünki könüllülük düzgün dəyər, düzgün yanaşma və mədəniyyət ortaya qoyur. Biz Azərbaycan gənclərinin, könüllülərinin beynəlxalq, ölkə səviyyəli tədbirlərdə fəaliyyətini, ölkəmizi yüksək səviyyədə təmsil etməsinin şahidi olmuşuq. Azərbaycan könüllülərinin fəaliyyəti dəfələrlə ölkə başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən xüsusi olaraq təqdirəlayiq hal kimi qeyd olunub və gənclərimizə bir nümunə kimi təqdim edilib. Bu mənada gənclərin müxtəlif cəmiyyətlərinin formalaşdırılmasına xüsusi diqqət yetirilməlidir".

### BDU ikinci 100 ilin astanasında

Təhsil naziri çıxışının sonunda qeyd edib ki, qarşımızda duran hədəflər çoxdur, Bakı Dövlət Universiteti artıq ikinci yüzilliyinə qədəm qoyub. "Mən əminəm ki, Bakı Dövlət Universitetinin çox əqidəli, peşəkar kollektivi ötən yüz illikdə olduğu kimi, növbəti yüzillikdə də Azərbaycan cəmiyyəti, təhsil sistemi qarşısında duran vacib məsələlərin öhdəsindən yüksək səviyyədə gələcək. Hər zaman olduğu kimi, BDU Azərbaycan təhsil sisteminin əsas aparıcı qüvvəsi kimi özünü sübut edə biləcək. Hər birinizə bu istiqamətdə, gələcək fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm".

# “Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər”

## Biliklərin qiymətləndirilməsi mexanizminin daha da təkmilləşdirilməsi dinamik xarakter daşıyır




**Ruhiyyə DAŞSALAHLI**

Orta təhsil səviyyəsi üzrə buraxılış, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarının yeni modeli, onun müsbət və mənfi tərəfləri, ümumilikdə Azərbaycanın təhsil sisteminin bugünkü vəziyyətinə dair ictimai rəy sorğusu keçirilib. Həmin cavablar əsasında hazırlanmış analitik hesabat artıq açıqlanıb. Sosial Tədqiqatlar Mərkəzinin 539 respondent və 12 ekspert arasında keçirdiyi ictimai rəy sorğusu Dövlət İmtahan Mərkəzinin regional mərkəzləri əsas götürülməklə 10 şəhər və rayonu əhatə edib. Rəyi soruşulanlar Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri, Təhsil Nazirliyinin, Dövlət İmtahan Mərkəzinin nümayəndələri, abituriyentlər, valideynlər, müəllimlər və təhsil ekspertləri arasından seçilib.

### Rəyi soruşulanların yarısı “imtahanlar bahadır” deyib

Sorğuya qatılan abituriyentlər imtahana hazırlıqda valideynlərinin (45 faiz) və müəllimlərinin (33faiz) rolunu istisna etməyiblər. Fikri soruşulan abituriyentlərin 60 faizi qəbul imtahanlarının, 30 faizi isə buraxılış imtahanlarının çətinliyini bildirərək, açıq tipli suallarla bağlı çatışmazlıqlara diqqət çəkiblər. Onların fikrincə, əsas narahatlıq doğuran məqamlar yazı tipli tapşırıqların yoxlanılması, xarici dillər üzrə dinləmə qurğularının tətbiqi zamanı ortaya çıxır.

Sorğu zamanı rəyi soruşulanların yarısı imtahanda iştirak üçün tələb edilən vəsaiti yüksək qiymətləndiriblər.

Təhsil ekspertləri isə yeni imtahan modelinin tətbiqi nəticəsində balların aşağı düşməsi ətrafında yaranan ajiotajı yersiz sayıblar.

### Yeni imtahan modeli keyfiyyətə xidmət edir

Sorğunun nəticələri “Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər” mövzusunda konfransda müzakirə olunub. Tədbirdə Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova, Təhsil naziri Ceyhun Bayramov, Sosial Tədqiqatlar Mərkəzi (STM) İdarə Heyətinin sədri Zahid Oruc, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, təhsil işçiləri, tanınmış ictimaiyyət nümayəndələri iştirak ediblər.

Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədri Zahid Oruc ictimai rəy sorğusu və onun əsasında hazırlanan təhlilin nəticələrindən danışıb. Onun sözlərinə görə, sorğunun nəticələrinin təhlilindən sonra ortaya çıxan ümumi fikrə görə, bu modelin tətbiqi orta və ali təhsil səviyyələri arasındakı bağları gücləndirir. Respondentlərin 45 faizi yeni modeli faydalı hesab edir.

Prezident Administrasiyasının şöbə müdirinin müavini Səadət Yusifova müasir dünyada bilik və yeni texnologiyaları həlledici hesab edir: “Bu gün qlobal anlamda nəsillərin dəyişməsi prosesi gedir. Artıq internetsiz dünyanı təsəvvür edə bilməyən “Z nəsli” yetişir. Bu nəsil qloballaşma və postmodernizm dövrünü təmsil edən ilk rəqəmsal nəsildir. Onların həyata və dünyaya baxışları internetə qədərki dövrün nəsillərindən köklü surətdə fərqlənir. İnternetdən və rəqəmsal texnologiyalardan istifadə onlar üçün sadəcə həyat tərzidir. Yeni nəslin təhsilə münasibəti, özünüifadə üsulları da köklü fərqlənir. Bu isə təbii olaraq təhsil sistemində köklü dəyişiklikləri, yeni yanaşmaları şərtləndirir. Odur ki, sabahın təhsil sistemi rəqəmsal iqtisadiyyatın inkişafına, yeni orta sinfin formalaşmasına yönələcək”.

Şöbə müdirinin müavini bu qənaətdədir ki, qarışıq və mobil təhsil gələcəyin ali təhsil müəssisələrinin rəqabətqabiliyyətliliyini və uğurunu müəyyənləşdirən əsas faktorlardan biri olacaq. İnformasiyanın əlçatanlığı, onunla işləmək, seçmək vərdişi tənqidi düşüncənin inkişaf etdirilməsini tələb edəcək. İnformasiya və texnoloji fonun sürətli dəyişməsi nəticəsində təhsil fasiləsiz xarakter alacaq. Bigdataların toplanması təhsildə fərdi yanaşmanı gücləndirəcək və tanış təhsil formatları yeniləri ilə əvəz olunacaq. Tezliklə diplomları fərdi səlahiyyət profilləri əvəz edəcək. Biliklərin qiymətləndirilməsi üçün testlər aktuallığını itirəcək və onları yeni qiymətləndirmə və sertifikatlaşdırma üzrə internet sistemləri əvəzləyəcək. Bilik verən müəllimlər təhsildə motivasiya verən, vərdişləri ötürən mentorlarla əvəz olunacaq. Biliklərin inteqrasiyası və tətbiqi təcrübəsinə keçid baş verəcək. Gələcəkdə təhsil işəgötürənlər və işəgötürülənlər arasında distansiyanı da aradan qaldıracaq. Təhsil xidmətləri bazarı daha çevik olacaq. Akademik və texnoloji mühitin sintezi baş verəcək. Böyük korporasiyalar dövlətin vasitəçiliyi olmadan müəyyən peşə və vərdişləri sifariş verəcək. Yeni transmilli əmək bazarı formalaşacaq. Odur ki, təhsil sistemi gözlənilən bu dəyişikliklərə və texnologiyaların inkişafına adaptasiya olmalı, gələcəyin çağırışlarına çevik reaksiya verməlidir: “Təhsil sistemində, xüsusilə qəbul imtahanlarında rəqəmsal texnologiyalardan istifadə ilə bağlı Azərbaycanın böyük təcrübəsi var. Ölkəmiz bu sahədə MDB məkanında pionerdir. Azərbaycanın təhsil sistemində texnoloji yeniliklərin, innovativ prinsiplərin tətbiqi, biliklərin qiymətləndirilməsi mexanizminin daha da təkmilləşdirilməsi dinamik xarakter daşıyır. Azərbaycanın müasir təhsil sistemi yaddaş məktəbindən təfəkkür məktəbinə keçidi özündə ehtiva edir. Buraxılış və qəbul imtahanlarında yeniliklər də məhz bu kontekstdə nəzərdən keçirilməlidir”.

### Bu imtahan modeli daha yüksək bacarıqları ölçməyə imkan verir

İmtahan modellərinin dəyişdirilməsi təhsil sistemində tez-tez baş verən proses deyil və bu baxımdan yenilik təqdirəlayiqdir. Təhsil naziri Ceyhun Bayramov hesab edir ki, yeni imtahan modelinə əsasən, buraxılış imtahanlarının şagirdlərin gələcək taleyinə təsir etməsi çox əhəmiyyətli dəyişiklikdir. Bu imtahan modeli əvvəlki modellə müqayisədə daha yüksək bacarıqları ölçməyə imkan verir. Fənlərin sayının azalması isə həm qiymətləndirmə yükü, həm də abituriyentlərin imtahanlarda psixoloji rahatlığı baxımdan əhəmiyyətlidir.

Ali məktəblərə qəbul üçün hazırlanan yeni imtahan modeli XXI əsrin tələb olunan bacarıqlarının ölçülməsini özündə ehtiva edir. Bu modeldə tələb olunan riyazi və məntiqi təfəkkür, mətnlə işləmək, yazı qabiliyyəti, tənqidi təfəkkür, qeyri-standart yanaşma, komandada işləmək, kreativlik və bir sıra bu kimi kompetensiyalar və onların ölçülməsi olduqca vacibdir. Odur ki, yeni imtahan modelinin tətbiqini təhsilin inkişafı üçün vacib amil hesab edən nazirin fikrincə, təhsillə bağlı məsələlərin bu cür müzakirəli təhlili çox əhəmiyyətlidir və faydalı nəticə verir: “Uzun illər ərzində imtahanlar barəsində danışarkən, əsasən imtahanın dürüstlüyü, ədalətliliyi prinsiplərinə diqqət etmişik. Təbii ki, bu, çox vacib və əhəmiyyətlidir. Ancaq qeyd etməliyik ki, uzun müddət ölçülməyən biliklər unudula bilər. Ona görə də bu gün əmək bazarında məzunlarımızın kifayət qədər çox axsadığı istiqamətlər mövcuddur. Bütün bunları nəzərə alaraq hesab edirəm ki, yeni imtahan modelinin tətbiqinə çox ciddi ehtiyac var”.

Yeni imtahan modelində ali məktəbə qəbul zamanı buraxılış imtahanlarının nəticələrinin nəzərə alınmasını əhəmiyyətli dəyişiklik kimi qiymətləndirən Təhsil naziri orta məktəblərdə 11 il ərzində keçirilən tədrisin ölçülməsi, onun nəticələrinin təhsilin növbəti pilləsinə daxil olan zaman nəzərə alınmasını vacib sayıb. Bunu sorğu iştirakçılarının da qiymətləndirdiyinə diqqət çəkib: “Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi sorğuya əsasən görürük ki, respondentlərin 60 faizi məhz yeni imtahan modelində orta məktəblə ali məktəb arasında əlaqənin qurulmasını müsbət qəbul edib”.

### Biliyin ölçülməsində beynəlxalq qiymətləndirmələrdən istifadə

Təhsil üzrə bəzi beynəlxalq qiymətləndirmələrdə Azərbaycanın yeri bəzən tənqidlərə səbəb olur. Ancaq nazir hesab edir ki, qiymətləndirmələrdə nəticənin yüksək olmaması iştirak etməmək üçün əsas təşkil etmir. Onun fikrincə, ümumiyyətlə, beynəlxalq qiymətləndirmələrdə bütün ölkələr iştirak etmir. Əsasən inkişaf etmiş ölkələrin qatıldığı yarışmada olmağın özü isə bir cəsarətdir.

C.Bayramov Azərbaycanın milli qiymətləndirmələri ilə beynəlxalq qiymətləndirmə standartları arasında fərqlərə də diqqət çəkib. Onun sözlərinə görə, ölkə təhsil sistemində qiymətləndirmələr həyata keçirilərkən beynəlxalq qiymətləndirmələrdə istifadə olunan meyarlardan istifadə olunması əsas hədəflərdəndir: “Bu istiqamət üzrə Təhsil Nazirliyi ilə Dövlət İmtahan Mərkəzi arasında əməkdaşlıq edilir”.

### Daha dərin tədqiqatlar aparmaq lazımdır

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bu il təhsil islahatlarının bir hissəsinin başa çatdığını və dəyişikliklərin müsbət təsirinin gözlənilən olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, 20 ildən çoxdur hər imtahandan sonra geniş elmi-statistik təhlillər aparılır. Son imtahanlarla bağlı tədqiqatlar hazırda davam etdiyindən nəticələr barədə bir söz demək mümkün deyil: “Sosial Tədqiqatlar Mərkəzinin sorğularının nəticələri də yalnız imtahan prosedurları ilə bağlıdır. Bizdə də belə növ tədqiqatlar aparılır. STM-in səsləndirdiyi fikirlər bizim üçün çox vacibdir. Bütün bu nəticələri gələcəkdə öz işlərimizdə mütləq nəzərə alacağıq”.

M.Abbaszadə sosial xarakterli araşdırmaları davam etdirməyin önəminə diqqət çəkərək vurğulayıb ki, problemləri təkcə şagirdlərlə yox, müəllimlərlə, təhsil sistemində işləyən ekspertlərlə müəyyənləşdirib daha dərin tədqiqatlar aparmaq lazımdır.

STM-in tədqiqatında yer alan repetitorluqla bağlı məsələyə münasibətini bildirən M.Abbaszadə hesab edir ki, bunun qarşısını almaq və dərslərin keyfiyyətini qaldırmaq lazımdır. Ancaq hər hansı qanunla repetitorluğun qarşısını almağın mümkün olmayacağına da diqqət çəkib: “Elə valideynlər var ki, onlar övladlarının əlavə dil biliklərinə yiyələnməsini istəyirlər. Bu səbəbdən də repetitorlara müraciət edirlər. Misal üçün, uşaq məktəbdə yalnız ingilis dilindən təhsil alır. Lakin o, əlavə dil olaraq fransız dilini öyrənmək istəyir. Kimsə musiqi, rəsmlə məşğul olmaq istəyir. Ona görə də repetitorlara müraciət edirlər. İnkişaf etmiş ölkələrdə də repetitorlar var”.

İctimai rəy sorğusunda soruşulan və baha hesab edilən imtahan qiymətinə də toxunan M.Abbaszadə hər bir məzuna qəbul imtahanlarında ödənişsiz əsaslarla iştirak edə bilməsi üçün bir şansın verildiyini deyib: “Həmin imtahanın haqqı dövlət büdcəsi hesabına ödənilir. Qəbul imtahanlarında ilk dəfə iştirak edən hər bir məzun imtahanlara pulsuz qatılır. Buna görə də heç kim deyə bilməz ki, bütün imtahanlar pulludur. İmtahanlara təkrar qatılmaq istəyənlər iştirak üçün rüsum ödəyirlər. Yeni imtahanları və imtahan nəticələrini araşdırmaq, onu həyata keçirmək üçün daha çox insan, qurğu cəlb etmək lazım olur. Bu baxımdan imtahanların qiymətləri o qədər də yüksək deyil. Özbəkistandan gələn heyət Azərbaycanda bizim işimizlə maraqlandı. Özbəkistanda bu qiymətlər orta əməkhaqqının yarısını təşkil edir”.

Tədbirdə çıxış edən 6 nömrəli tam orta məktəbin direktoru Gülşən Orucova və UNEC-in tələbəsi Anar Məmmədov yeni imtahan modeli ilə bağlı fikirlərini bildiriblər. Müzakirələrdə yeni imtahan modeli ilə bağlı fərqli baxış, ortaq mövqe nümayiş etdirilib.

# Nazir müavini Abşeronda vətəndaşları qəbul edib

Dekabrın 13-də Təhsil nazirinin müavini Firudin Qurbanov Xırdalan şəhərindəki Abşeron Rayon Mədəniyyət Mərkəzində Abşeron, Zəngilan və Şuşa rayon sakinlərini qəbul edib.

Qəbuldan əvvəl Təhsil nazirinin müavini Firudin Qurbanov və Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

2019-cu ilin dekabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq həyata keçirilən qəbulda Abşeron rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir müavini vətəndaşların müraciət, şikayət və təkliflərini dinləyərək, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli ilə bağlı tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin işə qəbulu və yerdəyişməsi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

# Abşeronda gənc müəllimlərlə görüş



Dekabrın 13-də Təhsil nazirinin müavini Firudin Qurbanov Abşeron rayonunda gənc müəllimlərlə görüşüb.

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təşkilatçılığı ilə baş tutan görüşdə Abşeron, Şuşa və Zəngilan rayon ümumtəhsil məktəblərində fəaliyyət göstərən 400-dən çox müəllim iştirak edib.

Abşeron Rayon Mədəniyyət Mərkəzində keçirilən görüş zamanı Firudin Qurbanov müasir dövrdə müəllimdən tələb olunan keyfiyyətlər haqqında geniş çıxış edib. Nazir müavini müəllimin yüksək peşəkarlıq və insani keyfiyyətlərə, öyrənməyi öyrədə bilmək bacarığına malik olmasının, həmçinin şagirdlərə qarşı sevgi və hörmətin vacibliyini vurğulayıb.

Firudin Qurbanov qeyd edib ki, müəllimin əsas vəzifələrindən biri şagirdə informasiyalardan düzgün istifadə etməyi öyrətməkdir. Nazir müavininin sözlərinə görə, müəllim təkcə fənni tədris etməməli, həmçinin şagirdin tənqidi düşüncəsi, təhlil bacarığını müəyyən etməlidir. Bundan əlavə, müəllimlər dərs zamanı şagirdlərin sağlamlığına da önəm verməlidirlər.

Nazir müavini Firudin Qurbanov çıxışında təhsil sahəsində əldə edilən nailiyyətlərdən və görülən işlərdən də ətraflı söz açıb.

Görüş gənc müəllimlərlə qarşılıqlı fikir mübadiləsi şəraitində davam etdirilib.

# “Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya”

Azərbaycan Texniki Universitetində (AzTU) Təhsil Nazirliyi, AzTU və Türkiyə Cümhuriyyəti Yükseköğretim Kalite Kurulunun təşkilatçılığı ilə “Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya” I beynəlxalq elmi-praktiki konfransı öz işinə başlayıb.

AzTU-nun rektoru Vilayət Vəliyev konfransın əhəmiyyətindən danışıb, müasir dövrdə elmlə texnikanın kəsişməsinin meydana çıxardığı yeni istiqamətlərdən bəhs edib.

Rektor Azərbaycan və Türkiyə Universitetləri Assosiasiyasının yaradılması təklifi ilə çıxış edib. Bildirib ki, assosiasiyanın yaradılması qardaş ölkələrin universitetləri arasında əlaqələrin inkişafında mühüm rol oynaya bilər.

Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli Prezident İlham Əliyevin ötən il imzaladığı “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” əsasında Türkiyə universitetləri ilə mühüm işbirliyinin yarandığını bildirib. O qeyd edib ki, məhz həmin proqrama uyğun olaraq növbəti tədris ilindən Azərbaycan vətəndaşları ikili diplom proqramları əsasında təhsil alacaqlar.

Hazırda dünyanın 500 ən yaxşı universitetində Azərbaycan vətəndaşlarının doktorantura təhsillərini dövlət hesabına davam etdirdiyini diqqətə çatdıran nazirliyin şöbə müdiri bunun gələcəkdə dünya ali məktəblərinin təcrübəsinin ölkəmizdə tətbiq olunması istiqamətində mühüm addım olduğunu vurğulayıb. N.Məmmədli AzTU-nun rektoru V.Vəliyevin Azərbaycan-Türkiyə Universitetləri Assosiasiyasının yaradılması təşəbbüsünü müsbət qiymətləndirdiyini və bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini söyləyib.

Dövlətlərarası iqtisadi aktivlik göstəricilərindən danışan Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Şahlar Əsgərov Azərbaycan-Türkiyə universitetlərinin birliyinin iki ölkənin təhsil və elmi inkişafına böyük töhfələr verəcəyini qeyd edib.

Tədbirdə çıxış edən türkiyəli qonaqlar konfransın əhəmiyyətindən danışıb və ölkələrimizin universitetləri arasında əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı təkliflər səsləndiriblər.

İşini 6 bölmə iclasları ilə davam etdirən konfrans dekabrın 20-də yekunlaşacaq.

# Təhsil naziri Şəki və Oğuz rayonlarında olub





Dekabrın 19-da Şəki şəhəri 11 nömrəli tam orta məktəbin yeni inşa olunan binasının açılış mərasimi keçirilib.

Açılış mərasimində Təhsil naziri Ceyhun Bayramov, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, Şəki Şəhər Təhsil Şöbəsinin müdiri Südabər İsmayılova iştirak edib.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Daha sonra məktəbin açılışını bildirən rəmzi qırmızı lent kəsilib, nazir və digər iştirakçılar yeni məktəbdə yaradılmış şəraitlə yaxından tanış olublar. Bildirilib ki, respublikanın qocaman məktəblərindən biri olan 94 yaşlı Şəki şəhəri 11 nömrəli tam orta məktəb 1925-ci ildə istifadəyə verilib. 1955-ci ildən bu günə kimi ümumtəhsil məktəbi kimi fəaliyyət göstərir. Təhsil müəssisəsi 960 şagird yerlikdir. Dördmərtəbəli və beş korpusdan ibarət yeni məktəbdə 38 sinif otağı ilə yanaşı məktəbəhazırlıq qrupu otağı, hər cür avadanlıqlarla təchiz olunmuş fizika, kimya, biologiya, texnologiya, informatika, hərbi hazırlıq, linqafon kabinetləri, tibb otağı, kitabxana, akt zalı, idman zalı və 80 yerlik yeməkxana vardır.

Məktəb binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri, internet və telefon xətləri çəkilib. Binanın istiliklə təmin olunması üçün müasir tələblərə cavab verən qazanxana və nasosxana quraşdırılıb. Hazırda məktəbdə 930 şagird təhsil alır. Məktəbdə təşkil edilən 4 məktəbəhazırlıq qrupunda isə 85 nəfər oxuyur. Şagirdlərin təlim-tərbiyəsi ilə 121 müəllim məşğul olur. 2018-2019-cu tədris ilində məktəbi bitirən 49 məzundan 38-i ali təhsil müəssisələrinə qəbul olunub,11 nəfəri isə orta ixtisas təhsili müəssisələrində təhsilini davam etdirir.

***

Dekabrın 19-da Təhsil naziri Ceyhun Bayramov Oğuz rayonu Padar kənd tam orta məktəbində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlıq olub.

Əvvəlcə Təhsil naziri Ceyhun Bayramov və Oğuz Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Qurbanov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Ümumi təhsil müəssisəsində yaradılan şəraitlə tanışlıq zamanı bildirilib ki, Oğuz rayonu Padar kənd tam orta məktəbi 1883-ci ildən fəaliyyətə başlayıb. Məktəb 460 şagird yerlikdir, tədris binasında 24 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, texnologiya otaqları, çağırışaqədərki hazırlıq kabineti, kitabxana və oxu zalı, informatika, məktəbəhazırlıq otağı, 72 yerlik yeməkxana, idman zalı yerləşir. Məktəb binasının istiliklə təmin olunması üçün təbii qazla işləyən müasir tələblərə cavab verən qazanxana və nasosxana quraşdırılıb.

Daha sonra məktəbin müəllim kollektivi ilə görüş keçirilib. Görüşdə ölkə Prezidenti cənab İlham Əliyevin təhsil sahəsinə göstərdiyi diqqət və qayğıdan danışan Təhsil naziri Ceyhun Bayramov son illər ölkəmizdə məktəblərin infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işlərdən, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində əldə olunan uğurlardan söz açıb.

Təhsil naziri Ceyhun Bayramov məktəbin pedaqoji kollektivinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

## Şəkidə Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının üzvləri ilə görüş

Dekabrın 19-da Təhsil naziri Ceyhun Bayramov Şəkiyə səfəri çərçivəsində Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının üzvləri ilə görüşüb.

Şəki şəhəri 11 nömrəli tam orta məktəbin akt zalında baş tutan görüşdə Təhsil naziri müəllimin hər bir şəxsin formalaşmasında, təhsilin keyfiyyətinin inkişafında mühüm rolundan danışıb.

Ceyhun Bayramov son illərdə dövlət başçısının rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən islahatlardan danışıb, müəllimlərin əməkhaqqının artırılması və peşə nüfuzunun qaldırılması ilə bağlı görülən tədbirlərin müsbət nəticələrini nəzərə çatdırıb. Müəllim peşəsinə marağın artdığını vurğulayan nazir bildirib ki, 5 il əvvəl müəllimlərin mərkəzləşdirilmiş işə qəbulu imtahanlarında iştirak üçün 12 000 nəfər qeydiyyatdan keçmişdirsə, cari ildə bu rəqəm 50 000-dək artıb. Ali təhsil müəssisələrinə qəbulda yüksək nəticə göstərənlər arasında hər 4 nəfərdən biri müəllim ixtisasını seçib.

Müəllimlərin mühüm peşə keyfiyyətlərindən söz açan Təhsil naziri vurğulayıb ki, yaxşı müəllim təkcə ixtisasını yaxşı bilən deyil, müəllimin şagirdə münasibəti də əsas amildir. O, şagirdlə düzgün münasibət qurmağı bacarmalı, onların formalaşmasında səriştə və peşəkarlıq nümayiş etdirməlidir.

Nazir Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının əhəmiyyətli fəaliyyətinə də toxunub, bu qurumun müəllimləri daha məhsuldar və səmərəli işləməyə həvəsləndirdiyini deyib.

Çıxışının sonunda Təhsil naziri Ceyhun Bayramov müəllimlərin hər birinə uğurlar arzulayıb.

Sonra görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Sonda xatirə şəkli çəkdirilib.

## Lerikdə kənd məktəbinin yeni tədris binası istifadəyə verilib

Dekabrın 19-da Lerik rayonu Orand kənd tam orta məktəbi üçün tikilmiş yeni tədris binasının açılış mərasimi keçirilib.

Açılış mərasimində Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Lerik Rayon İcra Hakimiyyətinin başçısının müavini Arzu Vəliməmmədova, Lerik Rayon Təhsil Şöbəsinin müdiri Zöhrab Salayev, rayon təhsil şöbəsinin əməkdaşları, məktəbin müəllim-şagird kollektivi və valideynlər iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Açılış mərasimində Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək dövlətin diqqət və qayğısı nəticəsində son illərdə təhsilin infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülmüş əhəmiyyətli işlər barədə ətraflı danışıb. Nazir müavini deyib ki, hər bir şəxs onlar üçün yaradılan bu imkanları yüksək qiymətləndirməli və onlardan maksimum faydalanmalıdır. Məhəbbət Vəliyeva bildirib ki, təhsilin qarşısında duran əsas vəzifələrdən biri milli-mənəvi dəyərlərə bağlı olan, tarixini bilən əsl Azərbaycan vətəndaşını yetişdirməkdir. Nazir müavini uşaqların yaxşı təhsil almasında valideynlərin müstəsna roluna, onların məktəblə sıx əməkdaşlığının əhəmiyyətinə də toxunub. Müasir dövrdə savadlı, bilikli olmağın vacibliyini qeyd edən Məhəbbət Vəliyeva vurğulayıb ki, oğlanlarla yanaşı qızların da təhsilə yiyələnməsinə xüsusi diqqət yetirmək lazımdır.

Daha sonra çıxış edən Lerik Rayon İcra Hakimiyyətinin başçısının müavini Arzu Vəliməmmədova yeni məktəb binasının açılışı münasibətilə hər kəsi təbrik edib, uğurlar arzulayıb.

Sonra tədbir iştirakçıları məktəb binasında yaradılan şəraitlə yaxından tanış olublar.

Bildirilib ki, 180 şagird yerlik məktəb binası 3 mərtəbəli tədris və 1 mərtəbəli idman korpusundan ibarətdir. Tədris binasında 11 sinif otağı, informatika, texnologiya, fizika, kimya, çağırışaqədərki hazırlıq kabinetləri, kitabxana və oxu zalı, məktəbəhazırlıq qrupu otağı, tibb otağı, bufet və idman zalı da var. Hazırda məktəbdə 147 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 20 müəllim məşğul olur.

Məktəb binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri, internet və telefon xətləri çəkilib. Binanın istiliklə təmin olunması üçün təbii qazla işləyən, müasir tələblərə cavab verən qazanxana və nasosxana quraşdırılıb. Məktəbin elektrik enerjisi ilə təminatı üçün 100 kv transformator yarım stansiyası quraşdırılaraq generatorla təmin olunub.

# Gəncədə yerli idarəetmə orqanlarında çalışanlar üçün maarifləndirici tədbir



Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı və ANAMA-nın dəstəyi ilə 17 dekabr 2019-cu il tarixdə Gəncə şəhərində “Təhsil Nazirliyinin tabeliyindəki təhsil müəssisələrinin ərazilərində hərbi sursat və tərkibində partlayıcı maddə olan qurğuların aşkar edilməsi, zərərsizləşdirilməsi, müəllim-şagird heyətinin partlayış təhlükəsinə qarşı maarifləndirilməsi barədə” Təhsil nazirinin müvafiq əmrinin icrası ilə əlaqədar regional müşavirə keçirilib.

Keçirilən müşavirənin əsas məqsədi qeyd olunan məsələ ilə əlaqədar yerli təhsili idarəetmə orqanlarında çalışan rəhbər və digər aidiyyəti işçilərlə müvafiq maarifləndirmə işinin aparılması olmuşdur. Eyni zamanda Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi (ANAMA) tərəfindən keçirilən həmin tədbirin məqsədi gənclərin çağırışaqədərki hazırlığı (ÇGH) fənninə aid kabinetlərdə təlim silahlarının, sursatlarının və elektron silahların saxlanma qaydaları barədə geniş məlumat vermək, təhlükəsizlik qaydalarına riayət edilməsinin vacibliyini göstərmək, ÇGH rəhbərlərinin bilik və bacarıqlarını daha da inkişaf etdirmək, nəhayət, onları vəzifə öhdəlikləri ilə bağlı maarifləndirmək idi.

Müşavirədə Təhsil Nazirliyinin məsul əməkdaşları, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) nümayəndəsi, həmçinin Gəncə, Mingəçevir və Naftalan şəhər, Ağstafa, Daşkəsən, Samux, Gədəbəy, Goranboy, Göygöl, Xocalı, Kəlbəcər, Qazax, Şəmkir, Tovuz Rayon Təhsil şöbələri və təhsil müəssisələrinin rəhbərləri, eləcə də həmin müəssisələrdə çalışan gənclərin çağırışaqədərki hazırlığı üzrə hərbi rəhbərləri iştirak ediblər.

Gəncə şəhər 34 nömrəli tam orta məktəbin akt zalında baş tutan müşavirəni Təhsil Nazirliyi Audit şöbəsinin Əmlakın monitorinqi sektorunun müdiri Bəhruz Müslümov giriş sözü ilə açaraq Təhsil nazirinin müvafiq əmrinin icrası ilə əlaqədar qarşıda duran vəzifələr barədə məlumat vermişdir.

Təlimdə çıxış edən Bakı şəhəri akademik Zərifə Əliyeva adına liseyin hərbi rəhbəri Qılman Eyvazov ÇGH fənninin şagirdlərin Azərbaycan ordusu sıralarında hərbi xidmətə mənəvi-psixoloji cəhətdən hazır olmasında, vətənpərvər ruhlu vətəndaş kimi formalaşmasında mühüm rol oynadığını bildirib. Müvafiq dövlət standartları əsasında hazırlanmış proqram və dərsliklərə uyğun tədris edilən bu fənnin eyni zamanda məktəblilərin ordu həyatı ilə tanış olmalarına, Azərbaycanın Silahlı Qüvvələri haqqında məlumatların, hərbi Nizamnamə və Qaydaların mənimsədilməsinə xidmət etdiyini qeyd edib.

ANAMA-nın nümayəndəsi Musa Məmmədov çıxışında minaların zərərsizləşdirilməsi, əleyhqazlardan istifadə olunması, hədəfin nişan alınması və digər normativlərin yerinə yetirilməsində təhlükəsizlik qaydalarına dəqiq riayət edilməsinin, partlamamış hərbi sursat (minalar, qumbaralar, mərmilər və digər partlayıcı əşyalar) və təqlid vasitələri aşkar edildikdə onlara toxunmağın qəti qadağan olması və bu barədə dərhal 102 və ya 112 “Qaynar xətti”nə məlumat verilməsinin önəmini vurğulayıb.

Təhsil Nazirliyinin məsul əməkdaşı Rövşən Ağayev söz alaraq maraqlı və canlı diskussiya şəklində keçən müşavirənin mövzusunun çox əhəmiyyətli olduğunu qeyd edib. Gəncə Şəhər Təhsil İdarəsinə belə bir tədbirin yüksək səviyyədə təşkilinə görə iştirakçılar adından öz minnətdarlığını bildirib. Tədbirdə Təhsil Nazirliyinin nümayəndəsi yerli idarəetmə qurumlarının müəllim-şagird heyətinin partlayış təhlükəsinə qarşı maarifləndirilməsi ilə bağlı yerlərdə aparılan işlər zamanı yol verilən nöqsanlardan, bu sahədə çalışan bəzi əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsinin vacibliyindən danışıb, nəzərdə tutulan tədbirlər barədə məlumat verib.

Sonda təlimin mövzusu ətrafında fikir mübadiləsi aparılıb və təlim iştirakçılarının sualları cavablandırılıb.

Elə həmin müşavirədə Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2018-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsi ilə əlaqədar müzakirələr aparılıb.

Tədbirdə Baş Dövlət Yol Polisi İdarəsinin təmsilçisi, polis polkovnik-leytenantı Mübariz Ağayev çıxış edərək “Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı”nda qarşıya qoyulan vəzifələr haqqında geniş məlumat verib. Natiq bu sahədə həyata keçirilən tədbirlərin Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanıldığını xüsusi vurğulayıb. Mübariz Ağayev Azərbaycanda yol təhlükəsizliyi məsələlərinə xüsusi önəm verildiyini bildirərək qeyd edib ki, sözügedən Dövlət Proqramının əsas məqsədi yol-nəqliyyat hadisələrinin, xüsusilə də ölümlə və sağlamlığa zərər vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin sayının, habelə ölkə iqtisadiyyatına və ekologiyasına dəyən ziyanın həcminin azaldılması üçün zəruri tədbirlər görməkdir.

Polis polkovnik-leytenantı yol hərəkəti qaydalarının, təhlükəsiz davranış vərdişlərinin uşaq və yeniyetmələrə aşılanmasında təhsil müəssisələrində müəllimlərin, evdə və yollarda isə valideynlərin, ictimaiyyət nümayəndələrinin üzərinə böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Təhsil Nazirliyinin nümayəndələri Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmrinə uyğun mütəmadi olaraq yol hərəkəti təhlükəsizliyi ilə bağlı tədbirlərin, təlim və seminarların təşkil edilməsinin vacibliyini bildirib, bu sahədə hər zaman Baş Dövlət Yol Polisi İdarəsi ilə birgə əməkdaşlığa böyük önəm verildiyini qeyd ediblər. Nümayəndələr Təhsil Nazirliyinin rəhbərliyi tərəfindən verilmiş tövsiyələrə uyğun olaraq diqqətə çatdırılası ən zəruri məsələlər barədə məlumat veriblər.

# Yüksək nəticə göstərən idmançı-müəllimlər təltif olunub

## *Firudin Qurbanov:* "Azərbaycan idmanı özünün yüksəliş dövrünü yaşayır"

**Samirə KƏRİMOVA**





Yola salmaqda olduğumuz 2019-cu il məktəbdənkənar təhsil sahəsində çalışan işçilər və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən idman-şahmat məktəblərinin idmançı və məşqçi-müəllimləri üçün də uğurlu bir il kimi yadda qalacaq. Məhz onlar səmərəli fəaliyyətlərinə görə dekabrın 18-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təşkil olunan mərasimdə müxtəlif mükafatlarla təltif olunmaq üçün dəvətli idilər. Üzlərdə sevinclə yanaşı, bir həyəcan da var idi. Hər zaman, necə deyərlər "kadr" arxasında qalmaq, lakin sonda çəkdikləri zəhmətin bəhrəsini görmək təbii ki, yaşanan ən xoş hisslərdən biridir. Bu dəfə həmin gözəl duyğuları məhz məktəbdənkənar təhsil sahəsində çalışan işçilər, idmançı və məşqçi-müəllimlərimiz yaşayırdı...

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çıxış üçün söz Təhsil nazirinin müavini Firudin Qurbanova verildi.

Nazir müavini bu gün dövlət tərəfindən idmanın inkişafına xüsusi diqqət göstərildiyini vurğuladı. Qeyd olundu ki, hazırda bütün sahələr olduğu kimi idmanımız da sürətlə inkişaf edir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan idman siyasəti onun layiqli davamçısı ölkə başçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Nazir müavini bildirdi ki, Azərbaycanın dövlət quruculuğunun vacib prioritetlərindən olan sağlam həyat tərzinin təbliği və sağlamlığın möhkəmləndirilməsi, idmanın inkişafı dövlət siyasətinin strateji vəzifələri sırasına daxil olub.

Ölkədə olimpiya hərəkatına xüsusi diqqət çəkən Firudin Qurbanov əldə olunan ilk uğurları mərasim iştirakçılarına bir daha xatırladıb: "Dahi şəxsiyyət Heydər Əliyevin idmanla bağlı verdiyi ilk qərarlar sırasında Azərbaycandan gedən idmançıların və məşqçilərin geri qayıtması və öz bayrağımız altında idman yarışlarında iştirak etmələri ilə bağlı idi. Bu istiqamətdə müsbət nəticələr əldə olundu. Olimpiya hərəkatında isə ilk uğurumuz 1996-cı ildə baş verdi. Belə ki, həmin ildə yığma komandamız Atlanta Yay Olimpiya Oyunlarında iştirak etdi və bu oyunlarda Namiq Abdullayev gümüş medal qazandı".

Firudin Qurbanov 1997-ci ildə məhz dövlət başçısı İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə Azərbaycanda idmanın sürətli inkişafının başlandığını söyləyərək ötən müddət ərzində bu sahədə aparılan əsaslı dəyişikliklərdən, əldə olunan uğurlu nəticələrdən də söz açdı. Bildirildi ki, ilk olaraq idman infrastrukturu yenidən quruldu. Bakıda və bölgələrdə çoxlu sayda olimpiya bazaları tikilib istifadəyə verilib ki, bu da idmanın inkişafı prosesində əsas bünövrələrdən biri sayılır: "İldən-ilə idmançılarımızın beynəlxalq yarışlarda, olimpiadalarda müvəffəqiyyətləri artmaqdadır. Ölkəmizi dünyada layiqincə təmsil edən idmançılarımızın əldə etdikləri qələbə sevincini sözlə ifadə etmək qeyri-mümkündür. Azərbaycana çoxlu sayda medallarla dönən gənclərimizin qalibiyyəti hər birimizin uğuru hesab edilə bilər. Məhz onlar qalibiyyətləri ilə üçrəngli bayrağımızı iştirak etdikləri yarışlarda yüksəkliklərə qaldırırlar. İdmançılarımız hər zaman ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısını hiss edirlər. Bütövlükdə, bu gün Azərbaycan idmanı özünün yüksəliş dövrünü yaşayır və təsadüfi deyil ki, ölkəmiz artıq neçə illərdir bir çox mötəbər beynəlxalq idman yarışlarına ev sahibliyi edir".

Nazir müavini Firudin Qurbanov qeyd etdi ki, uşaq, yeniyetmə və gənclərin sağlam həyat tərzinə istiqamətləndirilməsi, onların asudə vaxtının səmərəli təşkili, fiziki inkişafının təmini üçün şəraitin yaradılması, idmanın ayrı-ayrı növləri üzrə idman məktəblərinin fəaliyyətinin səmərəli qurulması Təhsil Nazirliyinin diqqətdə saxladığı əsas məsələlərdəndir: "Ölkəmizin idman həyatında Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən idman müəssisələrinin xüsusi rolu var. Belə ki, bu müəssisələr uşaq, yeniyetmə və gənclər arasında bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi, onlarla sağlam həyat tərzinin təbliği, idman növləri üzrə milli yığma komandalara ehtiyat qüvvələrin hazırlanması istiqamətində məqsədyönlü işlər həyata keçirir.Təhsil Nazirliyi ölkədə fəaliyyət göstərən idman təşkilatları ilə birgə sıx əməkdaşlıq edir, bir sıra layihələr reallaşdırılır. Hazırda nazirlik sistemində 76 uşaq-gənclər idman və şahmat məktəbləri fəaliyyət göstərir ki, burada da təxminən 60 mindən çox uşaq və gənc idmanın 29 növü ilə məşğul olur".

Nazir müavini çıxışında daha sonra "Təhsil" Respublika İdman Mərkəzinin yetirmələrinin 2019-cu ildə beynəlxalq yarışlarda qazandığı uğurlara xüsusi toxunaraq bu nəticələri son 3 il ərzində əldə olunanlarla müqayisə edib: "İdman məktəblərinin idmançıları ölkə və beynəlxalq miqyaslı yarışlarda 2017-ci ildə 2346 (respublika 1825, beynəlxalq 521 medal), 2018-ci ildə 2535 (respublika 1993, beynəlxalq 542), 2019-cu ildə isə 2847 medal (respublika üzrə 1810, beynəlxalq 1037) qazanıb. Bu, çox gözəl bir nəticədir".

Firudin Qurbanov çıxışının sonunda təltifolunan şəxslərin hər birini təbrik edərək onlara ən xoş istəklərini çatdırdı.

Nəhayət, mərasimin ən həyəcanlı anı gəlib çatdı. Belə ki, 2019-cu ildə yüksək nəticə qazanmış 60 idmançı və yüksək nəticəli idmançıların hazırlanmasında 44 məşqçi-müəllim, idman tədbirlərinin təşkilində 4 məşqçi-müəllim həmçinin, bədən tərbiyəsi və idmanın təbliğ edilməsində 6 media işçisi müxtəlif mükafatlarla təltif olunmaq üçün səhnəyə dəvət edildi. Təltiflər Təhsil nazirinin müavini Firudin Qurbanov, Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev, olimpiya çempionları Namiq Abdullayev, Elnur Məmmədli və Zemfira Meftahətdinova tərəfindən təqdim olundu.

Onu da qeyd edək ki, təltif olunan media nümayəndələri arasında "Azərbaycan müəllimi" qəzetinin əməkdaşı Rəşad Ziyadov da vardır.

# V Respublika fənn müsabiqələri qalibləri mükafatlandırılıb

Dekabrın 17-də Bakı şəhəri Arif Hüseynzadə adına 20 nömrəli məktəb-liseydə V Respublika fənn müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Mərasimdə Təhsil Nazirliyinin Aparat rəhbəri Muxtar Məmmədov, Təhsil İnstitutunun və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin əməkdaşları, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri və digər qonaqlar iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri Emin Əmrullayev çıxış edərək fənn müsabiqələrinin keçirilməsinin məqsədi barədə danışıb. Emin Əmrullayev deyib ki, əsas məqsəd istedadlı uşaqların aşkar olunması, şagirdlər arasında sağlam rəqabət mühitinin yaradılması, aşağı sinif şagirdlərinin müxtəlif fənlərə olan marağının artırılması, onlarla məqsədyönlü işlərin aparılmasıdır.



Tədbirdə iştirak edən Təhsil Nazirliyinin Aparat rəhbəri Muxtar Məmmədov ölkəmizdə istedadlı uşaqların müəyyənləşdirilməsi, onların akademik potensiallarının inkişaf etdirilməsi istiqamətində görülən işlərdən söz açıb. Aparat rəhbəri şagirdlərimizin əldə etdikləri uğurlardan danışıb və bildirib ki, beynəlxalq yarışma qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu məktəbliləri olimpiadalarda iştiraka daha da stimullaşdırır. Muxtar Məmmədov Təhsil Nazirliyinin həyata keçirdiyi xüsusi siniflər layihəsinə diqqət çəkərək hazırda Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərləri və 47 rayon üzrə 117 məktəbdə 162 xüsusi sinfin fəaliyyət göstərdiyini qeyd edib.

Çıxışının sonunda Aparat rəhbəri Muxtar Məmmədov qalibləri təbrik edərək onlara uğurlar arzulayıb.

Tədbirdə Respublika fənn müsabiqələri ilə bağlı videoçarx nümayiş olunub.

Daha sonra müsabiqə qaliblərinə diplom, medal və hədiyyələr təqdim edilib. Tədbirdə həmçinin nailiyyətləri ilə seçilən 25 ümumi təhsil müəssisəsinin rəhbərliyi də təltif olunub.

Qeyd edək ki, V Respublika fənn müsabiqələri riyaziyyat, fizika, kimya, biologiya və informatika fənləri üzrə VI-VII sinif şagirdləri arasında iki mərhələdə keçirilib. Müsabiqələrin rayon (şəhər) mərhələsində 22 mindən çox, final mərhələsində isə 5 minə yaxın şagird iştirak edib. Müsabiqənin nəticələrinə əsasən, ümumilikdə 151 nəfər qalib elan olunub. Onlardan 25 nəfər qızıl, 50 nəfər gümüş, 76 nəfər isə bürünc medal qazanıb. 261 nəfər şagirdə isə yüksək nəticə göstərdiklərinə görə həvəsləndirici sertifikat təqdim olunub.

## "Your English Voice" müsabiqəsinə qeydiyyat davam edir

"Your English Voice" ingilis dilli müsabiqəsinə qeydiyyat prosesi davam edir. Təhsil Nazirliyinin tabeliyində olan və Bakı şəhərində yerləşən dövlət ali təhsil müəssisələrinin II və III kurs tələbələri müsabiqədə iştirak edə bilərlər.

Müsabiqəyə qoşulmaq istəyənlər 15 yanvar 2020-ci il tarixinədək *www.yourenglishvoice.edu.az* portalına daxil olaraq qeydiyyatdan keçməlidirlər. Müsabiqə barədə ətraflı məlumatı *www.sabah.edu.az* saytından əldə edə bilərsiniz.

Qeyd edək ki, "Your English Voice" müsabiqəsi Təhsil Nazirliyi və "British Council Azərbaycan"ın birgə təşkilatçılığı, "Vətəndaş Cəmiyyətində Debat" İctimai birliyi və "International House Manchester" dil məktəbinin tərəfdaşlığı ilə keçirilir. Müsabiqənin təşkilində əsas məqsəd tələbələr arasında sağlam rəqabət mühitinin yaradılması yolu ilə ingilis dilinin öyrənilməsinə, eləcə də müxtəlif tipli bilik yarışlarına olan marağının artırılmasıdır.

## Turizm və kənd təsərrüfatı sahələri üzrə modul dərsliklər

"Kənd təsərrüfatı məhsullarının saxlanılması və anbarlanması üzrə logistika mütəxəssisi" ixtisası üzrə kurikulum proqramı hazırlanıb. Kurikulum proqramına uyğun olaraq 6 yeni modul dərslik çap olunub. Təhsil Nazirliyi tərəfindən nəşr hüququ (qrif) verilən modul dərsliklər artıq tələbələrin istifadəsinə təqdim olunub.

Yeni məzmunlu, praktik tapşırıqların geniş yer aldığı dərsliklər Almaniya Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəstəyi ilə hazırlanıb.

Qeyd edək ki, sözügedən təşkilat tərəfindən 2018-ci il ərzində Avropa İttifaqının maliyyə dəstəyi ilə "Qəbələ, İsmayıllı və Qax rayonlarının kənd təsərrüfatı və turizm sahələrində Dual peşə təhsili və təlimi pilotlarının yaradılması" (EDVET) qrant layihəsi çərçivəsində "Turizm təşkilatçısı", "Mehmanxana inzibatçısı" və "Turizm sahəsində iaşə üzrə mütəxəssis" ixtisasları üzrə kurikulumlar tərtib olunub və 16 modul dərslik hazırlanaraq çap edilib.

# Təhsil şöbələri fəaliyyətlərinə dair hesabatlarını təqdim ediblər

## Nazir müavini Məhəbbət Vəliyeva hesabat tədbirlərində iştirak edib





Dekabrın 13-də Bakıda yerləşən Şuşa rayonu 1 nömrəli tam orta məktəbdə Qubadlı, Şuşa və Zəngilan rayon təhsil şöbələrinin fəaliyyətinə dair hesabat tədbiri keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Qubadlı, Şuşa və Zəngilan rayon təhsil şöbələrinin müdirləri, təhsil işçiləri və məktəb direktorları iştirak ediblər.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Tədbirdə Qubadlı, Şuşa və Zəngilan rayon təhsil şöbələri müdirlərinin dərs ilinin prioritet fəaliyyət istiqamətləri üzrə Təhsil Nazirliyinin müvafiq əmrlərinin icra vəziyyəti ilə əlaqədar hesabat məruzələri dinlənilib.

Daha sonra Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək hesabatlar barədə fikrini bildirib. Nazir müavini ötən il təhsil sahəsində həyata keçirilən işlər, qarşıda duran vəzifələr barədə danışıb. Məhəbbət Vəliyeva məktəblərdə tədris prosesinə rəhbərlik və nəzarət mexanizminin təkmilləşdirilməsinin vacibliyini vurğulayıb.

Sonra qeyd olunan rayonların təhsil şöbələrinin əməkdaşları, məktəb direktorları, eləcə də Bakı, Abşeron və Sumqayıtda fəaliyyət göstərən məcburi köçkün məktəblərinin direktorlarının iştirakı ilə görüş keçirilib. Görüşdə nazir müavini Məhəbbət Vəliyeva tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərin təhlili nəticəsində gəlinən qənaətlər, məktəblərin savadlı kadrlarla təminatının vacibliyi, ümumi təhsil müəssisələrində həyata keçirilən tədbirlərin məqsədyönlü və səmərəli təşkili məsələlərinə toxunub.

Çıxışının sonunda Məhəbbət Vəliyeva təhsil işçilərinə uğurlar arzulayıb.

Sonda tədbir iştirakçılarının təklifləri dinlənilib və suallar cavablandırılıb.

***

Dekabrın 16-da Balakəndə rayon təhsil şöbəsinin fəaliyyətinə dair hesabat tədbiri keçirilib.

Hesabat tədbirində Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Balakən Rayon Təhsil Şöbəsinin rəhbərlik və kollektivi, məktəb direktorları iştirak ediblər.

Öncə qonaqlar ulu öndərin Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Tədbirdə Balakən Rayon Təhsil Şöbəsinin müdirinin dərs ilinin prioritet fəaliyyət istiqamətləri üzrə Təhsil Nazirliyinin müvafiq əmrlərinin icra vəziyyəti ilə əlaqədar hesabat məruzəsi dinlənilib.

Daha sonra Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək hesabat barədə fikrini bildirib. Nazir müavini buraxılış imtahanlarının nəticələrinə əsaslanaraq Balakən rayonunun yerləşdiyi mövqeni müzakirə edib. Məhəbbət Vəliyeva çıxışında təhsilin inkişafı, məktəblərdə təmayül siniflərinin, həmçinin məktəbəhazırlıq qruplarının təşkili məsələlərinə toxunub.

Çıxışının sonunda nazir müavini təhsil işçilərinə uğurlar arzulayıb.

Sonda təhsil işçilərini maraqlandıran mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva Balakəndə pedaqoji fəaliyyətə başlayan gənc müəllimlərlə görüşüb. Görüş zamanı təhsilin keyfiyyətinin yüksəldilməsi, inkişafı üçün atıla biləcək ən uğurlu addımlar müzakirə edilib.

Görüşdə tədbir iştirakçılarının təklifləri dinlənilib və suallar cavablandırılıb.

Məhəbbət Vəliyeva Nizami adına 1 nömrəli şəhər tam orta məktəbə də baş çəkib, təhsil müəssisəsində yaradılmış şəraitlə tanış olub, dərs prosesini izləyib, müəllim və şagird kollektivi ilə söhbət aparıb.

***

Dekabrın 17-də Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva Balakən rayonuna səfəri çərçivəsində təhsilin vəziyyəti və tədris prosesi ilə yaxından tanış olmaq məqsədilə Qabaqçöl qəsəbə Şərif kənd tam orta məktəbində olub.

Nazir müavini məktəbin müəllimləri ilə görüşüb, eyni zamanda təhsil ocağında yaradılmış şəraitlə tanış olub və dərs prosesini izləyib. Bildirilib ki, ən müasir tələblər səviyyəsində inşa edilən məktəb keyfiyyətli təhsil üçün lazımi avadanlıqlarla təchiz olunub. Təhsil müəssisəsində ümumilikdə 22 sinif otağı var. Məktəbdə 2 laboratoriya yaradılıb. Kompüterlə təchiz olunmuş İKT zalı, yeməkxana, kitabxana, idman zalı, 80 yerlik akt zalı mövcuddur. Məktəbin ərazisində geniş idman meydançası da inşa olunub.

Daha sonra nazir müavini həmin qəsəbədə yerləşən Yeni Şərif kənd tam orta məktəbinə də baş çəkib, müəllim və şagirdlərlə söhbət aparılıb.

Məktəb rəhbərliyi və müəllimlərlə keçirilən görüşdə məktəbin fəaliyyətinin, təhsilin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı məsələlər diqqətə çatdırılıb və tövsiyələr verilib.

Səfər çərçivəsində nazir müavini Məhəbbət Vəliyeva Balakən rayonu Humanitar və Texniki təmayüllü liseyində də olub. Liseydə keçirilən görüşdə təhsil nailiyyətlərinin artırılması istiqamətində atıla biləcək addımlar müzakirə edilib, rəylər dinlənilib.

***

Dekabrın 18-də Sabirabad, Saatlı və İmişli rayon təhsil şöbələrinin fəaliyyətinə dair hesabat tədbiri keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Sabirabad, Saatlı və İmişli rayon təhsil şöbələrinin müdirləri, təhsil işçiləri və məktəb direktorları iştirak ediblər.

Öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Tədbirdə Sabirabad, Saatlı və İmişli rayon təhsil şöbələri müdirlərinin dərs ilinin prioritet fəaliyyət istiqamətləri üzrə Təhsil Nazirliyinin müvafiq əmrlərinin icra vəziyyəti ilə əlaqədar hesabat məruzələri dinlənilib.

Sonra Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxış edərək hesabatlar barədə fikrini bildirib. Nazir müavini ötən il təhsil sahəsində həyata keçirilən işlər, qarşıda duran vəzifələr barədə danışıb. M.Vəliyeva məktəblərin buraxılış və ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələrinə toxunub, bu göstəricilərin artırılması istiqamətində işlərin davam etdirilməsini tövsiyə edib.

Daha sonra qeyd olunan rayonların təhsil şöbələrinin əməkdaşları, məktəb direktorlarının iştirakı ilə görüş keçirilib. Görüşdə nazir müavini Məhəbbət Vəliyeva şagirdlərin beynəlxalq müsabiqələrdə əldə etdiyi uğurlardan, məktəblərin ali təhsil müəssisələrinə qəbul göstəricilərindən danışaraq nəticələrin yaxşılaşdığını diqqətə çatdırıb. Nazir müavini dövlətin təhsil sahəsinə olan qayğısının nəticəsi olaraq son illərdə əldə olunan uğurlardan danışıb.

Görüş iştirakçıları ilə fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib və suallar cavablandırılıb.

Tədbirdə xüsusi fəaliyyətinə görə seçilən təhsil işçiləri təltif edilib.

# Orta sinfin aqibəti

## Yüksək texnologiyalar cəmiyyətdə kəskin təbəqələşmə vəd edir



⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

Sezana isə əmindir ki, bu düstur hamı üçün yararlı olmayacaq: "Əlbəttə, elə insanlar var ki, istənilən yaşda yeni nəsə öyrənə, yeni bacarıqlara yiyələnə bilir. Ancaq belələri nə qədərdir? 50 yaşdan yuxarı olanların böyük qismi artıq düşünür ki, ömür boyu əziyyət çəkiblər və indi bu cəhdlərinin məhsulunu dərmək vaxtı yetişib. Axı bütün həyatları boyu məhz bu illər üçün çalışıblar".

İsrailli alimə görə, texniki sahələrin mütəxəssisləri gələcəkdə yüksək məvacib alacaqlar. Aşağı kvalifikasiyaya malik şəxslər isə az maaşla kifayətlənməli olacaqlar. Sezananın fikrincə, ildən-ilə avtomatlaşma nəticəsində orta təbəqənin təmsilçiləri iş yerlərini itirirlər və bu onunla nəticələnir ki, cəmiyyət yüksək və aşağı maaş alan şəxslərdən ibarət olmağa başlayır. "Əvvəllər min nəfərin işlədiyi zavoda indi cəmi yüz nəfər lazımdır. Bu yüz nəfər o şəxslərdir ki, adamları əvəz edən maşınları idarə edə bilirlər. İşsiz qalanlar isə ya xidmət sferasına getməli, ya da mənzillərini kirayə verməli olurlar" - deyə futuroloq təəssüflənir. Sezanaya görə, insanlar tərəqqidən əziyyət çəkirlər, inkişafdan geri qalırlar və iş yerlərini itirirlər. Bu, tək iqtisadi deyil, həm də siyasi məsələdir. Çünki demokratiya ideyalarına ziddir və getdikcə qlobal faciəyə çevrilir.

### Orta sinif yoxa çıxacaq

Alim xəbərdar edir: bu, hələ başlanğıcdır! Yaxın illərdə bizi insanla eyni cərgədə duracaq və getdikcə daha ağıllı olacaq maşınlar gözləyir: "Bax, həmin bu anda bütün trendlər və proqnozlar mənasız olacaq. Biz gələcəkdə nələrin baş verəcəyini, bizi nələrin gözləyəcəyini ehtimal edə bilmirik, çünki bəşər tarixində heç vaxt belə bir hal olmayıb". Sezananın dediklərindən görünür ki, o, hətta robot texnologiyasının inkişafı ilə insanın sabahına dair ən bədbin proqnozlar verən futuroloqlardan da pessimist köklənib. Onun fikrincə, "insan üstünlüyü" barədə deyilənlər əbəsdir. Alimin fikrincə, çoxlarımız texnologiyaların inkişafının fəsadları barədə tam təsəvvürə malik deyilik. Yaxın 10 ildə robotlar elə inkişaf yolu keçəcəklər ki, istənilən insandan daha dəqiq və diqqətli olacaqlar. Servis nöqteyi-nəzərdən yanaşsaq, bu, insanın robota bütün sahələrdə uduzması deməkdir.

Bütün bunlar onunla nəticələnəcək ki, cəmiyyət məhdud sayda həddindən artıq varlılar və çox kasıb əksəriyyətə parçalanacaq. Orta sinif getdikcə ləğv olunub imkansızlar ordusuna qovuşacaq. Bu proses ABŞ-da hazırda özünü qabarıq büruzə verir. Məsələn, ucuz işçi qüvvəsi səbəbilə istehsalat Çinə "köçür". Düzdür, Donald Tramp zavodları yenidən ABŞ-a qaytarmağa cəhd edir, ancaq bunun qlobal xeyri olmayacaq, çünki istehsalat prosesi robotlaşır. Yəni əvvəl ucuz iş görən çinlilər amerikalıların işini əlindən alırdı, indi də robotlar bunu edəcək.

1970-ci illərədək dünyanın inkişaf etmiş hissəsinin iqtisadiyyatında əməkhaqqı ilə istehsalat paralel şəkildə artırdı. Sonra vəziyyət dəyişməyə başladı. 1974-2014-cü illər arasında məhsuldarlıq 74% artıb, saat hesabı maaş isə cəmi 9%. Sezana bunu zavod və fabriklərin avtomatlaşması və yaxud işçi qüvvəsinin ucuz olan ölkələrə "köçməsi" ilə əlaqələndirir. "Bu rəqəmlər orta sinif üçün hər şeyin bitdiyinin göstəricisidir", - deyə Sezana həyəcan təbili çalır.

### Həyat mühəndisliyi

Sezananın dediklərini nə qədər uzaq tutsaq da, qəbul etməliyik ki, sözlərində həqiqət var. Texnologiyaların inkişafı mahiyyət etibarilə tərəqqini təcəssüm etdirsə də, milyonlar üçün mənfi nəticələrə səbəb olacaq. Bu halda biz nə etməliyik?. "Uber"in baş direktoru Dara Xosrovşahi universitetlərə daxil olmağa hazırlaşan orta məktəb məzunlarına mürəkkəbləşən dünyada uğur qazanmaq üçün bəzi məsləhətlər verir. Onun sözlərinə görə, biznesində uğur qazanmasının başlıca səbəbi indi verdiyi məsləhətləri həyatda tətbiq etməsi olub: "Məsləhət görürəm ki, kompüter informasiya sistemləri və injinirinqi öyrənəsiniz". Xosrovşahi Braun Universitetində injinirinqlə məşğul olub və hesab edir ki, tələbələr peşələrindən asılı olmayaraq bu sahədə özlərini sınamalıdırlar. "Baxmayaraq ki, mən injinirinqdən maliyyəyə keçmişəm, bu sfera həmişə mənə problemləri həll etməyə və bərpa olunmağa köməklik edib. Fikrimcə, bu sizə həyatınızda nə ilə məşğul olmaq istəyinizdən asılı olmayaraq həmişə kömək edəcək", - deyə Xosrovşahi bildirir.

"PayScale"nin məlumatına görə, ABŞ-da kollecləri injinirinq, yaxud mühəndislik və kompüter elmləri ixtisası ilə bitirən gənclər 2019-cu ildə ən yüksək əməkhaqqı alan məzunlar olublar. Cek Dorsi, Mark Sukerberq və İlon Mask kimi dövrümüzün qabaqcıl simaları karyeralarına proqram təminatçıları olaraq başlayıblar. "Comparably"nın məlumatına görə, 2019-cu ilin ən uğurlu CEO-ları ABŞ-ın "Silikon vadisi"ndə texnoloji şirkətlərə rəhbərlik edən şəxslərdir. "LinkedIn" isə inkişaf etmiş və etməkdə olan ölkələrdə ən çox ehtiyac olan peşələrə dair araşdırma aparıb. 4 qitənin 17 ölkəsinin əmək bazarını öyrənən işgüzar sosial şəbəkə ən çox ehtiyac duyulan 3 peşəni seçib. Əksər ölkələrdəki mənzərə demək olar üst-üstə düşür. Məsələn, süni intellekt üzrə mütəxəssis və robot texnologiyası mühəndisi ən ehtiyac duyulan peşələrdir. "LinkedIn" aşağıdakı mənzərəyə şahid olub:

*Avstraliya:*
- Süni intellekt üzrə mütəxəssis;
- Kibertəhlükəsizlik üzrə mütəxəssis;
- Robot texnologiyası mühəndisi.

*Avstriya:*
- Məlumatların analizi üzrə mütəxəssis;
- Rəqəmsal marketinq üzrə mütəxəssis;
- "Fullstack" inkişaf etdirici.

*Böyük Britaniya:*
- Süni intellekt üzrə mütəxəssis;
- "Protection Officer"in müdafiəsi üzrə mütəxəssis;
- Robot texnologiyası mühəndisi.

*Almaniya:*
- Süni intellekt üzrə mütəxəssis;
- Saytların müdafiəsi üzrə mütəxəssis;
- Müştərinin uğuru üzrə mütəxəssis.

*İrlandiya:*
- Süni intellekt üzrə mütəxəssis;
- Kibertəhlükəsizlik üzrə mütəxəssis;
- Müştərinin uğuru üzrə mütəxəssis.

*İtaliya:*
- Məlumatların qorunması üzrə mütəxəssis;
- Satış üzrə mütəxəssis;
- Böyük həcmli məlumatlar üzrə mütəxəssis.

*Kanada:*
- Süni intellekt üzrə mütəxəssis;
- Saytların müdafiəsi üzrə mütəxəssis;
- Data mühəndisliyi.

*Niderland:*
- Məlumatların qorunması üzrə mütəxəssis;
- Artım məsələləri üzrə mütəxəssis;
- Məxfilik məsələləri üzrə mütəxəssis.

*Yeni Zelandiya:*
- Kibertəhlükəsizlik üzrə mütəxəssis;
- "Fullstack" inkişaf etdirici;
- Data mühəndisliyi.

*ABŞ:*
- Süni intellekt üzrə mütəxəssis;
- Robot texnologiyası mühəndisi;
- Məlumatların analizi üzrə mütəxəssis.

*Fransa:*
- Məlumatların qorunması üzrə mütəxəssis;
- Süni intellekt üzrə mütəxəssis;
- Daşınmaz əmlak üzrə agent.

*İsveç:*
- Məlumatların qorunması üzrə mütəxəssis;
- Süni intellekt üzrə mütəxəssis;
- "Javascript" üzrə mütəxəssis.

*İsveçrə:*
- Süni intellekt üzrə mütəxəssis;
- Müştərinin uğuru üzrə mütəxəssis;
- Bulud texnologiyaları üzrə mütəxəssis.

*Sinqapur:*
- Süni intellekt üzrə mütəxəssis;
- Robot texnologiyası mühəndisi;
- "Fullstack" inkişaf etdirici.

*BƏƏ:*
- Məlumatların analizi üzrə mütəxəssis;
- "Fullstack" inkişaf etdirici;
- Müştərinin uğuru üzrə mütəxəssis.

*Hindistan:*
- "Blockchain" mütəxəssisi;
- Süni intellekt üzrə mütəxəssis;
- "Javascript" üzrə mütəxəssis.

*Səudiyyə Ərəbistanı:*
- Kibertəhlükəsizlik üzrə mütəxəssis;
- Rəqəmsal məsələlər üzrə mütəxəssis;
- Hüquqşünas.

R.Sezananın öncəgörmələrini ciddi təhlükə kimi görən, yaxud gələcəyini dair təlaşla düşünən varsa, yuxarıdakı peşələr belə şəxslər üçün çıxış yoluna bir işarədir. Təkmilləşməyə, peşə dəyişikliyinə ehtiyacı və vaxtı olan şəxs bu imkandan yararlanmağa çalışmalıdır. Eyni zamanda, yuxarıda göstərilən peşələr bizim üçün övladlarımızı ixtisas seçiminə daha düzgün yönəltmək baxımından ideal "ipucu"dur. Bunu rəqəmsal inqilabın şərtləri diqtə edir. Gecikməyin!

# İki əks qütb

# Cənubi Koreya və Finlandiya təhsilində qiymətləndirmə və məzmun





**Şəmil SADİQ,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

## Şagirdləri imtahanlarla yükləməkdən imtina etmək lazımdır

Bu gün dünya təhsil sistemində danışılan ən önəmli amillərdən biri də şagirdin biliyinə verilən qiymətdir. Yəni, qiymətləndirmə sistemi. Düzü, araşdırsaq da, ilk dəfə şagird biliyinə qiymətin hansı ölkədə, harada verildiyi haqqında heç bir qaynaq tapa bilmədik. Bəli, verilən tapşırığı yerinə yetirməyənə cəzalar çox olub, lakin onu yaxşı yerinə yetirənə nəsə bir qiymət verilməsinin tarixini biz bilə bilmədik. Ancaq onu bilirik ki, bu qiymət məsələsi bizim ölkədə də çox problemli mövzulardan biri olmaqda qalır. Valideynlər uşaqlarının inkişafını görmək üçün müəllimdən şagirdə hər gün qiymət verməyi tələb edirlər. Müəllimlər də sinifdə olan 25-30 uşağın hamısını, bəzən yarısını, bəzən də heç 30 faizini hər gün qiymətləndirmənin mümkün olmadığını sübut etməyə çalışırlar. Hələ Milli Kurikulum layihəsi yeni təsdiqlənəndə məhz ənənəvi üsulla qiymətin yazılmayacağı söhbəti narahatlığa səbəb olmuşdu. Bu proses bir neçə il gizlin şəkildə aparıldı. Belə ki, Təhsil Nazirliyinin tələblərini yerinə yetirməklə yanaşı, bir çox müəllim gizlicə uşaqlara gündəlik aldırıb, ənənəvi 5 ballıq sistemlə qiymətləri yazdı və bu gün bütün məktəblərdə şagirdlərimiz həmin 5 ballıq sistemlə qiymətləndirilir. Təəssüflər olsun ki, bu gün də ölkəmizdə valideynlərin əksəriyyəti şagirdin öyrənib-öyrənməməsinə, mənimsəyib-mənimsəməməsinə fikir vermir, qiymət onun üçün daha vacibdir. Düşünün ki, bir müəllimi valideyn 11 il müddətində ona hər gün yazılan yalançı 5-ə görə sevə və alqışlaya, yaxud əksinə, yazılmış aşağı qiymətə görə ona düşmən kəsilə bilər. Sözsüz ki, bunun əsasında inamsızlıq dayanır.

Başqa bir əsas problem: valideynlərimizin əksəriyyətinin düşüncəsi belədir ki, əgər müəllim şagirdə aşağı qiymət yazırsa, ya prinsip aparır, ya da qərəzi, nəsə gözləntisi var. Bu, nə qədər acınacaqlı vəziyyətdir, təsəvvür edin. Axı müəllim sözünün altında o qədər mənalar yatıb ki, heç bir halda bu hərəkət ona yaraşmır.

Digər tərəfdən, qiymət anlayışı subyektivdir və adətən ayrı-seçkilik yaradır. Belə ki, istənilən müəllimin qiyməti subyektivdir. Bu subyektivliyin obyektivliyə yaxınlığı nə qədərdir, ona da müəllimin vicdanı qərar verir.

Amma hamı onu yaxşı bilir və deyir ki, qiymət yox, bilik, bacarıq əsasdır, son vaxtlar isə bu, bacarıqla əvəz olunmaqdadır. Əgər dediyimiz "bilik əsasdır" prinsipinə əməl etsək, işlərimiz mükəmməl olar.

Şagird biliyinin ölçülməsi üçün yazılan qiymətlə bağlı bütün müəllimlər əziyyət çəkir. Zənn edirəm ki, ölkəmizdə əksər müəllim qiymət yazmadan dərs keçməyi daha üstün tutar. Çünki qiymətləndirmə prosesi bu gün məktəblərimizdə ən çox problem yaradan məsələdir.

Amma onu da unutmayaq ki, qiymətləndirmə sadəcə şagird üçün deyil, həm də müəllimin, məktəbin mənimsətmə səviyyəsini ölçmək üçündür.

Düşünürük ki, araşdırmamızın nəticəsi olaraq bir neçə ölkədə keçirilən qiymətləndirmənin formatı ilə təhsil ictimaiyyətini məlumatlandırsaq, daha faydalı olar.

### Uruqvay - köhnə sistem və ədalətli sifariş

Bu inkişaf sistemi 1879-cu ildən bəri istifadə olunub və az dəyişib. Şagirdlər may ayının birinci mərhələsindən keçərək qiymətləndirilirlər. Amma bu proses Latın Amerikasının cənub yarımkürəsində mart ayında başlanır.

Proses qısaca belədir: məktəblilər ibtidai siniflərdən 11-ci sinfə qədər 2 ayda bir dəfə imtahan olunurlar. Qiymət "S" və "R" hərfləri ilə göstərilir. Həmçinin 1-dən 12-yə qədər rəqəmlər istifadə olunur.

Bu sistem şagirdlərin dərsə daha çox önəm verməsinə gətirib çıxarır. Ancaq bəzən vəziyyət monoton halına gəlir. Onlar bəzən qiymət xətrinə oxumağa başlayırlar.

Uruqvay universitetlərində 1-dən 12-yə qədər olan bu qiymətləndirmə üsulu hələ də istifadə olunur. Kredit sistemi də var. 10 il bundan əvvəl Avropa Kredit Transfer Sistemi istifadə olunmağa başlanıb.

### Danimarka - imtahanın sonu əhəmiyyətsizdir, yalnız öyrən!

Danimarka təhsil sistemində təxminən 40 ildir ki, 13 yaşından aşağı şagirdlər qiymətləndirilmir. Əvvəldən riyaziyyat və ingilis dilindən başqa, uşaqlara özünəinam aşılayan davranış nümunələri və cəmiyyətdə düzgün qərar qəbul edilməsi vərdişləri öyrədilir. Bu dəyərlər Danimarka icması üçün çox vacibdir və bu davranışları qiymətləndirmək çətindir.

Bu üsulla şagirdlər məzmuna daha çox diqqət göstərə bilirlər. Beləliklə, onlar gördüklərini daha yaxşı qavrayırlar. Danimarkanın Folkeskole sistemi imtahan mərkəzli deyil. Bu səbəbdən məktəblilər dərslərin nəticələrindən asılı olmayaraq, birbaşa yuxarı sinfə keçirlər.

Bu üsul yaxşı görünür. Ancaq bu sistemin də mənfi cəhətləri var. Çünki şagird çalışsa da, çalışmasa da, sinifdən-sinfə keçir. Beləliklə, bu, tənbəlliyə yol aça bilər.

### Fransa - qiymətləndirmək və ya qiymətləndirməmək

Lion Universitetinin professoru Filip Meiriyu və OECD-nin İdarə Heyətinin üzvü Andreas Şleyxer həm qiymət vermək, həm də qiymət verməmək metodlarını araşdırıb və ən yaxşı üsulun hər ikisini bir arada tətbiq etməyin olduğu qənaətinə gəliblər. Andreas Şleyxer deyir: "Müəllimin şagirdləri üçün ətraflı bir izahat verməsinin lazım gəldiyini düşünürəm. Bu, xüsusilə vacibdir. Şagirdlər yaxşı nəticələr əldə etmirsə belə, onlara çox gözəl olacağını söyləmək doğru deyil".

Lion Universitetinin müəllimi Meiriyu: "Təəssüf ki, valideynlər, müəllimlər və şagirdlər hələ də imtahan səviyyəsinə üstünlük verirlər. Şagirdləri bu şəkildə təsnifləşdirməməlisiniz. Eyni şəkildə bütün müsabiqələrdə bunlar statistik rəqəmlərdə tətbiq olunur. Niyə biz hələ də ucuz bir şəkildə insanları qiymətləndirməyə çalışırıq?".

### Finlandiya - 6 il qiymətsiz, 16 yaşadək imtahansız...

Son dövrlər bütün dünya təhsil ictimaiyyəti tərəfindən diqqətlə izlənilən, bir çox beynəlxalq qiymətləndirmələrdə ön sırada olan Finlandiyada şagirdə ilk 6 ildə heç bir qiymət, qeyd şəkilli qiymətləndirmə yazılmır. Yəni 8-ci sinfin sonuna qədər qiymət yazılma məcburiyyəti yoxdur və dövlət tərəfindən heç bir məcburi imtahan keçirilmir. Sadəcə, 16 yaşlarında vahid imtahana girirlər.

### Təhsildə məzmun, yoxsa qiymətləndirmə

Yuxarıda bir neçə ölkədə hazırda qüvvədə olan qiymətləndirmə modellərini kiçik də olsa təqdim etdik. İndi isə istərdim ki, təhsildə keyfiyyət göstəricisinin vacibliyi haqqında düşüncələrimizi bölüşək.

Bir çox ölkələr son zamanların keyfiyyət göstəricisi kimi təqdim edilən PİSA, PİRLS beynəlxalq qiymətləndirmələrinin füsunkarlığı ilə Finlandiya, Sinqapur təhsili deyib durur, milli təhsil konsepsiyalarında ona üstünlük verirlər. Lakin gözlənilən nəticə alınmır ki, alınmır. Düşünürəm ki, hər bir ölkə öz təhsil islahatını aparanda birmənalı şəkildə beynəlxalq təcrübədən yararlanmalıdır, lakin onu olduğu kimi alıb tətbiq etmək heç bir halda uğur gətirməz. Çünki hər bir millətin, bölgənin özünəməxsus ənənələri və yanaşması var. Təhsil konseptləri hazırlananda hökmən bu şərtlər nəzərə alınmalıdır. Hətta nəinki Milli Təhsil strategiyası, özəl məktəblər belə beynəlxalq məktəblərin nümayəndəliyini alarkən buna xüsusi diqqət etməli və özününküləşdirilməlidir.

İstərdim ki, eyni qiymətləndirmədə müxtəlif dövrlərdə iştirak edən lider ölkələrin müqayisəsini apararaq mənzərəyə diqqət edək.

PİSA beynəlxalq qiymətləndirməsində Yaponiya, Cənubi Koreya və Finlandiya 2001-ci ildən bu yana dəfələrlə ilk üçlüyü bölüşdürüb. Demək ki, hər bir ölkədə təhsildə keyfiyyət var. Hər üç ölkə uğurlu təhsil sisteminə malikdir, hər üç ölkə inkişaf baxımından eyni yolu keçib və keçməkdədir. Amma təhsil sistemlərinə baxdıqda tamamilə bir-birinə əks ölkələrdir.

### Ev tapşırıqlarının hazırlanmasına sərf olunan vaxt

Fin məktəbliləri planetin ən yaxşı şagirdlərindən biri sayılır. Amma bu ölkədə digər dövlətlərə nisbətən şagird məktəbdə daha az vaxt keçirir. Bir məktəblinin təhsil ocağında keçirdiyi zaman sadəcə 4 saatdır və ev tapşırıqlarının hazırlanmasına cəmi 30 dəqiqə vaxt sərf edir.

Cənubi Koreya təhsil sisteminə görə isə bir şagird səhərdən saat 5-ə qədər məktəbdə dərs oxuyur, saat 9-a qədər məcburi hazırlıqlara qalır, saat 12-yə qədər isə hazırlıq kurslarına gedir. Beləliklə, koreyalı bir şagird günün yalnız 4-5 saatını yata bilir.

*1. Rəqabət, yoxsa birgə fəaliyyət*

Təhsil sahəsinin ən sərt tənqidçiləri belə qəbul qəbul edirlər ki, bu təhsil sisteminin özəlliyi "relaxed" (rahat), hətta "too relaxed" (çox rahat) olmasıdır. Ekspertlərə görə, Finlandiya özünün təhsil sistemini qurarkən Çin mədəniyyətindən bir müdrikliyi qəbul edib. Söhbət Şərq döyüş üslublarında tətbiq edilən "diqqətin rahat konsentrasiyası" fəlsəfəsindən gedir. Maksimal effektivliyi əldə etmək üçün gərginliyə ehtiyac yoxdur, axı gərginlik stress deməkdir ki, bu halda orqanizmin vəzifəsi inkişafa deyil, xilasa yönəlir.

Beləliklə, ölkələrin çoxu təhsil sistemini bir yarış olaraq dəyələndirsələr də, finlandiyalılar məsələyə belə yanaşmır. Bu ölkənin təhsil sisteminə ən yaxşı məktəb və ya şagird siyahısı mövcud deyil.

Cənubi Koreya təhsil sistemində isə proseslər fərqli cərəyan edir. Belə ki, Cənubi Koreya təhsil sistemində inanılmaz rəqabət var. Şagirdlər hər ilin sonunda bir dəfə təşkil olunan imtahana qatılırlar. Yüksək bal toplamış şagirdlər ölkənin ən yaxşı universitetlərinə qəbul olurlar. Bu imtahanın çox çətin olduğunu nəzərə alsaq, buna yalnız 2% şagird nail ola bilir. Təhsil həyatlarının son 2 ilini imtahana hazırlaşmağa sərf edən koreyalı şagirdlər qarşılarına qoyduqları məqsədə nail olmaq üçün axşam saatlarına qədər dərs oxumaqla yanaşı, yay tətillərini də kitabxanalarda yer tapmaq çətin olduğuna görə 4 dollara kiçik, kondisionerli kitabxana otaqları kirayə götürürlər.

*2. Məktəbli forması*

Finlandiya məktəblərində forma yoxdur. Şagirdlər dərsə istədikləri şəkildə geyinib gələ bilərlər. Bu mövzuda hər hansı məcburiyyət yoxdur. Sinifdə corabla ayaqqabısız gəzən şagirdlər görə bilərsiniz. Cənubi Koreya təhsil sistemində isə məktəb formasına, saç düzümünə qarşı intizam qaydaları çox ciddidir.

*3. Təhsil yaşı*

Finlandiyada məktəbə başlama yaşı yeddidir. Bu prinsip əslində, uşaqlara öz uşaqlıq illərini yaşamaq imkanı verir. Eyni zamanda, fin təhsil sisteminə görə ilk təhsil ailədən gəlir.

Cənubi Koreya təhsil sisteminə görə isə şagirdlər məktəbə 6 yaşında başlayır.

*4. Tədris olunan fənlər*

Finlandiya təhsil sistemində idmana daha çox önəm verilir. Fin təhsil sistemində şagirdlərə çətin fənlərin ənənəvi üsullar ilə öyrədilməsinə üstünlük verilmir. Fin təhsil sistemində təbiət elmləri, riyaziyyat, humanitar elmlər, incəsənət ilə bərabər, idman və praktika da çox vacibdir. Fin uşaqları bağça və ibtidai siniflərdə oyunlar oynayır və zövq alaraq öyrənirlər. Müəllimlər də, valideynlər də riyaziyyat və ya dəqiq elmlərdə mücərrəd anlayışları öyrətməyin ən səmərəli yolunun musiqi, dram, ya da idman olduğunu düşünürlər. Elmi və elmi olmayan öyrənmə üsulları arasında qurulan bu tarazlıq uşaqların məktəbdə xoşbəxt olmasının sehirli formuludur.

Cənubi Koreya təhsil sistemində məqsəd şagirdlərə əsas təhsili vermək və onların vətəndaş kimi yetişmələrində ilk addımlarını atmalarında dəstək olmaqdır. Bu təhsil sistemində əxlaq təlimi, Koreya dili, riyaziyyat, fənn, musiqi, rəsm, əl sənətləri, bədən təlimi kimi dərslər tədris olunur. Beləliklə, Cənubi Koreya təhsil sisteminə görə akademik biliklərin yüksək olması daha önəmlidir.

*5. Xoşbəxt şagirdlər*

Finlandiya təhsil sistemi elə qurulub ki, şagirdlər dərslərini sevərək oxuyurlar. Rəqabət anlayışının olmaması sağlam düşüncəli şəxslərin yetişməsinə imkan yaradır. Şagirdlər təhsil almağın məsuliyyətini anlayırlar. Ailələri və müəllimləri də onlara güvənirlər. Maraqlısı budur ki, şagirdlər dərs oxuduqları kimi özlərinə və hobbilərinə də zaman ayıra bilirlər. Valideynlər övladlarını "yeriyən qiymət" olaraq deyil, bir şəxsiyyət olaraq qəbul edirlər. Finlandiya təhsil sistemində qorxu deyil, mehribanlıq və güvən hakimdir. Bu təhsil sisteminə görə məktəbdə uğur önəmlidir, amma həyatda uğur qazanmaq üçün ayrı bacarıq və keyfiyyətlər lazımdır.

Cənubi Koreya təhsil sisteminə görə isə şagirdlərin qarşısına qoyulan yüksək bilik tələbləri onları ruhi, duyğusal və fiziki baxımdan zəif bir insana çevirir. Sadəcə akademik basqı deyil, yuxusuzluq belə şagirdlərin psixologiyalarına ziyan verir. Cənubi koreyalı şagirdlərin duyğusal sağlamlıqlarını araşdıran mütəxəssislər uşaqlarda ümumi stress və depressiyanın geniş yayıldığını göstərirlər.

Koreya Təhsil Nazirliyinin məlumatlarına görə, 2017-ci ildə 114 şagird intihar edib. Bu, daxili münaqişə, depressiya, aşağı akademik nəticə və yaxşı universitetə qəbul ola bilmədiklərinə görə olub.

*6. İmtahanlar*

Finlandiya təhsil sistemində demək olar ki, imtahanlar keçirilmir. Finlandiyadakı müəllimlərin düşüncəsinə görə, "bir insan ya həyata hazırlanar , ya da imtahanlara". Onlar birinci fikri əsas götürərək fin məktəblərində imtahanlara üstünlük vermirlər.

Cənubi Koreya təhsil sistemində şagirdləri hər sinifdə məktəb əsaslı test ilə qiymətləndirirlər. Cənubi Koreyada NAEA adlandırılan qiymətləndirmə sistemi var. Bu qiymətləndirmə testini 9-11-ci sinif şagirdləri verir. Bununla bərabər, 9-cu siniflərin elm və sosial biliklərdən ibarət verdikləri imtahan da var. Bu testlərin nəticələri şagirdlərə individual olaraq verilmir. Qiymətlər Nazirliyə məktəb haqqında məlumat vermək və məktəblərə əlavə dəstək təyin etmək üçün istifadə olunur. Cənubi Koreyada universitetə qəbul olmaq istəyən şagirdlər CSAT adlı imtahan verirlər.

*7. Müəllimlərin hazırlanması*

Finlandiya təhsil sistemində müəllimlərin demək olar ki, hər birinin magistr dərəcəsi var. Müəllimlik ixtisası cəmiyyətdə hörmət edilən ixtisas olaraq qəbul edilir. Bu ölkədə müəllimlər bacarıqlı-bacarıqsız olaraq qiymətləndirilmir. Fəaliyyətində hər hansı əksikliklər görünən müəllimlərin əlavə kurslara cəlb olunaraq inkişaf etmələri üçün imkan yaradılır. Müəllimlər hansı üsulla təhsil verəcəyini özləri müəyyənləşdirir. Heç bir müəllimin işdən çıxarılma kimi bir qorxusu yoxdur.

Cənubi Koreya təhsil sistemində müəllimlərə xüsusi hörmət var. Bu ixtisasa sahib insanlar hər zaman işlə təmin olunurlar. Hər bir müəllimin dövlət qulluqçusu statusu var. Cənubi Koreya təhsil sisteminə görə müəllimlərin işə başladıqdan sonra hər hansı sertifikat və ya magistr dərəcəsi almaq məcburiyyətləri yoxdur.

*8. Ölkələrin özünəməxsus cəhətləri*

Finlandiya kitabxanalarında şagirdlərə oxuma vərdişini aşılamaq üçün xüsusi təlim verilmiş itlər var. Bu itlər şagirdlər kitab oxuyarkən, ya da hekayə söyləyərkən onlara qulaq asırlar.

Cənubi Koreya məktəbliləri sinfə tərlik və yastıqla gələ bilərlər. Bu, müəllimlər dərs izah edərkən şagirdlərin yuxularının gəlməsi ilə bağlıdır. Bunun qarşısını almaq üçün müəllimlərin xüsusi çubuqları olur. Müəllimlər bu "sehrli dəyənək" ilə yatanları oyadır. Bəzi şagirdlər sözügedən çubuqlara "sevgi zopası" söyləyirlər.

Gördüyümüz kimi, hər iki ölkənin təhsilində ciddi keyfiyyət var. Hər iki ölkə inkişaf etmiş ölkələr sırasındadır, hər iki ölkə elm və texnologiyanın inkişafını həyatlarında yaşayırlar, hər iki ölkə dünya ticarətində özünəməxsus yeri tutur. Amma tamamilə fərqli təhsil yanaşması ilə. Biri həddindən artıq liberal, biri isə həddindən artıq avtoritar. Deməli, şagirdləri qiymət yarışına salmadan da təhsildə yüksək nəticə almaq mümkündür, ciddi qiymət stressi ilə yaşatmaqla da. Amma ortaya bir sual çıxır. Sizcə, hansı ölkənin insanı xoşbəxtdir, sağlamdır, rahatdır? Əlbəttə ki, Finlandiyada. Statistik göstəricilərə baxsaq, intiharların səviyyəsinə görə də Cənubi Koreya Finlandiyadan daha öndədir. Amma təəssüflər olsun ki, Finlandiyada son zamanlar depressiya və intiharların sayı artıb, bunun isə səbəbləri universitetə qəbul olmaqla yox, başqa məsələlərlə müəyyənləşdirilir.

Bu, bizə onu göstərir ki, hökmən öz milli xüsusiyyətlərimizi düşünərək, milli ideologiyanı əldə əsas tutaraq, milli təhsil konsepti hazırlamalı, onun tələblərinə cavab verən bir sistem ortaya qoymalıyıq.

Gördüyümüz kimi, bir çox ölkələr şagirdləri imtahanlarla yükləməkdən yan keçib, öyrənməyin sadəcə insanın özü üçün faydalı olduğunu dərk etdirirlər. Lakin dünyanın bir çox ölkəsində hələ də uşaqlar imtahan yarışına sürüklənir, aldığı qiymətlərlə birinin digərindən ağıllı və bacarıqlı olması psixologiyası ilə yaşayırlar ki, bu da insanlar arasında yersiz rəqabətə meyil yaradır. Təhsil mütəxəssisləri müəyyənləşdiriblər ki, hər insan bacarıqlıdır və ya hər bir insanın müəyyən bacarığı var. Onun üçün də "məndə olan səndə yoxdursa, sən zəif, səndə olan məndə yoxdursa, mən zəifəm" prinsipindən uzaq durub, "hər kəsdə özünəməxsus nəsə var və o kəs onunla öyünməli, inkişaf etdirməlidir" prinsipinin üzərində durmalıyıq.

"Qiymət olmazsa olmaz" deyən insanlarımız bir anlıq özünə sual versin: ilk dəfə yeriməyi bacaranda, ilk kitabı oxuyub bitirəndə, yeni smart telefonu əlimizə alıb bilmədiklərimizi öyrəndikcə kim bizə hansı qiyməti vermişdi? Əlbəttə ki, qiymət yox idi, amma ətrafımızdakılar bu sadaladıqlarımı öyrənəndə bizə sevgi vermişdilər, özümüz isə özümüzlə fəxr etmişdik.

Bax, biz də məhz şagirdimizin öyrəndiyini görəndə ona sevgi verib özü ilə fəxr etmək hissini yaşatmaqla, daha çox formal xarakter daşıyan qiymətdən qaça bilərik!




## “Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi”

Göygöl Rayon Heydər Əliyev Mərkəzində ümummilli lider Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə əlaqədar “Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi” mövzusunda “dəyirmi masa” keçirilib.

Göygöl Rayon İcra Hakimiyyəti, təhsil şöbəsi və gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə keçirilən “dəyirmi masa”da rayon ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri iştirak ediblər.

“Dəyirmi masa”da çıxış edənlər ulu öndərin Azərbaycan təhsilinə verdiyi töhfələrdən və mühüm təhsil strategiyasından bəhs ediblər. Heydər Əliyevin təhsil siyasətinə toxunaraq bildirilib ki, hər bir gənc Ulu Öndərin şərəfli həyat yolundan örnək götürməli, azərbaycançılıq ideyalarından faydalanmalıdır.

Sonda Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## “Narkomaniyaya yox deyək!”

İmişli Rayon Təhsil Şöbəsinin, rayon prokurorluğunun və polis şöbəsinin birgə təşkilatçılığı ilə şəhər 5 nömrəli məktəb-liseydə və 3 nömrəli tam orta məktəbdə valideynlərlə “Narkomaniyaya yox deyək!” devizi altında maarifləndirici görüş keçirilib.

RTŞ-nin müdiri Ələmdar Quliyev narkomaniyanın cəmiyyətimizə, gələcəyimiz olan gənclərin mənəviyyatına, əxlaqına ciddi mənfi təsir göstərməsindən, insanların narkomaniya adlı xəstəliyə düçar olaraq həyatlarının məhv olması ilə bağlı ətraflı məlumat verib. O, bildirib ki, narkomaniyanın və zərərli vərdişlərin qarşısının alınması üçün dövlət orqanları, ictimaiyyət nümayəndələri, təhsil işçiləri və valideynlər birgə mübarizə aparmalıdırlar. Bu mövzuda vaxtaşırı olaraq belə maarifləndirici tədbirlərin keçirilməsinə ehtiyac var. Valideynlərin bu məsələlərdə məlumatlı olmaları vacibdir.

Tədbirdə prokuror Valeh Səmədov narkomaniyanın cəmiyyətin mənəvi, əxlaqi dəyərlərini sarsıdan, həmçinin insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan amil olduğunu bildirib. Son illər ölkə miqyasında narkomaniyaya qarşı mübarizə tədbirlərinin daha geniş miqyas aldığını vurğulayıb və bu istiqamətdə daha ciddi addımların atılması üçün valideynlərin üzərinə böyük məsuliyyətin düşdüyünü qeyd edib.

Tədbir diskussiya şəklində başa çatıb.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# “Olimpiadalara şagird hazırlığı çox maraqlı prosesdir”

## *Gülnar Mirzəyeva: “Onlarla işləyən zaman özünü komanda yoldaşı kimi hiss edirsən”*

**Gülnar Mirzəyeva 1983-cü ildə Şabran rayonunda anadan olub. Orta təhsilini fərqlənmə ilə başa vurduqdan sonra 2005-ci ildə Gəncə Dövlət Universitetinin Biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Sonra Bakı Dövlət Universitetinin “Onurğasızlar zoologiyası” kafedrasında magistr təhsili almağa başlayıb.**

**2003-cü ildən Şabran şəhər 2 nömrəli ümumi orta məktəbə müəllim kimi dəvət olunan Gülnar Mirzəyeva magistr təhsilinə görə müəllim kimi fəaliyyətini dayandırmalı olub. O, magistr təhsilini bitirdikdən sonra Şabran Ekoloji Tərbiyə və Təcrübəçilik Məktəbində dərnək rəhbəri kimi işə başlayıb. 2009-2011-ci illərdə M.Nəzirov adına 4 nömrəli tam orta məktəbdə biologiya fənnini tədris edib. 2013-cü ildə müəllimlərin işə qəbulu üzrə müsabiqədən uğurla keçərək hazırda pedaqoji fəaliyyətini davam etdirdiyi Şabran şəhər S.Zülfüqarov adına 3 nömrəli tam orta məktəbinə biologia müəllimi təyin olunub. 2016-cı ildə Təhsil Nazirliyi tərəfindən keçirilən müəllimlərin diaqnostik qiymətləndirilməsi imtahanında iştirak edərək 56 bal toplayıb.**

**Gülnar Mirzəyevanın şagirdləri respublika fənn müsabiqələrində, fənn olimpiadalarında müsbət nəticələr göstərir, qəbul imtahanlarında yüksək bal toplayaraq ölkənin nüfuzlu ali təhsil müəssisələrinə qəbul olunurlar.**

**Təhsilin inkişafındakı xidmətlərinə, gənc nəslin təlim-tərbiyəsi sahəsində yüksək nailiyyətlərinə görə o, bu il Təhsil nazirinin əmri ilə “Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif edilib.**

**Gülnar Mirzəyevanın “Biologiya fənnindən olimpiadalara hazırlaşmaq istəyən şagirdlər üçün vəsait” layihəsi Təhsil Nazirliyinin elan etdiyi Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsinin qalibi olub.**

*- Gülnar xanım, bir neçə ay öncə layihəniz qrant müsabiqəsinin qalibi olub. Bu haqda söz açardınız.*

- Mən artıq neçə ildir ki, olimpiadalara şagird hazırlayıram. Sadəcə vəsait çatışmazlığı ilə bağlı problem yaşayırdım. Düzdür, bu çatışmazlıqları xarici ədəbiyyatlardan tərcümə etməklə bərpa edirdim, amma düşündüm ki, niyə də konkret vəsaitimiz olmasın və digərləri bundan faydalanmasın. Buna görə də layihəyə qoşulmaq qərarına gəldim. Daha doğrusu, həmkarlarımla birlikdə bu qərara gəldik. Qeyd edim ki, layihədə nəzərdə tutulan kitabın artıq I cildi 2018-ci ildə oxucuların istifadəsinə verilmişdi. Həmin kitabın layihə rəhbəri Eldar Kazımov, 3 müəllifdən biri isə mən idim. Bu kitabda da Eldar Kazımov dəstəyini əsirgəməyib və iki müəllifdən biri odur.

*- Layihənizdən əsas gözləntilərimiz nələr olmalıdır?*

- Qeyd etdiyim kimi, layihə biologiya fənnindən olimpiadalara hazırlaşmaq istəyən şagirdlər üçün vəsaitin hazırlanmasını nəzərdə tutur. Layihənin əsas məqsədi istedadlı şagirdlərin aşkar edilməsi, onların hərtərəfli inkişafı və biologiya fənn olimpiadalarında yüksək səviyyədə iştirakına köməklik göstərmək, həm respublika, həm də beynəlxalq olimpiadalarda uğurlu nəticələr qazanmalarına zəmin yaratmaqdır.

Bununla yanaşı, VII-XI siniflərdə olimpiadaya ilkin hazırlıq məqsədi ilə tərtib olunmuş vəsait geniş biologiyasevərlər auditoriyası üçün də nəzərdə tutulub. Bu isə, öz növbəsində, biologiya fənni tədris edilən həm dövlət, həm də özəl təhsil müəssisələrinin, şagird və müəllimlərin fənnə qarşı marağını artıracaq, bu istiqamətdə onların fəaliyyətini stimullaşdıracaqdır. Tərtib olunmuş vəsait Beynəlxalq Biologiya Olimpiadası sillabusu əsasında yazılıb. Vəsaitdə ümumtəhsil məktəblərinin proqramı ilə yanaşı, olimpiadaların istiqamətinə uyğun bəzi mövzuların izahı, xüsusilə şəkil və sxemlərdən istifadə olunub. Olimpiada proqramına müvafiq bəzi müasir elmi yeniliklər də vəsaitdə öz əksini tapmışdır. Bu vəsaitdən istifadə edənlərə mövzuların nəzəri hissələri ilə yanaşı, hər paraqrafın sonunda müxtəlif çalışma tipli tapşırıqlar və suallar da təqdim olunur.



Layihədən gözlənilən nəticələr isə respublikanın müxtəlif ümumtəhsil məktəblərində biologiya fənnindən olimpiada məşğələlərinin təşkili üçün tədris materialları baxımından çatışmazlıqların qismən aradan qalxması, vəsaitin məzmun və səmərəlilik nöqteyi-nəzərindən istedadlı şagirdlərin bilik və bacarıqlarının artırılması istiqamətində aparılan məqsədyönlü fəaliyyətə köməklik göstərməsidir.

*- Özünüzün də qeyd etdiyiniz kimi, olimpiadalara şagird hazırlayırsınız. Bu istiqamətdə işinizi necə qurursunuz və nəticələriniz sizi qane edirmi?*

- Olimpiadalara şagird hazırlığı çox maraqlı prosesdir. Nəyə görə? Çünki həmin komandada konkret qalibiyyət məqsədli, araşdırmaçı və yüksək öyrənmə potensiallı şagirdlər cəmləşir. Onlarla işləyən zaman sən özünü bir müəllimdən daha çox komanda yoldaşı kimi hiss edirsən və üstünlüyün sadəcə istiqamət verməkdən ibarət olur.

İşi qurmaq məsələsinə gəldikdə isə, mən uşaqla ünsiyyətdə olduqdan sonra özümdə müəyyənləşdirirəm ki, ona mütləq dəstək olmaq lazımdır və o qalib ola bilər. Məsələn, dərsdə uşağın müəllimə verdiyi suallar onun haqqında çox şey deyir. Bəzən şagirdin istiqaməti fərqli olur və mən kəşf etdikdən sonra o şagird biologiya sahəsində daha çox nailiyyət qazana bilər, bu zaman özü və ailəsi ilə mütləq danışıram. Demək olar, bu vaxta qədərki heç bir diaqnozum məni yanıltmayıb. Komandamız müəyyənləşdikdən sonra biz konkret plan və proqram üzrə məşğələlərə başlayırıq. Uşaqlar bəzən çox yorulurlar, amma heç zaman onlarda usanma hiss etməmişəm. Və təbii ki, çox çalışanda nəticə də arzuedilən olur.

Hazırladığım şagirdlərdən 2017-ci ildə Murad Cəbrayılov gümüş, bu il isə Nigar Səlimova bürünc medal mükafatçısı olublar. Şagirdlərimdən yarımfinal turuna qədər yüksələnlər də var. Bu il keçirilən fənn müsabiqələrində 3 şagirdim zona mərhələsində iştirak hüququ qazandı.

*- Deyirlər ki, fənni uşağa müəllim sevdirməlidir. Bir biologiya müəllimi kimi fənninizi şagirdlərə necə sevdirirsiniz?*

- Biologiya, ümumiyyətlə, maraqlı elmdir, xüsusən də onun tədrisi. Yəni, uşaqlar üçün araşdırıla biləcək nələrisə tapmaq, onlarla birlikdə işləmək, verdikləri suallara birlikdə cavab tapmaq müəllimin özü üçün də maraqlıdır.

Uşaqlar adətən nəyisə incələməyi, kəşf etməyi sevirlər və mən də biologiyanı bu anlayışlar üzərində tədris edirəm. Məncə təkcə biologiyada deyil, bütün fənlərdə şagirdin fənnə marağını artırmağın əsas üsulu budur. Çünki uşağa maraqlı nələrsə olanda həmin istiqamətə yönəlir. Onlar üçün çətin anlaşılan elmi cümlələrə keçməzdən öncə, maraqlı gələ biləcək tərəfləri göstərmək lazımdır. Artıq fənni sevməyə başladıqdan sonra onlara çətin gələn mövzuları da böyük həvəs və əzmkarlıqla öyrənəcəklər.

*- Şagirdlərinizin uğurları sizin üçün nə ifadə edir?*

- Uzun müddət onlarla birlikdə çalışırıq, həyəcanlanırıq, qayğılanırıq və nəticədə uğur olanda onlar qədər sevinirik. O an bütün əziyyətlər unudulur, bütün yorğunluq gedir, əvəzinə qürur hissi, böyük sevinc və fərəh gəlir. Bu, müəllimin əsas qazancıdır. Əməyinin bəhrəsidir.

Onlar sonra da bizi unutmurlar. Hər il yay tətili başlayanda artıq tələbə adını qazanmış yetirmələrim ziyarətimə gəlirlər. Hansısa məsələdə sualları olanda zəng edib soruşurlar. Bəzən də mən onlardan soruşuram (gülür). Bu hal özü bir müəllim üçün olduqca qürurvericidir.

*- Uğurlu müəllim olmağın xüsusi bir sirri varmı?*

- Uğurlu müəllim. “Uğursuz müəllim” də olmaq olar demək ki. Amma müəllim anlayışında heç bir təyinə ehtiyac olmamalıdır məncə. Müəllim anlayışı elə özlüyündə uğuru ifadə edir. Bu adı daşıya bilməmək məsələsi var sadəcə.

Xüsusi sirr yoxdu əslində. Kim müəllim olmaq istəyir? - Özü sevdiyini öyrətməyi sevən. Müəllim birinci öz fənnini sevməli, ikinci isə onu öyrətməyi sevməlidir. Müəllim həm də öyrənəndir. O, hər zaman öyrənir, araşdırır və öyrəndikcə şagirdlərinə də daha çox şey öyrədir. Digər önəmli, həssas məqam qiymətləndirmə, rəğbətləndirmədir. Düzgün qiymətləndirmə tənbəl bir şagirdi ən çalışqan şagird halına gətirə bildiyi kimi, yanlış qiymətləndirmə də ən çalışqan şagirdi ruhdan sala bilər. Qiymətləndirmə dedikdə, birinci növbədə metodu nəzərdə tuturam. Qiymətləndirmə zamanı da uşaqlara fərdi yanaşmaq lazımdır. Elə uşaq var ki, ona yüksək qiymət yazmaqla bərabər, daha çox çalışmasını qeyd etmək lazımdır. Əks halda, onda arxayınlıq yaranır və tənbəlləşir. Elə uşaq var ki, ona yüksək qiymət yazaraq tərifləmək lazımdır. Bu zaman o daha da ruhlanacaq və növbəti dəfə daha çox çalışacaq. Amma ona digər şagirdə olduğu kimi daha yaxşı hazırlaşmasını tapşırsan, özünə inamda tərəddüd edəcək və bu, onu psixoloji olaraq zəiflədəcək. Şagirdlərin hər birinə fərdi yanaşma çox önəmlidir.

*- Sizcə, müasir müəllim hansı tələblərə cavab verməlidir?*

- Müasir müəllim günün tələblərinə uyğunlaşmalıdır. Yəni əgər, bu gün bir müəllim sosial şəbəkələrdən istifadə etmirsə, demək ki, çox şeydən kənar qalır. Mən bunu bəzi həmkarlarımla ünsiyyətdə olan zaman çox aydın şəkildə müşahidə edə bilirəm. Halbuki, sosial şəbəkələr vasitəsilə digər həmkarlarla bilgini paylaşma, təcrübədən faydalanma, fərqli yanaşmalar kəşf etmə imkanları daha genişdir.

Bir də, müasir müəllim həm də müasir şagirdə uyğun olmalıdır. Əvvəllər müəllim mərkəzdə idi əsas fiqur kimi, amma indi şagird mərkəzi fiqurdur və müəllim əsasən onun qarşısında deyil, yanında olmalıdır. Bu, bütün hallar üçün keçərlidir. Müəllim öyrədən kimi də şagirdin yanında olmalı, ona istiqamət verməlidir, bir dost kimi də onun üçün hər zaman problemini bölüşə biləcək qədər əlçatan olmalıdır.

Əvvəllki dövrdən fərqli olaraq indi müəllim şagird üçün bir müəmma ifadə etmir qətiyyən. Bunu da adiləşmək kimi deyil, müsbət tərəfdən qiymətləndirmək və dəyərləndirmək lazımdır. Məsələn, mən şagirdlərimə uğur qazanmaq üçün keçdiyim bütün çətinlikləri danışıram. Onlara izah etmək istəyirəm ki, uğur asanlıqla qazanılmır və istəyirəm ki, qarşılaşdıqları çətinliklərə görə məqsədlərindən vaz keçməsinlər. Özümü onlarla eyniləşdirirəm, onların indi keçdikləri yolları mənim də keçdiyimi xatırladıram. Onlar üçün çətinliklərlə mübarizədə uğurlu nümunə ola bilmək məni çox sevindirir.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# Kollecdə "açıq dərs"



**İlahə ORUCOVA,**
*Bakı İdarəetmə və Texnologiya Kollecinin metodisti*

Bakı İdarəetmə və Texnologiya Kollecində metodiki işlərə, o cümlədən "açıq dərs"lərin keçirilməsinə geniş yer verilir. Kollecdə fənn müəllimlərinin dərsləri müntəzəm dinlənilir və yüksək səviyyədə təhlil olunur.

İş planına əsasən elə bu günlərdə kollecin riyaziyyat müəllimi Gülər Ağazadənin Ali riyaziyyatın əsasları fənnindən A-151 qrupunda "Müəyyən integral və müəyyən integralın hesablanması" mövzusunda "açıq dərs"inin keçirilməsi buna real sübutdur.

Dərsə başlamazdan əvvəl Dövlət himni səsləndirildi. Ümummilli lider Heydər Əliyevin həyat yolundan bəhs edən videoçarx nümayiş etdirildi.

Sonra Gülər Ağazadə "açıq dərs"ə keçid aldı. Dərsdə tələbələr 2 komandaya bölündü. Birinci komanda "Birinci integral", İkinci komanda isə "Qeyri-müəyyən integral" adlandırıldı. Komandalar arasında 3 yarışma keçirildi. Yarışmada komandanın üzvlərinə müxtəlif suallar təqdim olundu.

Nəticədə yarışmada fərqlənən tələbələrə mükafatlar təqdim edilir.

Sonrakı mərhələdə "açıq dərs"in təhlili keçirildi. Kollecin direktoru, fəlsəfə doktoru Faiq Şahbazlı dərs barəsində fikrini bildirdi. Qeyd etdi ki, Gülər Ağazadənin "açıq dərs"i adından göründüyü kimi keçirilən digər "açıq dərs"lərdən fərqlidir. Müəllim dərsdə müasir dəsə verilən tələbləri gözləməklə, əyani vəsaitdən istifadəyə geniş yer verdi. Fənlərarası əlaqə yaratdı. Ən əsası qrupda tələbələrin fəallığını təmin edə bildi.

Sonra dərsdə iştirak edən riyaziyyat müəllimlərindən Əbülfəz Orucov, Ramal Əməşov, Gültəkin Zeynalova və başqaları da dərslə bağlı fikirlərini söylədilər.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Naxçıvan Müəllimlər İnstitutu

Fəlsəfə doktoru hazırlığı üzrə 2019-cu il üçün doktoranturaya və dissertanturaya qəbul

## ELAN EDİR:

Naxçıvan Müəllimlər İnstitutunda doktorant və dissertant hazırlığı üzrə 2019-cu il üçün qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2019-cu il tarixli 737/S nömrəli sərəncamı ilə təsdiq edilmiş plana əsasən aşağıdakı qaydada aparılır.

**Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul planı:**
*Büdcə hesabına, qiyabi təhsilalma forması:*
- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 1 yer.
*Ödənişli əsaslarla, qiyabi təhsilalma forması:*
- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 2 yer;
- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 1 yer;
- Pedaqoji psixologiya - 1 yer.

**Fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya qəbul planı:**
*Büdcə hesabına, qiyabi təhsilalma forması:*
- Müəllim hazırlığı və fəaliyyəti - 1 yer;
- Sosial pedaqogika - 1 yer.
*Ödənişli əsaslarla, qiyabi təhsilalma forması:*
- Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 1 yer;
- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 1 yer;
- Pedaqoji psixologiya - 1 yer.

Doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

Doktoranturaya qəbul (habelə dissertanturaya təhkimolunma) üçün aşağıdakı sənədlər təqdim edilir:
- *Naxçıvan Müəllimlər İnstitutunun rektorunun adına ərizə;*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *2 ədəd fotoşəkil (3x 4 sm ölçüdə);*
- *iş yerindən xasiyyətnamə;*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsili haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
- *xarici dil bilikləri üzrə beynəlxalq sertifikat (əgər varsa);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2019-cu il tarixli 443 nömrəli Qərarı ilə təsdiqlənmiş yeni redaksiyasının tələbləri əsasında aparılır.

Sənədlərin qəbulu iş günlərində 28 dekabr 2019-cu il tarixədək saat 9.00-dan 17.00-a kimi aparılır.

Əlavə məlumat almaq üçün Naxçıvan Müəllimlər İnstitutunun Elmi hissəsinə müraciət etmək olar.

**Ünvan:** Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 2.
Naxçıvan Müəllimlər İnstitutu
Elmi hissə (otaq № 208)
**Əlaqə telefonu:** (+994 36) 544-04-29
**E-mail:** elmihisse@nmi.edu.az

**REKTORLUQ**

# Nizami yaradıcılığına dair təlim materiallarından fizikanın tədrisində istifadə



**Sevinc CƏLİLOVA,**
*ADPU-nun dosenti,*
**Gülşən MUSAYEVA,**
*ADPU-nun baş müəllimi*

Nizami Gəncəvi təhsilini Gəncə mədrəsələrində almış, ana dilindən başqa ərəb, fars və daha sonra şəxsi mütaliə yolu ilə yunan dilini mükəmməl öyrənmişdir. Onun qədim yunan tarixi və fəlsəfəsini, astronomiya, tibb və həndəsə elmlərini yaxşı mənimsədiyi əsərlərindən aydın görünür.

Nizami dəqiq elmlər içərisində ən qədim elm olan astronomiya ilə yaxından maraqlanmışdır. Bu da o səbəbdən irəli gəlirdi ki, qədimdə xalqlar, xüsusən əkinçilik və maldarlıq təsərrüfatı ilə məşğul olduqlarından fəsillərin dəyişməsi ilə əlaqədar olan vaxtın qabaqcadan dəqiq müəyyən olunmasını vacib məsələlərdən biri hesab edirdilər. Məsələn, misirlilər üçün Sirius ulduzunun yeni ildə ilk görünməsinin çox böyük əhəmiyyəti var idi. Belə ki, bu ulduzu müşahidə etməklə Günəş ilinin uzunluğunu təyin edir, ölkə təsərrüfatında həlledici amil olan Nil çayının daşma vaxtı qabaqcadan dəqiq müəyyənləşdirilirdi. Beləliklə, insanların məişət tələbatlarından irəli gələrək Qədim Misir, Çin, Yunanıstan, Babilistan, Hindistan və başqa ölkələrdə astronomiya elminin inkişafına gətirib çıxardı. Astronomiyanın inkişafı insanların göy cisimlərinə olan marağını artırır, ulduzlar aləminin sirlərini öyrənməyə istiqamətləndirirdi. Xalqların bu istəyi və tələbindən qidalanan Nizami Gəncəvi astronomiya, fizika, riyaziyyat elmləri ilə maraqlanmış, onların qanunauyğunluqlarını öz əsərlərində təsvir və şərh etmişdir.

Məsələn, Nizami "Sirlər xəzinəsi" əsərində həm müəllifin sözləri, həm də yaratdığı obrazların dili ilə deyilən bir çox beytlərində göy cisimlərini, xüsusən zodiak bürclərini belə təsvir edir:

*Sərətanın tacını, Cövzanın kəmərini*
*Peşkəş aldı, bəzəsin deyə öz səfərini;*
*Saçlarına təravət alıb, Xuşə get-gedə,*
*Sünbülənin bürcünü çəkib atdı Əsədə.*
*Geçəsinin qədrini bilməyi edib arzu,*
*O, geçə ölçən Zöhrə aldı ələ tərazu.*
*Bu göydəki Əqrəbin quyruğuna əlilə*
*Süsənbərə oxşayan padzəhr tökdü belə.*
*O, kamandan atılan məharətli ox oldu,*
*Məclisində süfrədən zəhər birdən yox oldu.*
*Dəlv də Yusif kimi, aləmə işıq düzdü,*
*Hudda gizlənən Yunis, döl kimi suda üzdü.*
*Sürəyyasa Həməldən öz taxtına oturdu,*
*Çiçəklərin ordusu səhrada çadır qurdu.*

Burada Həməl (Qoç), Sur (Buğa), Cövzə (Əkizlər), sərətan (Xərçəng), Əsəd (Şir), Xuşə və ya Sünbülə (Qız), Mizan (Tərəzi), Əqrəb, Qövs (Oxatan), Cədey (Oğlaq), Delv (Dolça) və Hut (Balıq) bürcləri bütünlüklə təsvir edilir. Misralardan aydın olur ki, Nizami Gəncəvi Ptolomeyin geosentrik sistemini mükəmməl bildiyinə görə onu şərh etmişdir. Ptolomey sisteminə əsasən Günəş və Ay da planet hesab olunurdu, ona görə də həmin dövrdə planetlərin sayı 7 qəbul edilmişdir. Nizami Gəncəvi bunu belə şərh edirdi :

*Yeddi qat içində nə var binadan,*
*Min alqış ona ki, Odur yaradan.*

Bu fikir "Şərəfnamə"də keçir:
*Yeddi firuzəli bu qəsrdə sən,*
*Haqqa, ədalətə vüsət vermisən.*

Nizami Gəncəvi öz əsərlərində elm və sənət haqqında yürütdüyü mülahizələri elmi araşdırma üzərində cəmləyirdi. Burada o, bu işdə böyük hökmdar İskəndərin elmə və sənətə verdiyi qiyməti alqışlayır. İskəndərin elmə bu münasibəti Yunan elmini bütün dünyada məşhurlaşdırır. Bu baxımdan "İskəndərnamə" əsərinin ən maraqlı hissələrindən biri "İskəndərin yeddi yunan filosofu ilə xəlvətə çəkilməsidir". Həmin filosoflar bunlardır: Ərəstun (Aristotel), Valis (Fales), Bəlinas, Sokrat, Fərfuruyus (Porfiriy, suriyalıdır, əsl adı Məlikdir, yunanca təhsil almış, əsərlərini yunanca yazmışdır), Əflatun (Platon) və Hörmüs (bütün elmləri icad etmiş xəyali bir şəxs). Yeddi filosofun fikirlərini bir araya toplayan Nizami planetlərin hərəkət təsəvvürləri və Kainatın yaranması haqqında İskəndərin alimlərlə mübahisəsində birinci sözü Aristotel deyir. Aristotelə görə ilk əvvəl bir hərəkət mövcud idi, sürət həmin hərəkəti iki yerə bölür:

*Əvvəl vardı ancaq tək bir hərəkət,*
*Onu iki yerə ayırdı sürət,*
*Bu iki hərəkət gəlib bir yerə,*
*Yeni bir hərəkət doğurdu hərə.*
*Əvvəlki hərəkət ayrıldı yenə,*
*Bu üçü qoşuldu biri-birinə.*
*Üç xətt zahir oldu üç hərəkətdən,*
*Üç dövrə yarandı ondakı xətdən.*
*Mərkəzdən ayrıldı həmin dövrələr,*
*Yaranıb ortaya çıxdı bir cövhər.*
*Cövhər keşməkeşdən doğub parladı,*
*"Hərəkət eyləyən cisim" oldu adı.*

Göründüyü kimi, Nizami Gəncəvi ilk amil kimi hərəkəti götürür. Yaranan hərəkətdə sürət dəyişməsinin (təcilin yaranmasının) təsiri ilə dəyişənsürətli, yəni təcilli hərəkətin, sonra əyrixətli və ən nəhayət, fırlanma hərəkətinin əmələ gəldiyini göstərir. Nizami Gəncəviyə görə bu hərəkət dəyişməsinin keşməkeşindən cövhər, yəni hərəkətdə olan cism, materiya yaranmışdır.

Qeyd edək ki, Qədim Yunanıstanda planetlərin hərəkət nəzəriyyəsinin formalaşmış sistemi vardır. Həmin sistem o dövrün fəlsəfi görüşlərin çərçivəsindən kənara çıxa bilmirdi. Belə ki, bu sistem planetlərin müşahidəsindən deyil, fəlsəfi-nəzəri görüşlər əsasında qabaqcadan müəyyən başlanğıc şərtlər əsasında formalaşdırılmışdır. Məsələn, Yerdən fərqli olaraq, göydə ən mükəmməl cisim sferadır, ən mükəmməl fiqur dairədir, ən mükəmməl hərəkət "müntəzəm dairəvi" hərəkətdir. Ona görə də Nizami əsərində əvvəl planetlərin hərəkətinin "müntəzəm dairəviliyinə", sonra planetlərin hərəkətlərinin müxtəlif sürətlərə və "müntəzəm dairəvi" hərəkətlər çoxluğundan ibarət olduğunu və nəhayət, geosentrik sistemin şərhini vermişdir. Bundan sonra, ardıcıl olaraq qalan filosofların baxışları təsvir və şərh edilmişdir. Məsələn, Fales dünyanın ilk cövhəri su olduğunu deyirdi: onun fəlsəfəsinə görə suyun hərəkətindən - buxarlanmasından buludlar yaranmış, buludla-bulud, buludla-ağac arasında su hissəciklərinin hərəkət və sürtünməsindən ildırım və od əmələ gəlmişdir. Od isə havada yana bildiyi üçün hava əmələ gəlmişdir. Su qatılaşdıqda isə buza çevrilmişdir:

*"Sudan bu kainat yarana bilməz*
*- Deyə inkar etmək istəsə hər kəs,*
*Nütfəni bir anlıq qoy salsın yada*
*- Çözümə sübutdur, dəlildir o da".*

Bəlinasın dili ilə Nizami belə deyirdi:
*"Onlardan birinci- işıqlı oddur,*
*Dünyanın ən yüksək tağı da odur.*
*İkinci - küləkdir, hərəkətdədir,*
*Hərəkət etməzsə bilinməz nədir.*
*Üçüncü - sudur ki, təravət verər,*
*Hər şeyə təzəlik, lətafət verər.*
*Dördüncü - torpaqdır tapdayır əyyam,*
*Tapdanan köksündən toz qalxır müdam".*

Nizaminin əsərlərində öz dövründə elmi əsasları müəyyən olunmuş fiziki anlayışlar da yer tapmışdır. Onun "Sirlər xəzinəsi" əsərində aşağıdakı misralara nəzər yetirək:

*Günəş qalxan atarkən, üfüqlər qanla doldu,*
*Yer suya qalxan atdı, sular kölgəli oldu.*

Burada Nizami Günəşin çıxıb batması ilə əlaqədar üfüqün qırmızı rəngə boyanmasını, səmanın mavi rəngdə olmasını, onun kölgəsinin sulara düşməsini təsvir etməklə işığın səpilmə xassəsini məcazi formada ifadə etdiyini göstərmişdir. Nizami Gəncəvi "Yeddi gözəl" əsərində belə söyləyir:

*Dəmir çoxda ki, incədir, başdır,*
*Getdiyi yol ki var maqnitli daşdır.*

Burada o, dəmir qılıncın nə qədər iti və zərif olmasına baxmayaraq getdiyi yolda maqnit daşı qılıncı (dəmiri) cəzb edib qaldırmağa imkan verməyəcəyini göstərir. Digər tərəfdən, Nizami öz iti qılıncına arxalanan insanların əl-qol açmasına yol verməyən ictimai mühiti göstərmək üçün "maqnitin cazibə qüvvəsi" anlayışından məharətlə istifadə və cazibə qüvvəsi haqqında məlumatlı olduğunu qeyd edir.

Beləliklə, Nizami Gəncəvinin ən böyük elmi irsi XII əsrdə özünün poemaları vasitəsilə Şərq elmi fikrini Qədim Yunan filosoflarının elmi-nəzəri tədqiqatları və ideyaları ilə tanış etmiş, bir növ Şərq alimlərinin elmi tədqiqatlarını düzgün istiqamətə yönəltmişdir - koordinasiya etmişdir.

## "Nəsimi ili"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 noyabr 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycanın böyük mütəfəkkir və humanist şairi İmadəddin Nəsiminin 2019-cu ildə 650 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi olduqca mühüm hadisədir. Bütün dünya sənətsevərləri doğma poeziyamızın fəxri, nəcib əməlləri ilə öz vətənindən uzaqlarda şöhrət tapmış, adı ölməz dühalarla bir sırada çəkilən, bir çox xalqlar tərəfindən sevilən, irsi diqqətlə öyrənilən və son dərəcə yüksək qiymətləndirilən İmadəddin Nəsimi kimi istedadlı insanları daim yad edir.

Sərəncamda da qeyd olunduğu kimi, İmadəddin Nəsimi Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi qüdrətli və parlaq simalardandır. Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Nəsiminin yaradıcılığı öz dövrünün dərin poetik fikirləri ilə zəngin fəlsəfi düşüncələrinin vəhdətindən ibarət olaraq, elmi-fəlsəfi fikirlərin aydın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsin qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir. Xüsusi vurğulanmalıdır ki, Nəsiminin yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına güclü təsir göstərmişdir.

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yer tutması ümummilli lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli simalarından ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur. Həmin dövrdən etibarən Nəsimi irsinin və bütövlükdə klassik Azərbaycan mədəniyyətinin daha əhatəli araşdırılması istiqamətində mühüm addımlar atılır. Qürurla demək olar ki, Nəsiminin yaradıcılığı artıq milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsini təşkil edir. Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsiminin yaddaqalan obrazı yaradılmış, Bakı şəhərinin mərkəzi yerində şairin əzəmətli heykəli ucaldılmış və Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutuna Nəsiminin adı verilmişdir.



Həyatını doğma xalqın taleyi ilə möhkəm bağlamış bir sənətkarın həqiqi istedadının və dərin təfəkkürünün bəhrəsi olan poetik söz ürəklərdə böyük əks-səda doğurur. Əsrləri yara-yara zəmanəmizə gəlib çıxmış şair və filosof, mütəfəkkir və mübariz, böyük insan İmadəddin Nəsimi öz 650 illiyi günündə bahadır qaməti ilə, ölməz poetik dühasının zəfər şüaları ilə canlanır.

Rus Şərqşünası Lev Ozerov Nəsimini əbəs yerə "Kainatda günəş" adlandırmırdı. Ozerov 50 il bundan öncə yazırdı: "Nəsimi poeziyası altı yüz ilin qaranlığını işıq şüası kimi yırtaraq bizə gəlib çatmışdır. Ən qiymətli cəhət də budur ki, o, indi də əvvəlki kimi parlayır! Mən Nəsimini dünya lirikasının Koperniki adlandırmaq istəyirəm. Nəsimidən yüz il kiçik olan Kopernik təsdiq edirdi ki, kainatın mərkəzi Yer deyil, Günəşdir. Böyük astronomun Günəş haqqında dediklərini Nəsimi ondan yüz il əvvəl insan haqqında demişdir. Günəş kimi insan da kainatın mərkəzində durur. Nəsiminin poetik sisteminin əsas müddəası məhz budur" (Bax: Kommunist qəzeti, 1 avqust 1973-cü il, səh.4).

ABŞ-ın görkəmli jurnalisti və publisisti Cozef Nort isə Nəsimi irsinə belə dəyər verirdi: "Cordano Bruno Qərb dünyasının Nəsimisi sayılmaqla fəxr edə bilər... Dahi Nəsimi şahlar, soltanlar, xaqanlar dövründə, cəhalət zülmətində, ictimai ədalətsizlik hökm sürən bir zamanda Prometey kimi canını, qəlbini məşələ döndərib qaranlıqlara ildırımtək şəfəq saçmışdır. Buna görə də, onun müdrik və hikmətli sözləri dünya durduqca zülmətləri parçalayıb nəsillərdən-nəsillərə keçə-keçə örnək olacaqdır.

Şərqin xalq deyim və duyumları, xalq dilinin gözəl ənənələri hələ gəncliyindən İmadəddin Nəsiminin qanına hopmuş, demək olar ki, təfəkkürünə və hissiyyatına hakim kəsilmişdir. Nəsimi xalqının nağıllar və əfsanələri, zərb-məsəlləri ilə yanaşı musiqisini də sevmişdir.

Pedaqoji fikirin inkişafında misilsiz xidməti olan Nəsiminin yaradıcılığına səmimi məhəbbət, dərin ehtiram da məhz bundan yaranmış, pöhrələnmişdir. Şairin misralarını, beytlərini nəzərdən keçirdikcə burada müdrik sözlərin sıx-sıx işlənməsinə, xalq danışığında daha çox istifadə edilən hikmətli ifadələrə, məcaz və metaforalara rast gəlirik.

# Azərbaycanın dünyaya bəxş etdiyi qüdrətli sima



**Arzu AZADƏLİYEVA,**
*Bakı şəhəri 245 nömrəli tam orta məktəbin direktoru*

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun Baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin qeyd edilməsi və 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının təntənəli şəkildə keçirilməsi ölməz şairin xatirəsinə dərin ehtiramın parlaq ifadəsi hesab oluna bilər. İmadəddin Nəsiminin adı həqiqət naminə, fikir azadlığı yolunda qəhrəmanlığın rəmzi kimi əbədiləşib, əsrlərdən bəri Şərq xalqlarının yaddaşında yaşamaqdadır.

Nəsimi böyük və istedadlı şair kimi öz poeziyası ilə doğma Azərbaycan dilində gözəl əsərlər yaratmış, öz dövrünün mütərəqqi, humanist ideyalarının carçısı olaraq nikbinliyi və azad düşüncələri ilə cəmiyyətdə geniş şöhrət qazanmışdır. Doğma ana dilində poeziyanın inkişafında İmadəddin Nəsiminin xidmətləri yüksək qiymətləndirilir.

Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi böyük söz ustadları arasında İmadəddin Nəsimi öz üslubu ilə fərqlənir. Çünki Nəsimi təkrarolunmaz istedadını insanın azadlığı, səadəti uğrunda mübarizəyə həsr etmişdir.

Nəsimi yaradıcılığı qədim ənənələri olan mədəni irs üzərində ucalmışdır. Onun istedadı, ilk növbədə, doğma xalqının zəngin dastanlarından, "Dədə Qorqud" kimi epik abidələrindən, xalq şeirinin ənənələrindən ilham almış, Xaqani, Nizami kimi böyük sələflərinin humanist, dünyəvi irsi ilə yoğrulmuşdur. Bu qaynaqlar Nəsiminin XIV əsrdə ana dilində kamil sənət nümunələri yaratması üçün qiymətli zəmin olmuşdur. Nəsimi eyni zamanda ərəb, fars dilləri vasitəsilə bu xalqların elmi və bədii yaradıcılıq sahəsində əldə etdikləri nailiyyətlərlə yaxından tanış olmuş, Yaxın Şərqin böyük sənətkarlarının, filosoflarının əsərlərindən bəhrələnmişdir.

İmadəddin Nəsimi təxminən beş min misradan artıq farsca divan yaratmış, ərəb ölkələrinə səyahəti zamanı oradakı oxuculara öz ideyalarını çatdırmaq məqsədilə ərəbcə şeirlər də qələmə almışdır. Diqqətəlayiq haldır ki, Nəsimi yaradıcılığında öz doğma ana dilinə üstünlük vermiş, bu dildə on iki min misradan artıq böyük bir divan qoyub getmişdir.

Tarixi məlumatlara əsasən Nəsimi o zamanlar məşhur mədəniyyət mərkəzi olan Şirvanda doğulmuşdur. Həyatı boyu bir çox çətinliklərlə, iztirablarla və təqiblərlə üzləşmişdir. Bununla belə, poetik azadlıq axtaran mütəfəkkir şair özünü heç yerdə təhlükədən kənar hiss edə bilməmişdir.

Nəsimi çox böhranlı bir tarixi dövrdə, Teymurilər istilasının hökmranlığı, İslam dininin müdafiəsi pərdəsi arxasında şiddətlənən soyğunçu qanlı müharibələrin, ictimai ədalətsizliyin artdığı bir zəmanədə yaşamış və xalqın acınacaqlı həyatını dərindən duymuşdur. Sadə ailədən çıxan Nəsimi uşaqlıq illərini sənətkarlar arasında keçirmiş, onların arzu və ideallarına bağlı olduğu üçün maddi nemətlər yaradan insanlara dərin məhəbbət bəsləmişdir. Buna görə də feodal saraylarındakı mədəiyyə şeirinə tamamilə zidd, xalqın ictimai-siyasi ideallarını, onun həyat mənafeyini əks etdirən poeziya yaratmışdır.

Nəsiminin insan və gözəllik haqqında fəlsəfi baxışlarına gəldikdə isə o, tamamilə haqlı olaraq hesab edirdi ki, dünyada ən qiymətli sərvət insandır və o Allahın təcəssümüdür. İnsanın kamalı, zəkası, yaradıcılıq qüdrəti və gözəlliyi dünyaya zinətdir, hər şey insana, onun rifahına və səadətinə xidmət etməlidir, çünki insan müqəddəsdir. Bunlar böyük şairin coşqun ehtirasla tərənnüm etdiyi ideallardır.

Orta əsr feodal cəmiyyətində hökm sürən ziddiyyətlər, dini-mistik ideologiya Nəsiminin yaradıcılığına və dünyagörüşünə dərin təsir göstərmişdir. Onun şeirlərində həm dünya sevgisi, həyat eşqi, həm də zülm, ədalətsizlik, qanlı müharibələr içərisində çağlayan dünyanı tərk etmək, ondan üz döndərmək meyilləri var. Nəsimi yaradıcılığında həm həyatı şən, xoşbəxt keçirməyə çağırış, həm də dərin kədər, ümidsizlik, məyusluq müşahidə olunur. Onda həm mütərəqqi sufizm, həm də ehkampərəst, tərkidünyaçı, həyat və məhəbbətə düşmən olan sufilərə şiddətli etiraz var.

Nəsimi hər zaman xalq həyatına, onun istək və arzularına bağlı olmuş, öz yaradıcılığında xalqın həm şikayət və kədərini, həm də azad, xoşbəxt gələcək haqqında həsrət və arzularını əks etdirmişdir. Dövlət və sərvət ehtirasına, zülm və ədalətsizliyə etiraz, doğruluq, sədaqət kimi nəcib ideyaları ilə Nəsimi bu gün də bizə doğma və yaxındır. Buna görə də Nəsiminin şeirləri hələ öz sağlığında oxucuların və dinləyicilərin dərin məhəbbətini qazanmışdır.

Nəsimi haqqında böyük tədqiqatlar işləri aparılıb. 1923-cü ildə "Maarif və mədəniyyət" jurnalının 1-ci nömrəsində dərc olunmuş məşhur ədəbiyyatşünas və yazıçı Salman Mümtazın məqaləsi elmi-ədəbi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdır. Məşhur yazıçı və pedaqoq Soltan Məcid Qənizadənin həmin jurnalın ikinci nömrəsində dərc etdirdiyi "İdarəyə məktub" yazısı buna gözəl sübut ola bilər. Bu hadisədən bir qədər sonra Salman Mümtaz böyük şairin azərbaycanca divanını keçmiş nəşrlərdən daha mükəmməl və daha dürüst şəkildə çap etdirmişdir. Nəsimi yaradıcılığı Hammer, Purqştall, Cibb, Braun, V.Smirnov, A.Krımski və digər görkəmli şərqşünaslar tərəfindən də yüksək qiymətləndirilib.

Görkəmli ədəbiyyatşünas Salman Mümtazın Azərbaycanda ilk dəfə olaraq 1926-cı ildə nəşr etdirdiyi Nəsimi divanı böyük mütəfəkkirin irsinin öyrənilməsi baxımından ciddi əhəmiyyətə malikdir. Araşdırmaçı alim kitaba yazdığı "Ön söz"də şairin türk, fars və ərəb dillərində üç "Divan"ının olması barədə məlumat verir.

Onu da qeyd etmək lazımdır ki, Nəsiminin Şamaxıda anadan olması haqqında Hüseyn əfəndi Qaibovun, Firudin bəy Köçərlinin fikirlərini təsdiq etmək və əsaslandırmaq, onun təxəllüsünün Fəzlullah Nəimi ilə bağlı olduğunu göstərmək, şairin qardaşı Şah Xəndanın Şamaxıda dəfn olunduğunu meydana çıxarmaq da ilk dəfə Salman Mümtaza qismət olmuşdur. Məhz bundan sonra Azərbaycan ziyalıları, alimləri və yazıçıları Nəsimi irsini daha dərindən öyrənməyə başlamışlar.

Əməkdar elm xadimi, professor Həmid Araslı 1937-ci ildən başlayaraq Nəsimi yaradıcılığı barədə ədəbiyyat dərsliklərində bəhs etmişdir. Görkəmli ədəbiyyatşünas 1942-ci ildə Nəsimi haqqında ilk elmi-kütləvi əsəri "Fədakar şair" oçerkini yazır.

Nəsiminin fəlsəfi irsinin, xüsusilə Azərbaycanda hürufilik hərəkatının tədqiq edilib öyrənilməsində professor Zümrüd Quluzadənin böyük rolu var. Azərbaycan nəsimişünaslığında, eləcə də Azərbaycan fəlsəfə tarixinin araşdırılmasında Zümrüd Quluzadənin 1970-ci ildə nəşr olunan "Hürufizm və onun Azərbaycanda ardıcılları" əsəri xüsusi çəkiyə malikdir və qiymətli bir mənbə kimi olduqca faydalıdır.

Nəsiminin seçilmiş şeirləri ilk dəfə Bakıda və Moskvada böyük tirajla rus dilində nəşr edilmiş, əsərlərindən nümunələr ingilis, fransız, alman, ərəb, fars dillərində çapdan çıxmışdır.

Nəsimi dilindən, dinindən və irqindən asılı olmayaraq insanlar arasında birlik, dostluq ideyalarını təbliğ etmiş və bununla da hamının dərin rəğbətini qazanmışdır. Məhz buna görə onun şeirinin ictimai-estetik əhəmiyyəti zaman keçdikcə azalmır, əksinə, daha da artır.

Nəsimi tərəqqipərvər ictimai ideallları, humanist ruhu, həyatsevərliyi ilə dünya ədəbiyyatının korifeyləri sırasında şərəfli yer tutan böyük söz ustadlarındandır.

# Xalq yaradıcılığının zəngin xəzinəsinə Nəsimi yaradıcılığından bir nəzər



**Kamal CAMALOV,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Respublikasının Əməkdar müəllimi*

Nəsimi fəlsəfəsi mündəricəli şeirlərində atalar sözü və məsəllərdən daha çox istifadə edir:

*Çün hər nə kim əkərsən anı*
*biçərsən axır,*
*Dünyada əkmə anı kim, adı oldu üsyan.*

Şairin nəsihətverici şeirindən gətirilmiş bu beyt xalq təfəkkürünün məhsulu olan "Nə tökərsən aşına, o da çıxar qaşığına", "Hər nə əkərsən, onu da biçərsən" kəlamlarının eyni olsa da, forma və yeni məna ifadə etməsi baxımından diqqəti cəlb edir.

Özünü dərk edən insanlar kimisə mühakimə etmədən öncə öz doğru, düzgün, yanlış addımlarını gözdən keçirir. Ancaq öz sözünə, hərəkətinə, əməlinə məhəl qoymayan, məsuliyyət daşımayan, özünün kənardan necə göründüyünü görməyən isə başqasında qüsurlar axtarır. Atalarımız bu kimi özünə hörmət qoymayan adamlar haqqında demişdir: "Öz gözündə tiri görmür, özgə gözündə tük axtarır" və yaxud "Özünə umac avammır, başqasına əriştə kəsir". Nəsimi belə adamları məzəmmət edərək, onları düzgün yola bu şəkildə səsləyir:

*Öz gözündə tiri qoyub, özgə gözdə*
*tükü görmə,*
*Uzaq görər öz eybini görən,*
*tükü tükdən seçər.*

İnsan Nəsimi yaradıcılığının mərkəzində durur. O, dinindən, irqindən asılı olmayaraq hamıya eyni mövqedən yanaşır və insanları dostluğa, xeyirxahlığa səsləyir. Mala, mülkə aludə olmamağa, öz varlığına "arifanə yek" nəzər qılmağa, həyatın və yaşamağın mənasını dərk etməyə çağırır. Nəsimi deyir ki, insanın şərəfi mal-dövlətlə ölçülmür. Yalnız öz şəxsi mənafeyini düşünən, ətrafdakıların, xüsusilə zəhmətkeş kütlənin taleyinə laqeyd münasibət bəsləyən dargözləri, mal-dövlət, sərvət toplamağa can atanları nəzərdə tutan Nəsimi deyirdi:

*Dünyada mülkə, mala sən aldanma,*
*ey məlik*
*Kim, dünyanın mətahi bəğayət həqirdir.*

Nəsimi bir neçə başqa qəzəlində də göstərir ki, var-dövlət insana xoşbəxtlik verə bilməz, kim səadətini var-dövlətdə arayırsa, şübhəsiz yanılır:

*Qafil olan, öz ömrünü var yığmağa*
*sərf eyləyər,*
*Öləndəsə Əzrailin hüzurunda*
*boyun bükər.*

Nəsiminin həcmcə kiçik, məzmunca dolğun "Bəhrül-əsrar" ("Sirlər ümmanı") əsəri diqqəti cəlb edir.

*Simuzər yığmaq üçün cəhd eyləmə*
*gündən-günə,*
*Hər xəzinə torpaq ilə örtülür axır yenə.*
*Sərvət ilə yüklənərsə gəştisi dövrün əgər,*
*O, dərin dəryalar içrə qərq olub*
*batmaz məgər?*

- deyən şair insanın özünün dərk etməsini əsas və vacib bir məsələ hesab edir.

Nəsimi məhəbbət mövzusunda yazmış qəzəllərində dilin sadəliyi, aforizmlərin orijinallığı bariz şəkildə nəzərə çarpır. O, atalar sözü və məsəlləri bacarıqla seçir, onları yeni formada şeirlərinin ahəng və məzmununa uyğunlaşdırır.

*Ey Nəsimi, aqübət varar yelə,*
*Bivəfa ilə yeyən nanü nəmək.*

Yaddaşımızı araşdırsaq, mərdlik və namərdlik haqqında saysız-hesabsız nümunələr üzə çıxır: "Namərd gəlib mərd olmaz, olmasa mərd atası", "Namərdin çörəyi dizi üstə olar", "Keçmə namərd körpüsündən, qoy aparsın sel səni", "Namərdə yaxa vermə, mərdə arxa ol". Bu misalların sayını artırmaq da olar. "Xərc eylə dünya varından nə qədər olsa varın" deyən şair sərvət toplayan "zərü ziynət" düşgünlərini özgələr üçün gecə-gündüz çalışan mehtərə bənzədir. Nəsimi dövrünün xəsis təbiətli, sərvətə həris adamlarını "tamahkar", "həris" adlandırır, onların dövlətlənmək həsrəti ilə sağalmaz bir dərdə, mərəzə tutulduqlarını, bu dərd ilə həyatdan gedəcəklərini xəbər verir və bu sərvət sahiblərinin aqibətlərini belə təsvir edir:

*Ağlın varsa, gəl gömülmə qızıl üçün*
*torpaqlara,*
*Mal hərisi məhşər günü siçan kimi*
*çox sürünər.*
*Tamahkarlıq, hərislik yox,*
*mərd insanda hümmət gərək,*
*Ömür səmum küləyidir, sərvət,*
*dövlət toza bənzər*

"Gərəkməz" rədifli qəzəldən:

*Qəmindir könlümün təxtində sultan,*
*Bir iqlimə iki sultan gərəkməz.*

Yaxud da:

*Zər eşqiylə tanrı eşqi sığışmayır*
*bir araya,*
*Ölkə necə abad olar,*
*iki şahı varsa əgər?!*

- kimi beytlər xalqın təfəkkür süzgəcindən süzülən "İki qoçun başı bir qazanda qaynamaz" ifadəsini xatırlatmırmı?! Şair həmin ifadədən istifadə edərək hamının başa düşə biləcəyi bir dildə gözəl, təsirli və səmimi bənzətmə yaratmışdır.

Bu və ya digər tərzdə "Yıxılana balta çalan çox olar" ifadəsi də dildə işlənən deyimlərdəndir. Şeirlərinin birində Nəsiminin həmin misaldan faydalanmasını müşahidə edirik. Məhəbbət gülşənində müvəffəqiyyətsizliyə uğrayan aşiq dərdinə əlac, yarasına məlhəm arayır. Lakin bunun müqabilində daha böyük bəlalara mübtəla olur, tənə hədəfinə çevrilir:

*Könlümün şişəsinə pərri məgəs*
*dəgsə sınar,*
*Ey həbibim, bəs nədəndir sən*
*atarsan daşlar?*

*Müddəi gər tən edib başıma*
*qaxar eşqini,*
*Sınığa vacib deyildir munca*
*atmaq daşlar.*

İcraçı üçün mahiyyətcə yerinə yetirilməsi müşkül olan bir iş bəzən başqalarına daha asan görünür. Həmin ikinci adam işin çətin olmadığını söyləyir. Belə məqamda bilavasitə proseslə bağlı olan adam "Dillə demək asandır, hünər onu yerinə yetirməkdir", "Uzaqdan baxana döyüş asan gəlir", - deyə hikmətli sözlərlə cavab verir. Belə bir vəziyyətin təsviri ilə biz Nəsiminin də şeirlərində qarşılaşırıq. Sevgilisinə qovuşmaq, vüsal həsrəti həqiqi aşiqi sıxır, ona əziyyət verir. Amma kənardan baxanlar bu işi çox ucuz qiymətləndirdikləri zaman o deyir:

*Ləblərin vəslinə irmək mana müşkül*
*görünür,*
*Gərçi sordular anı, dil ilə asan dedilər.*

Nəsimi rübailərində də hikmətli sözlərdən məharətlə istifadə etmişdir. Həqiqət çarçısı olan sənətkar "Doğru söz acı olar", "Doğru sözdən xəta gəlməz", "Doğruya zaval yoxdur, çəksələr min divana", "Yalan ki var, doğrunun quludur" kimi misallardan yaradıcı şəkildə faydalanır:

*O bilir həqqi ki, yalançı degil,*
*Hər kim yalan söylər, ol naci degil.*
*Həccə doğru varmayan hacı deyil,*
*Doğru söz doğrulara acı deyil.*

Nəsimi həmişə düzlüyə meyil etmiş, doğruluğu insan həyatının, insan səadətinin ən zəruri şərtlərindən, ən yüksək ləyaqətlərindən hesab etmişdir.

Yuxarıda qeyd etdik ki, Nəsimi xalqının nağıllar və əfsanələri, zərb-məsəlləri ilə yanaşı musiqisini də sevmişdir. Şair, xüsusən musiqi tərbiyəsinə də böyük əhəmiyyət vermiş, musiqini haram elan edən yalançı din nümayəndələrinə, sufilərə istehza edərək yazır:

*Səfasız sufiyi gör kim, haram der,*
*dinləməz sazı*

Şair musiqini insan mənəviyyatını zənginləşdirən əsas amillərdən biri kimi qiymətləndirir, qəzəllərində musiqinin muğamlarını və hissələrini bir-bir sayır. Gözəl avazla oxunan "Rast", "Hüseyni", "Cahargah", "Segah", "Əraqi", "Şahnaz" və s. kimi muğamların vurğunu olduğunu qəzəlində belə qeyd edir:

*"Zəngulə" sifət nalı qılam zar*
*"Segaha",*
*Çün əzmi - "Hicaz" eyləyə*
*məhbubi-xoşavaz.*

Göründüyü kimi, Nəsimi xalq deyim və duyumlarından istifadə etməklə indiki nəsil və gələcək nəsillərə örnək deyimi?! Xalq pedaqogikasının zəngin ənənələri əsasında kamilləşən İmadəddin Nəsimi Yaxın Şərqin deyim və duyumlarında yaxşı nə varsa öz poetik yaradıcılığında cəmləşdirmiş və özünü xalqın yaddaşına əbədiləşdirmişdir. Ulu öndər Heydər Əliyevin dediyi kimi: ...Nəsimi bütün dünya qarşısında bütün əzəməti ilə ucalır. O, elə bir insan idi ki, hələ uzaq keçmişlərdə cəhalətpərəstlərdən qorxmayıb zülmə, riyakarlığa, mövhumata etiraz səsini ucaltmış, çox-çox irəliyə nəzər salmışdır.

Ümumiyyətlə, Nəsiminin atalar sözləri və ya hikmətli sözlərə olan münasibətini dürüst müəyyənləşdirmək, təhlil etmək xüsusi tədqiqat mövzusudur. Biz bu yazıda böyük şairin yaradıcılığından bəzi nümunələrə nəzər saldıq. Xalq yaradıcılığının zəngin xəzinəsindən sənətkarlıqla istifadə etmiş İmadəddin Nəsiminin öz sözləri xalqımız tərəfindən sevilə-sevilə təkrar olunur, zərb-məsəllərə çevrilir.

# Riyaziyyatın tədrisi metodikasına dair konfrans

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyində fəaliyyət göstərən 129 nömrəli tam orta məktəbdə "Ümumi təhsil məktəblərində riyaziyyatın tədrisi metodikası: problemlər, onların həlli yolları" mövzusunda konfrans keçirilib.

Tədbirdə BŞTİ-nin müdiri Rəşad Tağıyev, İdarənin müvafiq struktur bölmə rəhbərləri, dərslik müəllifləri Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, məktəb direktorları, paytaxtın Nizami və Xətai rayonları üzrə ümumi təhsil müəssisələrinin ibtidai sinif və riyaziyyat müəllimləri iştirak ediblər.



Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Esmira Quliyeva qonaqları salamlayaraq konfransın keçirilməsinin məqsədlərindən danışıb. Riyaziyyat fənn kurikulumunun tərtibi, dərsliklərin yazılması prosesi və təqdim olunmuş dərslik komplektlərinin tədrisində səmərəliliyin artırılmasının əsas hədəflərdən olduğunu deyən direktor riyaziyyatın öyrədilməsində yeni metod və texnologiyaların tətbiqi məsələlərini müzakirə etməyin vacibliyini vurğulayıb.

BŞTİ-nin müdiri Rəşad Tağıyev çıxışında məktəbin təşəbbüsü ilə riyaziyyatın tədrisi metodikasına həsr olunmuş konfransın təşkilini yüksək qiymətləndirib. Konfransın təhsildə keyfiyyətin artırılması baxımından əhəmiyyətini qeyd edən İdarə müdiri açıq müzakirələrin faydalı olduğunu bildirib, həmçinin Xətai və Nizami rayonları üzrə məktəblərin tədris göstəricilərini nəzərə çatdırıb.

Konfransda "Şagird bacarıqlarının formalaşdırılmasında dərsliklərin rolu" mövzusunda təqdimatla çıxış edən Nayma Qəhrəmanova dərsliklərin proqramlara uyğun tədrisinin əhəmiyyəti barədə fikirlərini bildirib. O, müəllimlərin metodiki cəhətdən ustalığının vacib olduğunu, şagirdlərə daha çox tapşırıq verməyin deyil, mövzunun mahiyyətini anlatmağın zəruriliyini diqqətə çatdırıb.

"Ehtiyat dərsliklərdə yeni yanaşmalar" mövzusunda təqdimatla çıxış edən 193 nömrəli məktəbin riyaziyyat - informatika müəllimi Günay Hüseynzadə riyaziyyat fənninin şagirdlərdə məntiqi təfəkkürün formalaşmasında, mühakimə qabiliyyətlərinin yüksəldilməsində böyük rol oynadığını, həmçinin riyazi fəaliyyət zamanı şagirdin ümumiləşdirmə və konkretləşdirmə, nəticə çıxarmaq və nəticəni əvvəlcədən görmək qabiliyyətinin formalaşdığını bildirib.

Daha sonra çıxış edən BŞTİ-nin müdir müavini İlhamə Abdullayeva isə təhsil islahatlarının əsas istiqamətlərindən biri kimi keyfiyyətin yüksəldilməsi yönündə atılan addımlardan danışıb. Bu baxımdan müəllimlərin iştirakı ilə praktik müzakirələrin aparılmasını və nümunəvi dərslərin təşkilini yüksək qiymətləndirib.

Sonra konfrans sessiyalar üzrə davam etdirilib. Çıxışlar ətrafında müzakirələr aparılıb, müxtəlif siniflər üzrə nümunəvi dərslər təqdim olunub.

Konfransın yekun qərarına əsasən, müəllimlərin əməkdaşlığını və peşəkar dəstək almaq ehtiyacını təmin etmək üçün ayda bir dəfə toplaşmaq məqsədi ilə koordinasiya qrupu yaradılıb.

# Müsabiqənin qalibləri bəlli olub

Paytaxt məktəbliləri arasında keçirilən "Azərbaycan ədəbiyyatında İmadəddin Nəsimi irsi" adlı müsabiqənin qalibləri bəlli olub.

Müsabiqənin final mərhələsinin nəticələrinə əsasən, 80 nömrəli tam orta məktəbin şagirdi Nurlan Cəbrayılzadə I, 125 nömrəli tam orta məktəbin şagirdi Rauf Muradlı və 110 nömrəli tam orta məktəbin şagirdi Qüdrət Hacızadə II, 92 nömrəli tam orta məktəbin şagirdi Ləman Sadıxova, 76 nömrəli tam orta məktəbin şagirdi Daniil Borisov və 309 nömrəli tam orta məktəbin şagirdi Sərtac Ələkpərov III yerə layiq görülüb. Həmçinin 139, 46, 189-190, 181, 99, 283, 210, 322 və 231 nömrəli ümumi təhsil müəssisələrinin şagirdləri həvəsləndirici yerə layiq görülüb.

Qeyd edək ki, müsabiqənin final mərhələsində 51 məktəbli münsiflər heyəti qarşısında tədqiqat mövzuları üzrə çıxış edib. Səsləndirilən fikir və ideyaların mövzuya uyğunluğu, jest və mimikalardan məqsədyönlü istifadə edilməsi, nitqin aydınlığı, düzgünlüyü və təqdimat üçün ayrılmış vaxta riayət edilməsi meyarları əsas götürülərək məktəblilər 4 ballıq sistem üzrə qiymətləndiriliblər.

Qeyd edək ki, müsabiqə Azərbaycanın söz sənəti və ədəbiyyat tarixində yüz illər boyu yaşayan Nəsimi irsi barədə məktəbliləri daha geniş məlumatlandırmaq, yetişməkdə olan gənc nəslin bədii və fəlsəfi fikrə marağını artırmaq məqsədilə keçirilib. Həmçinin şagirdlərdə mütaliə vərdişlərini, bədii, obrazlı və məntiqi təfəkkürü, tədqiqat bacarıqlarını inkişaf etdirmək, istedadlı, yüksək analitik düşüncə və təhlil qabiliyyətinə malik şagirdlər yetişdirmək də müsabiqənin əsas hədəflərindəndir.

Müsabiqə qalibləri BŞTİ tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılacaq.

# Paytaxt məktəblərində yol hərəkəti qaydaları təbliğ olunur

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində yol hərəkəti qaydaları ilə bağlı maarifləndirici tədbirlər keçirilib.

Təhsil müəssisələrində məktəblilər arasında yol hərəkəti qaydalarını təbliğ etmək və öyrətmək, onları yol qəzalarından qorumaq məqsədilə praktiki məşğələlər, mühazirə və disputlar, seminar, "Açıq dərs" və "dəyirmi masa"lar təşkil edilib. Eləcə də təhsil müəssisələrində yol nişanlarına aid fotostendlər hazırlanıb, məktəblilər arasında rəsm müsabiqələri, yarışlar keçirilib, şagirdlərin rəsm və əl işlərindən ibarət sərgilər təşkil olunub.

"Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"na uyğun olaraq keçirilən tədbirlərin əsas məqsədi məktəblilərə yol hərəkəti qaydalarını öyrətmək, onların müvafiq bilik və bacarıqlarını nümayiş etdirmək, yol qəzalarında uşaqların xəsarət almasının qarşısını almaqdan ibarətdir.

Tədbirlərdə məktəblilərə yol hərəkəti qaydaları haqqında ətraflı məlumatlar verilib. Qeyd olunub ki, təhsil müəssisələrində şagirdlərə yol hərəkəti təhlükəsizliyinə dair bilik və vərdişlərin aşılanması, bu barədə onların məlumatlılıq səviyyəsinin artırılması məktəblilərin təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır.

Həmçinin şagirdlərə yolda daha diqqətli olmaları tövsiyə edilib. Yollarda uşaqların təhlükəsizliyinin təmin olunmasında profilaktik tədbirlərin və maarifləndirmə işlərinin əhəmiyyətinin vacibliyi vurğulanıb.

Tədbirlərdə, həmçinin şagirdlər yol hərəkəti nişanları və nəqliyyat növlərinə aid şeirlər səsləndirib, mahnılar ifa ediblər.

# Beynəlxalq idman yarışlarında qazanılan nailiyyətlər

Daha bir qrup paytaxt məktəblisi beynəlxalq yarışlardan parlaq nailiyyətlərlə qayıdıb. Belə ki, paytaxtdakı 81 nömrəli tam orta məktəbin şagirdi Günel Nəsirova karatenin şotakan növü üzrə dünya kubokunda 14-15 yaşlı yeniyetmələr arasında birinci yerə layiq görülərək, diplom və medalla təltif edilib.

Yaponiyada keçirilən batut gimnastikası və tamblinq üzrə Dünya Yaş Qrupları Yarışlarında 11-12 yaşlı gimnastlar arasında ölkəmizi təmsil edən 46 nömrəli tam orta məktəbin V sinif şagirdi Aleksey Karataşov tamblinq üzrə qızıl medal qazanıb. Təsnifat mərhələsinin ilk pilləsindən finala vəsiqə qazanan A.Karataşov bu mərhələdə də birinciliyi əldən buraxmayıb və qalibin şərəfinə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Daha bir qələbə xəbəri 8 nömrəli tam orta məktəbdən gəlib.

Məktəbin IV sinif şagirdi Emiliya Məmmədli Bakıda keçirilən beynəlxalq yarışda sinxron üzgüçülük üzrə gümüş medala layiq görülüb.

Paytaxtdakı 180 nömrəli tam orta məktəbin dörd şagirdi Sadiq Mahmudov, Alı Yaqubalızadə, Nihad Şəmiyev və Alişan Əliyev idmanın karate növü üzrə 28 ölkənin iştirak etdiyi yarışda 35-40 kiloqram çəki dərəcələrində II və III yerləri tutaraq Avropa oyunlarına vəsiqə qazanıblar.

# Valideynin məktəbdə bir günü

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

### Məktəblilərin ismarıcı ünvanına çatdı

Valideynlərin başı əl işlərinin cazibəsinə qarışdığı bir vaxtda kiçik məktəblilər ortaya çıxdı. Xüsusi geyimlərdə günün məqsəd və məramına uyğun ismarıcları ilə hər kəsin diqqətini cəlb edən kiçikyaşlı məktəblilər bir anda hamını başlarına yığdılar. Valideynlər III sinif şagirdlərinin "Bizi qayğıdan kənarda qoymayın", "Bahalı əşyalar almaqdansa, təhsilimizə dəstək olub zirvələrə yüksəlməyimizə kömək edin" çağırışlarını heyranlıqla izlədilər. Məktəbliləri 26 nömrəli təhsil müəssisəsinin II-III-IV siniflərindən təşkil olunan gənc tədqiqatçılar əvəz etdi. Sağlam həyat tərzinin üstünlüklərini valideynlərinə birbir izah edən məktəblilər öz böyüklərinə qidalanmanın rolundan danışdılar. Ailə münaqişələrinin onların həyatına təsirini valideynlərə xatırlatdılar. Balaca məktəblilərin hər fikri valideynlərin maraqlı reaksiyalarına, replikalarına səbəb oldu. Valideynlərdən birinin "Bu gün bunlar burada bizə yaxşıca dərs verdi"- deməsindən anlaşılırdı ki, uşaqlar məqsədlərinə nail olublar. İştirakçıların reaksiyalarından bu gün uşaqlardan eşitdiklərinin onlar üçün həm bir az gülməli, həm də təsiredici olduğunu anlamaq çətin deyildi.

### Valideyn məktəblə, zal səhnə ilə birləşir

Uşaqlardan çətinliklə də olsa ayrılan valideynləri bu dəfə yuxarı sinif şagirdlərinin özfəaliyyəti ilə tanışlıq gözləyir. Mütaliə vərdişlərini təkmilləşdirən şagirdlər bu bacarıqlarını məktəbin kiçik səhnəsindən nümayiş etdirirlər. Akt zalına daxil olan valideynlər dərhal xüsusi ab-havanın fərqinə varırlar.

Səhnə qurulub. Şeir həvəskarları yerini tutub. Geyimlərdən dizayna qədər hər şey İmadəddin Nəsimi dövrünü anladır.

Valideynlər də yerini tutandan sonra məktəblilər Nəsiminin 650 illiyinə həsr etdikləri "Nəsimi ruhu" adlı tədbirə başladılar, nə başladılar...

Nəsiminin misralara düzdüyü dəyərli fikirlər, şairin ruhu hopmuş şeirlər məktəblilərin dilində yeni nəfəs qazandı. Nəsimini anladan əfsanələr səhnədə yenidən canlandırılır, bir anda gerçəyə dönürdü... Budur, Nəsimi ilə Topal Teymur yenə qarşı-qarşıya gəldi. Xüsusi geyimləri, qrimi və səhnədəki davranışı ilə onların məktəbli olduğunu düşünmək çətindir. Böyük bir dövr bir anda çılpaqlığı ilə göz önündə canlandı. Oradan çıxıb XXI əsrə qayıtmaq elə də asan deyildi. Nəsimi yaradıcılığı məktəblilərin çılğın ruhunu ələ keçirib: bu, onların ağırlaşan çöhrəsindən, dərinləşən gözlərindən aydın hiss olunur. Zaldan məktəbli balalarını izləyən valideynlərin də üzünün ifadəsi məktəblilərdən fərqli deyil...

Ağ geyimdə Nəsimi 26 nömrəli məktəbin kiçik səhnəsində zühur edir. İki cahana sığmayan şairi bu kiçik səhnəyə necə sığdırsınlar! Növbəti parça zaldan gəlir. Bu dəfə səhnə ilə zal bütövləşir. Səhnədəki Nəsiminin səsinə zaldakı "silahdaşlar"ı, müəllimlər, hətta valideynlər səs verirlər. Budur, məktəbin direktoru da onlara qoşulur və sıradakı parçanı Yaqut Məmmədova səsləndirir.

Şagird-müəllim-valideyn üçbucağında əməkdaşlıq kiçik bir səhnəcikdən aydın göründü. Onlar sadəcə Nəsiminin fikirlərini yox, həm də özlərinin birgə işini ortaya qoydular.



Əmirxan Həsənov



Fuad Muxtarov



Vüqar Orucov

Önəmlisi, bu səhnə göstərdi ki, valideynlər öz uşaqları ilə bərabər vaxt keçirir, qəzəl oxuyur, şeir əzbərləyir. Onlar evdə də, məktəbdə də bir yerdədirlər.

### Valideynlər məktəblə əməkdaşlıqdan məmnundur

"Valideynin məktəbdə bir günü" çərçivəsində ibtidai, orta və yuxarı siniflərdə təşkil edilən seminarlarda müzakirələr davam etdirilib. Valideynlərin məktəb mühitinə göstərə biləcəkləri töhfələrlə bağlı rəyləri, təklifləri dinlənilib və tədris prosesinin təşkilinin daha da təkmilləşdirilməsi ətrafında səmərəli fikir mübadiləsi aparılıb. Müəllim-şagird-valideyn birliyinin əhəmiyyəti haqqında tövsiyələr verilib.

Axırda da əllərinə qələm alıb məktəbdəki günə qiymət veriblər. Rəy və təkliflər üçün ayrılan dəftərə hər kəs öz fikrini yazıb. Məsələn, Çinarə Süleymanovanın qızı da, oğlu da burada oxuyur. Məktəbə tez-tez gəlməsinə ehtiyac qalmır. Məktəbin işindən, verilən təhsilin keyfiyyətindən razı qaldığını deyən valideynin sözlərinə görə, iştirak etdiyi dərslərdən, məktəbdə keçirdiyi vaxtdan böyük zövq alıb.

Valideynlər arasında atalar da az deyil. Fuad Muxtarovun oğlu Məhəmməd ibtidai sinif şagirdidir. Məktəbdən də, övladından da razıdır: "Valideyn olaraq üzərimə düşən öhdəlikləri yerinə yetirməyə çalışıram. Məktəblə mütəmadi əlaqə saxlayıram. Problemlərlə maraqlanıram. Ancaq hələlik məktəbin valideyn olaraq mənim dəstəyimə ehtiyacı olmayıb. Olarsa, düşünürəm ki, hər birimiz valideyn olaraq dəstək göstərərik. Məktəb hamımızındır və biz valideynlərin məktəbə gəlməsi qeyri-adi hadisə kimi görünməməlidir. Valideynin bir ayağı məktəbdə olmalıdır. Həyat yoldaşım daim məktəbə gəlib-gedir. Mən isə daha çox valideyn iclaslarında iştirak etməyə çalışıram".

Daha bir ata, Əmirxan Həsənovun oğlu Allahverdi VII sinifdə oxuyur. Ara-sıra məktəbə gələn ata hələ ki övladı ilə bağlı xoş sözlər eşidir: "Nəsimi ilə bağlı tədbir çox xoşuma gəldi. Ümumiyyətlə, məktəbin valideynlərlə qurduğu əlaqəni çox bəyənirəm".

Vüqar Orucovun isə 2 qızı - Ləmanla Tamaşa 26 nömrəli tam orta məktəbdə oxuyurlar. Ata üçün məktəbin problemi elə qızlarının problemi deməkdir: "Ancaq problemlərin vaxtında həll edilməsindən, yaradılan şəraitdən çox razıyam. Nə uşaqların, nə də bizim şikayətlənməyimizə əsas verilmir. Belə tədbirlərin isə xüsusilə əhəmiyyətini qeyd etmək istəyirəm".

"Valideynin məktəbdə bir günü" layihəsi valideynləri övladlarının təhsil aldıqları tədris ocaqları ilə yaxından tanış etmək, istər infrastruktur, istərsə də tədris prosesinin təşkili istiqamətində onları məlumatlandırmaq, valideynlərlə məktəb arasında ünsiyyət platformasını daha da genişləndirmək məqsədlərinə xidmət edir. Ancaq 26 nömrəli tam orta məktəbdə görünən odur ki, onlar bu məqsədə çatıblar. Artıq bu məktəbə valideynin gəlməsi qeyri-adi də deyil, gözlənilməz də. Valideynlər məktəblə, məktəb isə valideynlərlə əməkdaşlıqdan çox məmnundur.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL LearnEnglish

## What's for lunch

By Andy Keedwell

### Activity 1

Before you read, check these words in a dictionary or online. Then put them into sentences 1–5. Change the words to the correct form if you need to.

| reveal | identical | respond | exotic | simultaneously |
|---|---|---|---|---|

1. The President ........... yesterday that secret plans to build two new planes had been very successful.
2. The two planes are not ..........., although they look very similar.
3. Tests were made yesterday in which the planes left two different cities ........... and then arrived at the same airport.
4. When reporters asked when the first passenger flight would take place, the President ..........., 'Very soon'.
5. The President said he hoped there would soon be new flights to many ........... destinations.

Two food companies in the United Kingdom have been finding out what people usually have for lunch. Results reveal what a boring bunch the British are when they choose their midday meal! One in six people said that they had had the same food every day for the last two years and some older people admitted they hadn't changed their lunch menu since starting work 20 or 30 years before. A man from Liverpool complained that he always had the same sandwiches every day – although his wife later explained that he made them himself!

Most people responded by saying that they are happy with their usual choice – in first place, a cheese or chicken sandwich and in second place, a salad, or tomato or vegetable soup. At the bottom of the list came spicy lunches like chilli and garlic and more exotic food such as Indian curry or Japanese dishes.

People in Britain have been having lunch for centuries, but they have never spent very long eating their meal. After all, the sandwich was invented by the 18th-century Earl of Sandwich so that he could eat and play cards simultaneously! Today, they are spending less and less time having lunch – only thirty minutes for many people. Over half of the United Kingdom's employees have their lunch at their desk while they are emailing or answering the phone. Health experts advise that the result of such busy lunches is increased stress – perhaps a longer, more exciting lunch would be good for us all!

### Activity 2

Read the titles 1 to 5 below. Which two titles do you think would be good titles for this article?

1. Variety is the spice of life for the British
2. Take your time over lunch and you'll worry less!
3. It's great to have so long for lunch!
4. Working and eating at the same time is normal for many
5. Food from abroad keeps the British happy

### Activity 3

Read sentences 1 to 5 below. Who is speaking? Choose a speaker or speakers from the box.

| | | |
|---|---|---|
| office workers | doctors | a man from Liverpool |
| 16 per cent of the British | an older person | food companies |

**Example**: *'What do you usually have for lunch?'* ***Food companies***
1. 'I'm so bored with my daily menu!'
2. 'I've enjoyed a cheese sandwich every day since 1987.'
3. 'We've had the same lunch for the last two years.'
4. 'A slower lunch would help people relax more.'
5. 'Here we are again: a phone in one hand and a sandwich in the other ...'



### Activity 4

Newspaper headlines use different reporting verbs to show what people have said and how they said it. These reporting verbs are often in the present simple.

Choose words from each column to make newspaper headlines. An example has been done for you.

| What they're saying | Verb | Who's saying it |
|---|---|---|
| ***Mum and daughter to star together*** | admit(s) | 70% of workers |
| No hope for Liverpool | joke(s) | company boss |
| Japanese food healthiest | ***reveal(s)*** | top chef |
| Morning train always late | explain(s) | Manchester United boss |
| Mistakes made | complain(s) | ***Oscar-winning actress*** |

Now match three of the headlines to stories A to C.

**A** Britain's favourite TV cook, Ollie Londoner, said in an interview yesterday that Japanese food was healthier than British meals. 'It's all about the fish, rice and vegetables,' he said on *Wake Up!* on morning television.

**B** George Basset, manager of the sweet factory where an accident took place last week, said yesterday: 'Yes, we got it wrong. There are ways to make sure accidents like this don't happen. One moment everything was fine – the next moment, the machines exploded and we were up to our knees in chocolate.'

**C** 'Their team has as much chance of winning the cup as I have of being the first man on Mars.' said Steve Dribble, who has managed the club for the last three years. 'We have the best players, the best skills and the best fans. We're certain to win.'

### Activity 5

Do you like variety when you choose what to have for lunch or do you always choose the same thing? How about your friends and colleagues?

### Answers

**Activity 1**
1. revealed; 2. identical;
3. simultaneously; 4. responded;
5. exotic

**Activity 2**
2, 4

**Activity 3**
1. a man from Liverpool; 2. an older person;
3. 16 per cent of the British; 4. doctors;
5. an office worker

**Activity 4**

| What they're saying | Verb | Who's saying it |
|---|---|---|
| **Mum and daughter to star together** | **reveals** | **Oscar-winning actress** |
| No hope for Liverpool | joke(s) | Manchester United boss (C) |
| Japanese food healthiest | explains | top chef (A) |
| Morning train always late | complain | 70% of workers |
| Mistakes made | admits | company boss (B) |

**To find more English language activities visit www.britishcouncil.org/learnenglish**

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017

# Axı, hər gün sizi işdə görməyə adət etmişdik, Tahir müəllim...

Beş gün öncəyə qədər Tahir müəllimlə telefon əlaqəsi yaradaraq kiminsə onun səhhəti ilə maraqlandığını bir-birimizdən soruşurduq. Sözün düzü, hər birimiz sanki onunla telefonla danışmaqdan ehtiyat edirdik. Çünki, biz onu hər zaman, hər şeyə rəğmən şən görməyə alışmışdıq, xəstəlik söhbətini belə yaxınına buraxmazdı. Onun bizim otaqlara hər səhər baş çəkib əhvalımızı soruşmağına bir növ adət etmişdik. Ancaq son bir neçə ay idi ki, düçar olduğu amansız xəstəliklə bağlı işə gələ bilmirdi. Necə deyərlər, xəstəlikdən qaçsa da, xəstəlik onun həyatına çağrılmamış bir qonaq kimi daxil olmuş və əməlli-başlı "ev sahibi"nə çevrilmişdi.

Başa vurmaqda olduğumuz ilin son ayında-13 dekabrda Tahir Səmədin 70 yaşı tamam olmuşdu. Təbrik etmək istəyirdik. Amma yenə də ürək eləmirdik. Düşünürdük ki, sağalıb işə çıxar və ona sürpriz olaraq bir tort alıb yaşını üzbəsurət qeyd edər, həmişəki kimi xoş arzularımızı bildirərik. Ancaq sən saydığını say, gör fələk nə sayır... Elə işə çıxdığımız həftənin ilk günü eşitdiyimiz qəfil xəbər hər birimizi sarsıtdı... Tahir müəllim vəfat etmişdi.

"Azərbaycan müəllimi" qəzetinin baş mühasibi idi. Mühasib kimi ixtisaslaşmışdı, işinin peşəkarı idi.

Adətən rəqəmlərlə işləyən insanlar danışmağı o qədər də xoşlamırlar, bəzən isə onlarla həmsöhbət olmaq belə insana darıxdırıcı gələ bilir. Lakin Tahir müəllim haqqında bunları demək olmazdı. Bəlkə də ixtisasca filoloq olmağından, bəlkə də qəzetdə işləməzdən öncə uzun illər "Azərbaycanfilm" kinostudiyasında aktyor şöbəsinin rəisi kimi çalışmağından irəli gəlirdi deyə bilmərəm, amma onu bilirəm ki, çox hazırcavab, hər bir sahə haqqında kifayət qədər məlumatlı idi. Onunla danışan insan darıxmazdı.



2002-ci il yanvarın 2-dən taleyini "Azərbaycan müəllimi" qəzeti redaksiyasına bağlayanda ağlına gəlməzdi ki, bu, axırıncı iş yeri olacaq və ancaq ölüm onu buradan ayıracaq. Kollektivimizin istər ailə tədbirlərində, istərsə də əlamətdar günlərdə Tahir müəllimi görməyə alışmışdıq. Hər zaman maraqlı çıxışları, baməzə zarafatları ilə qəlblərimizi fəth etməyi bacarırdı.

Gözəl ata, qayğıkeş həyat yoldaşı idi. Üç qızına təhsil verib, ev-eşik sahibi etmişdi. Zarafatla deyirdi ki, bilirsiniz, 3 qıza təhsil verib, yerbəyer edənin o biri dünyada yeri cənnətlik olur. Mən artıq cənnətə vəsiqə alanlardanam.

Nəvələrinin hər bir uğuruna uşaq kimi sevinirdi. Onlarla bağlı arzuları da böyük idi... yarımçıq qaldı.

Elə bizim də Tahir müəllim, sizinlə bağlı arzumuz yarımçıq qaldı. Artıq neçə illər idi ki, işlədiyin doğma kollektivlə birlikdə elə işdə ad gününü qeyd edirdin... Bu dəfə isə 70 yaşını bizsiz qeyd etdin. Amansız ölüm səni aramızdan apardı.

**Axı, hər gün sizi işdə görməyə adət etmişdik, Tahir müəllim...**

**Allah sənə rəhmət eləsin!**

**Samirə KƏRİMOVA**

# Smartfonlar 2 ildən sonra sıradan çıxacaq




**Samirə KƏRİMOVA**

"2021-ci ildə adi gündəlik eynəklərdən fərqlənməyən əlavə reallıq (augmented reality - AR) qurğuları meydana çıxacaq",- deyə mobil prosessorların ən böyük istehsalçısı olan "Qualcomm" şirkətinin prezidenti Kristiano Amon bildirib.

**www.hi-tech.mail.ru** saytının məlumatına əsasən, Amon əlavə və virtual reallıq (virtual reality - VR) sahəsində öz layihələri üzərində aktiv iş aparan "Facebook", "Microsoft" və "Apple" şirkətlərini nümunə göstərib. Gələcəkdə bu kimi qadcetlərin smartfonlardan sonra yeni əsas platforma ola biləcəyini söyləyib. Qeyd edib ki, onlar mobil telefonu əvəz etməyəcəklər. Bu, tamamilə başqa tip qurğu olacaq.

Onun sözlərinə görə, "Facebook" 2014-cü ildə "Oculus VR" startapını 2 milyard dollara satın alıb. "Microsoft" bu yaxınlarda ikinci nəsil "HoloLens" əlavə reallıq eynəyini istehsal edib. "Apple" isə 2022-ci ildə əlavə və virtual reallığa əsaslanan qadcetini təqdim etməyə hazırlaşır.

İstehsalçıların yeni texnologiyaya diqqət göstərməsinə baxmayaraq, o, hələ gündəlik həyatda geniş istifadə olunmalıdır. AR və VR eynəklər bazarında 2019-cu ilin birinci rübünədək azalma müşahidə olunub. Bundan başqa, həmin qurğular hələ də çox bahadır. Məsələn, "HoloLens"in qiyməti 3500 dollar təşkil edir. Bu sahənin inkişafını hələ ki, sadə istifadəçilər deyil, böyük şirkətlər təmin edəcəklər.

Kristiano Amon hesab edir ki, "ağıllı" eynəklərin növbəti modelləri indikilərlə müqayisədə daha təbii görünüşə malik olacaq. Bu da insanların necə ünsiyyət saxlaması, İnternet və sosial şəbəkələrdən istifadəsinə əhəmiyyətli təsir göstərəcək. "5G" şəbəkəsinin geniş yayılması ilə bu kimi qadcetlər bulud texnologiyalarına daimi və sürətli giriş əldə edəcəklər. O, artıq "inanılmaz" prototipləri gördüyünü qeyd edib.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktorun müavini**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6518, **Sifariş** 4320

**Məsul növbətçi:** Ş.Cəfərov


# Məktəblilərin Bakı şəhər birinciliyinə yekun vurulub

Respublika Velotrekində "Olimpiya Hərəkatı" layihəsi çərçivəsində Bakı şəhərinin məktəb komandaları arasında keçirilən veloidman üzrə yarışlara yekun vurulub.

Nəticədə I yerə 308 nömrəli, II yerə 29 nömrəli, III yerə isə 111 nömrəli məktəb komandaları layiq görülüb.

Qeyd edək ki, birincilik Bakı şəhəri üzrə ümumi təhsil müəssisələrinin şagirdlərinin iştirakı ilə badminton (IX-X siniflər), veloidman (qızlar, VII-VIII siniflər) və həndbol (VIII-X siniflər) idman növləri üzrə keçirilir.

Oktyabr ayından başlanılan yarışların məktəbdaxili mərhələsinə badminton idman növü üzrə 252, həndbol üzrə 233, veloidman üzrə 247 məktəb qatılıb. Ümumilikdə üç idman növü üzrə təşkil olunan yarışlarda 13 mindən artıq məktəbli iştirak edib.

Yarışlar Təhsil və Gənclər və İdman nazirlikləri, Milli Olimpiya Komitəsinin birgə təşkilatçılığı ilə keçirilir. Məqsəd məktəblilər arasında Olimpiya hərəkatını təşviq etmək, ümumi təhsil müəssisələrində fiziki tərbiyə fənninə marağı artırmaq, fiziki tərbiyə müəllimləri ilə idman federasiyaları, idman məktəbləri arasında əməkdaşlığı gücləndirmək, həmçinin olimpiya idman komplekslərindən, idman bazalarından səmərəli istifadəni təşkil etmək və hədəf idman növləri üzrə kütləviliyi artırmaqdan ibarətdir.

# Etibarsız sayılır

**Təfəkkür Universiteti** tərəfindən 2008-ci ildə Zeynalzadə Gülnar Mikayıl qızına verilmiş B-126305 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Məmmədov Fərid Elman oğluna verilmiş B-131703 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Xankənd kənd tam orta məktəbinin IX sinfini 1995-cı ildə bitirmiş Aslanova (İsmayılova ) Vəsilə Allahyar qızına verilmiş 256/1 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 24 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Qasanlı Ravaz Məhəmməd oğluna verilmiş E-011976 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 68 nömrəli köçkün tam orta məktəbini 2009-cu ildə bitirmiş Abdullayeva Səbinə Tofiq qızına verilmiş B-675726 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 204 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Hüseynli Ülvi Akif oğluna verilmiş B-687143 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 1 nömrəli tam orta məktəbini 1993-cü ildə bitirmiş İbrahimova (Əzizova) Samirə Fikrət qızına verilmiş 123172 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 1 nömrəli tam orta məktəbini 1999-cu ildə bitirmiş Qafarova (Hacıyeva) Ruqiyyə Məzahr qızına verilmiş A-371062 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Mollakənd kənd tam orta məktəbini 1994-cü ildə bitirmiş Babayev Daxil Vilayət oğluna verilmiş 120 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 1997-ci ildə Kalinin Mixail Sergeyeviçə verilmiş AB-I-025461 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayonu** şəhər 2 nömrəli tam orta məktəbi 1989-cu ildə bitirmiş Teymurova (Novruzova) Sevinc Balay qızına verilmiş 637504 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 271 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Məmmədov Arif Vahid oğluna verilmiş A-054009 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 189 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Məhərrəmova Anara Zakir qızına verilmiş B-303104 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 2 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Məmmədova Naibə Rafiq qızına verilmiş A-375226 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Hacıyev Nicat Mübariz oğluna verilmiş A-019114 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1994-cü ildə Səfərov Abbas Tofiq oğluna verilmiş AB-I-029424 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Kolleci** tərəfindən 2019-cu ildə Abışova Ceyran Həsrət qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu Ağcabədi filialı** tərəfindən 2015-ci ildə Hüseynova Nərmin Ələmşah qızına verilmiş A-065074 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2013-cü ildə Qaçayev Vüsal İlqar oğluna verilmiş A-005759 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Cəbrayıllı Əsli Məhəmməd qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən 2005-ci ildə Abbasov Rauf Fəxrəddin oğluna verilmiş B-023874 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 177 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əliyev Soltan Şahnəsib oğluna verilmiş B-483646 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2018-ci ildə Abdulvahabov İlkin Vidadi oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universitetini** 2006-cı ildə bitirmiş İsayeva Ülkər Hamlet qızına 2007-ci ildə verilmiş A-012366 nömrəli fərqlənmə bakalavr diplomu tapıldığı üçün etibarlı sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Nəbiyeva Lalə Ramiz qızına verilmiş A-025583 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2014-cü ildə Vaqifzadə Cəlalə Cəlal qızına verilmiş AT-000441 nömrəli Baza Ali tibb təhsili diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2017-ci ildə Vəliyev Röyal Zakir oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir Texniki Peşə Məktəbini (indiki Kürdəmir Peşə Liseyi)** 1988-ci ildə bitirmiş Musayev Səməd Heydər oğluna verilmiş 090294 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 17 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Məmmədova Aytəkin Tofiq qızına verilmiş A-596871 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 236 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Allahverdiyeva Fəxriyyə Xudakərim qızına verilmiş BN-383335 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 149 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Mustafayeva Xanım Coşqun qızına verilmiş A-981918 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2011-ci ildə Həmzəyeva Vüsalə Qəhrəman qızına verilmiş YB-014801 nömrəli yenidənhazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Quba rayonu** B.Şixəmirov adına Zərdabi qəsəbə tam orta məktəbini 1994-cü ildə bitirmiş Əlixani Səbuhə Şabənəli qızına verilmiş AN-045560 nömrəli əsas təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam Dövlət Sosial-İqtisad Kolleci** tərəfindən 2010-cu ildə Süleymanova Familə Kamil qızına verilmiş BB-II-108706 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2017-ci ildə Qulamova Gülşən Elşən qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Laçın rayonu** Ə.İsaxanov adına Quşçu kənd tam orta məktəbini 2011-ci ildə bitirmiş Kazımlı Elməddin Surxay oğluna verilmiş A-163765 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 90 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş İbrahimov Murad Habil oğluna verilmiş A-509374 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**5 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2011-ci ildə Bağırov Vüqar Hafis oğluna verilmiş BB-062386 nömrəli diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Tibb Məktəbi** tərəfindən 1988-ci ildə Qurbanov Akif Şahbeddin oğluna verilmiş NT-029521 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**5 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2011-ci ildə İmanov Fərhad Aydın oğluna verilmiş BB-062396 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Xudat şəhər 2 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş İbrahimov Nəcəf Müqtədir oğluna verilmiş B-329375 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.





# Universitetlər təhsil istiqaməti üzrə

Oruc MUSTAFAYEV

## Yeni tədqiqatda ali məktəblərin akademik effektivliyi qiymətləndirilib

Böyük Britaniyanın ali təhsil xidmətləri sahəsində ixtisaslaşmış “Times Higher Education” (THE) dərgisinin tədqiqat mövzularından biri ali təhsil müəssisələrinin ixtisas hazırlığı istiqamətləri üzrə qiymətləndirilməsidir. Builki tədqiqatda universitetlər 11 istiqamətdə (kliniki; kliniköncəsi və sağlamlıq; təbiət elmləri; fiziki elmlər; psixologiya; biznesin iqtisadiyyatı; təhsil; qanun, sosial elmlər; maşınqayırmanın texnologiyası; kompüter elmləri; incəsənət və humanitar elmlər) qiymətləndirilib.

Universitetlərin təhsil istiqaməti üzrə qiymətləndirməsində qlobal reytinqlərdə olduğu kimi, eyni dərəcədə etibarlı və ciddi performans göstəricilərindən istifadə olunur, çəki əmsalı ayrı-ayrı sahələr üzrə üst-üstə düşür. Reytinq universitetlərdə təhsilin effektivliyini, müəllimlərin hazırlanmasını və tədris fənləri üzrə akademik araşdırmalarını qiymətləndirir. Ötən illə müqayisədə (428) builki tədqiqatda 477 universitet təmsil olunub. Reytinqin ilk sıralarında ABŞ-ın Stanford və Harvard universitetləri yer alıb. Honkonq Universiteti reytinqdə üçüncü yerə qalxıb, Oksford Universiteti isə bir sıra irəliləyərək dördüncü yerdə qərarlaşıb. Berkli Kaliforniya Universiteti isə bu il 2 sıra geriləyərək beşinci yeri tutub. Nyu-York Universiteti 21 pillə yüksələrək bu il 13-cü yerə qalxıb ki, bu da ciddi tərəqqidir.

Reytinqin ilk 10-luğunda əsasən ABŞ və Böyük Britaniya universitetləri yer alıb. Asiya qitəsini liderlər sırasında Honkonq Universiteti təmsil edir ki, bu da adıçəkilən ali təhsil müəssisəsinin qlobal reytinqdə güclənməsinin daha bir təzahürüdür. Reytinqin ilk 10-luğunda aşağıdakı ali məktəblər bu ardıcıllıqla sıralanıb:

1.Stenford Universiteti, 2.Harvard Universiteti, 3.Honkonq Universiteti, 4.Oksford Universiteti, 5.Kaliforniya Berkli Universiteti, 6.Pensilvaniya Universiteti, 7.Kembric Universiteti, 8.Los-Anceles Kaliforniya Universiteti, 9.Viskonsin Medison Universiteti, 10.Miçiqan Arbur Universiteti. Reytinqlə daha ətraflı *www.timeshighereducation.com/world-university-rankings/2020/subject-ranking/education* səhifəsindən tanış olmaq olar.

| Reytinq | Ali məktəb | Ölkə | Tələbələrin ümumi sayı | Tələbə-müəllim nisbəti | Əcnəbi tələbələr | Qadın-kişi nisbəti |
|---|---|---|---|---|---|---|
| 1. | Stanford University | ABŞ | 16,135 | 7.3 | 23% | 43 : 57 |
| 2. | Harvard University | ABŞ | 20,823 | 9.2 | 24% | 49 : 51 |
| 3 | University of Hong Kong | Honkonq | 18,260 | 18.2 | 44% | 54 : 46 |
| 4. | University of Oxford | Birləşmiş Krallıq | 20,664 | 11.2 | 41% | 46 : 54 |
| 5. | University of California, Berkeley | ABŞ | 41,081 | 13.7 | 17% | 50 : 50 |
| 6. | University of Pennsylvania | ABŞ | 20,578 | 6.5 | 21% | 52 : 48 |
| 7. | University of Cambridge | Birləşmiş Krallıq | 18,978 | 10.9 | 37% | 47 : 53 |
| 8. | University of California, Los Angeles | ABŞ | 41,066 | 9.4 | 17% | 54 : 46 |
| 9 | University of Wisconsin-Madison | ABŞ | 39,154 | 10.0 | 13% | əks olunmayıb |
| 10. | University of Michigan-Ann Arbor | ABŞ | 42,982 | 8.3 | 17% | 49 : 51 |
| 11. | Vanderbilt University | ABŞ | 12,006 | 3.0 | 14% | 54 : 46 |
| 12. | Michigan State University | ABŞ | 44,789 | 16.5 | 16% | 51 : 49 |
| 13. | Peking University | Çin | 39,575 | 11.5 | 15% | 46 : 54 |
| 14. | University of Toronto | Kanada | 73,370 | 20.1 | 21% | 59 : 41 |
| 15. | University of Washington | ABŞ | 45,692 | 11.1 | 16% | 53 : 47 |
| =16. | Columbia University | ABŞ | 26,586 | 5.8 | 37% | əks olunmayıb |
| =16. | UCL | Birləşmiş Krallıq | 32,665 | 10.6 | 52% | 57 : 43 |
| 18. | King’s College London | Birləşmiş Krallıq | 26,057 | 12.5 | 44% | 62 : 38 |
| =19. | University of British Columbia | Kanada | 52,108 | 18.1 | 32% | 55 : 45 |
| =19. | University of Texas at Austin | ABŞ | 49,165 | 17.2 | 10% | 52 : 48 |
| 21. | New York University | ABŞ | 44,466 | 8.9 | 33% | 57 : 43 |
| 22. | Penn State (Main campus)s | ABŞ | 46,204 | 15.3 | 16% | 46 : 54 |
| =23. | Maastricht University | Niderland | 16,857 | 18.6 | 54% | 60 : 40 |
| =23. | National Taiwan Normal University | Tayvan | 10,789 | 12.1 | 24% | əks olunmayıb |
| 25. | University of Melbourne | Avstraliya | 47,385 | 26.3 | 46% | 56 : 44 |
| 26 | Johns Hopkins University | ABŞ | 16,171 | 4.5 | 26% | 52 : 48 |
| 27. | University of Minnesota | ABŞ | 61,120 | 12.4 | 11% | 52 : 48 |
| 28. | University of Southern California | ABŞ | 36,929 | 11.7 | 25% | 53 : 47 |
| 29. | National Taiwan University of Science and Technology | Tayvan | 8,340 | 19.5 | 15% | 30 : 70 |
| 30. | Ohio State University | ABŞ | 54,372 | 12.5 | 13% | 50 : 50 |
| 31. | University of Illinois at Urbana-Champaign | ABŞ | 44,916 | 17.9 | 24% | 47 : 53 |
| 32. | University of North Carolina at Chapel Hill | ABŞ | 35,419 | 9.4 | 8% | 57 : 43 |
| 33. | Arizona State University (Tempe) | ABŞ | 46,683 | 21.1 | 21% | 43 : 57 |
| 34. | Chinese University of Hong Kong | Honkonq | 18,340 | 18.6 | 32% | əks olunmayıb |
| 35. | Utrecht University | Niderland | 31,833 | 14.2 | 9% | 59 : 41 |
| =36. | Boston College | ABŞ | 12,904 | 15.7 | 11% | 55 : 45 |
| =36. | University of Edinburgh | Birləşmiş Krallıq | 29,433 | 12.8 | 41% | 60 : 40 |
| 38. | University of Georgia | ABŞ | 35,164 | 16.3 | 7% | 57 : 43 |
| 39. | Nanyang Technological University, Singapore | Sinqapur | 25,088 | 15.9 | 27% | 48 : 52 |
| 40. | Indiana University | ABŞ | 66,872 | 13.6 | 15% | 52 : 48 |
| 41. | University of Virginia (Main campus) | ABŞ | 23,116 | 8.6 | 12% | 52 : 48 |
| 42. | University of Pittsburgh-Pittsburgh campus | ABŞ | 26,652 | 5.8 | 11% | 51 : 49 |
| 43. | University of Maryland, College Park | ABŞ | 33,108 | 16.6 | 11% | 48 : 52 |
| =44. | Beijing Normal University | Çin | 23,524 | 15.4 | 11% | əks olunmayıb |
| =44. | KU Leuven | Belçika | 45,049 | 36.3 | 15% | 50 : 50 |
| =46. | University of Auckland | Yeni Zelandiya | 32,821 | 22.1 | 32% | 56 : 44 |
| =46. | University of Queensland | Avstraliya | 39,144 | 35.7 | 34% | 55 : 45 |
| 48. | McGill University | Kanada | 31,294 | 13.0 | 29% | 58 : 42 |
| 49. | The University of Tokyo | Yaponiya | 25,913 | 10.6 | 12% | əks olunmayıb |
| 50. | Ghent University | Belçika | 38,080 | 37.0 | 10% | 54 : 46 |
| 51. | University of California, San Diego | ABŞ | 33,579 | 13.0 | 23% | 46 : 54 |
| 52. | University of California, Santa Barbara | ABŞ | 24,089 | 27.6 | 16% | 52 : 48 |
| 53. | Durham University | Birləşmiş Krallıq | 16,963 | 14.8 | 30% | 55 : 45 |
| 54. | LMU Munich | Almaniya | 34,519 | 34.7 | 17% | 61 : 39 |
| 55. | Florida State University | ABŞ | 38,520 | 24.1 | 7% | 56 : 44 |
| 56. | Lancaster University | Birləşmiş Krallıq | 12,657 | 12.5 | 38% | 51 : 49 |
| =57. | Deakin University | Avstraliya | 39,305 | 28.6 | 22% | 58 : 42 |
| =57. | University of Sydney | Avstraliya | 45,111 | 20.1 | 39% | 58 : 42 |
| 59. | Korea University | Cənubi Koreya | 22,965 | 16.0 | 22% | əks olunmayıb |
| 60. | University of Helsinki | Finlandiya | 22,072 | 16.6 | 5% | 66 : 34 |
| =61. | UNSW Sydney | Avstraliya | 44,336 | 35.7 | 41% | 47 : 53 |
| =61. | Virginia Polytechnic Institute and State University | ABŞ | 32,838 | 18.3 | 14% | 43 : 57 |
| 63. | University of Manchester | Birləşmiş Krallıq | 37,038 | 14.4 | 40% | 53 : 47 |
| 64. | University of Nottingham | Birləşmiş Krallıq | 29,699 | 14.6 | 29% | 54 : 46 |
| 65. | University of Bristol | Birləşmiş Krallıq | 21,783 | 13.6 | 27% | 54 : 46 |
| 66. | University of Oslo | Norveç | 20,783 | 12.6 | 17% | 62 : 38 |
| 67. | University of Hamburg | Almaniya | 30,375 | 59.3 | 12% | 56 : 44 |
| 68. | University of Iowa | ABŞ | 28,945 | 11.6 | 12% | 52 : 48 |
| 69. | Kyoto University | Yaponiya | 22,566 | 9.0 | 9% | 24 : 76 |
| 70. | National Sun Yat-Sen University | Tayvan | 9,190 | 13.2 | 6% | 39 : 61 |
| =71. | Boston University | ABŞ | 25,662 | 11.6 | 27% | 60 : 40 |
| =71. | Brown University | ABŞ | 9,391 | 10.8 | 20% | əks olunmayıb |
| 73. | University of Leicester | Birləşmiş Krallıq | 14,645 | 14.3 | 32% | 53 : 47 |
| =74. | University of Colorado Boulder | ABŞ | 33,186 | 16.3 | 11% | 44 : 56 |
| =74. | University of South Australia | Avstraliya | 20,268 | 30.5 | 25% | 58 : 42 |
| 76. | University of California, Irvine | ABŞ | 32,706 | 16.5 | 26% | 52 : 48 |
| =77. | Humboldt University of | Almaniya | 33,463 | 56.1 | 17% | əks olunmayıb |
| =77. | University of Technology Sydney | Avstraliya | 26,385 | 43.4 | 34% | 51 : 49 |
| 79. | University of Leeds | Birləşmiş Krallıq | 30,236 | 14.2 | 29% | 61 : 39 |
| 80. | Monash University | Avstraliya | 52,989 | 33.9 | 39% | 57 : 43 |
| =81. | University of Amsterdam | Niderland | 26,723 | 13.5 | 18% | 56 : 44 |
| =81. | University of Antwerp | Belçika | 15,166 | 29.3 | 17% | 55 : 45 |
| =81. | Texas A&M University | ABŞ | 60,818 | 24.8 | 8% | 47 : 53 |
| 84. | North Carolina | ABŞ | 30,231 | 12.5 | 15% | 45 : 55 |
| 85. | Aarhus University | Danimarka | 26,842 | 14.4 | 9% | 55 : 45 |
| =86. | University of Bath | Birləşmiş Krallıq | 13,825 | 16.4 | 32% | 46 : 54 |
| =86. | Zhejiang University | Çin | 33,427 | 10.7 | 22% | 23 : 77 |
| =86. | University of Zurich | İsveçrə | 22,609 | 12.3 | 21% | 57 : 43 |
| 89. | University of York | Birləşmiş Krallıq | 16,058 | 14.9 | 24% | 56 : 44 |
| 90. | Seoul National University | Cənubi Koreya | 26,182 | 12.4 | 12% | əks olunmayıb |
| 91. | University of Tübingen | Almaniya | 27,901 | 37.5 | 14% | 58 : 42 |
| 92. | University of Rochester | ABŞ | 9,824 | 4.2 | 31% | 49 : 51 |
| 93. | Free University of Berlin | Almaniya | 35,894 | 58.2 | 21% | 59 : 41 |
| 94. | Kazan Federal University | Rusiya | 26,670 | 10.8 | 13% | 66 : 34 |
| =95. | University of Southampt | Birləşmiş Krallıq | 23,863 | 13.7 | 34% | 53 : 47 |
| =95. | Trinity College Dublin | İrlandiya | 16,853 | 21.9 | 30% | 59 : 41 |
| 97. | University of Groningen | Niderland | 27,228 | 23.8 | 21% | 51 : 49 |
| =98. | Curtin University | Avstraliya | 29,214 | 20.2 | 31% | 51 : 49 |
| =98 | University of Sheffield | Birləşmiş Krallıq | 26,218 | 15.0 | 34% | 50 : 50 |
| 100. | East China Normal University | Çin | 25,747 | 11.5 | 17% | 65 : 35 |


Honkonq Universiteti


Oksford Universiteti


Kaliforniya Berkli Universiteti


Pensilvaniya Universiteti